Xalqın qəzeti!

# Xalq qəzeti

№ 39 (30733) 21 fevral 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Qayıdışın bal dadı



Səhifə ⇨ 4

# Azərbaycan dövləti xalqa sədaqətlə xidməti yüksək qiymətləndirir

## Prezident İlham Əliyev Artur Rasi-zadəyə “Heydər Əliyev” ordenini təqdim edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Artur Rasi-zadəni qəbul edib və ona “Heydər Əliyev” ordenini təqdim edib. Görüşdə çıxış edən dövlətimizin başçısı dedi:**

– Hörmətli Artur müəllim, sizi qarşıdan gələn yubileyiniz münasibətilə təbrik edirəm, sizə cansağlığı, uzun ömür arzulayıram. Siz uzun illər ərzində Azərbaycanın inkişafına töhfə vermisiniz. Müxtəlif məsul vəzifələrdə çalışaraq Azərbaycan iqtisadiyyatının inkişafı üçün böyük səylər göstərmisiniz həm sovet dövründə, həm də müstəqillik dövründə. Ulu öndər Heydər Əliyev sovet dövründə sizin peşəkarlığınızı, biliklərinizi nəzərə alaraq, – hələ o vaxt siz gənc yaşlarınızda idiniz, - sizi qabağa çəkərək önəmli vəzifələrə təyin etmişdir, Nazirlər Sovetinin sədrinin müavini vəzifəsinə. Ulu öndər Heydər Əliyev müstəqillik dövründə Azərbaycan Prezidenti seçiləndən sonra ilk təyinatlarından biri də sizi özünə köməkçi təyin etməyi idi. Ondan sonra sizi daha böyük vəzifəyə layiq gördü və Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin etdi.

*(ardı 2-ci səhifədə)*

# *Azərbaycanda Birinci vitse-prezidentlik institutu –* ilk innovativ-siyasi-mədəni idarəetmə strategiyası



**XXI əsrin geosiyasi reallığına fərqli rakursdan diqqət yetirəndə dünya dövlətlərində qarşıdurmalar, çətinliklər, müharibələr, savaşlar, dağıntılar, miqrasiyalar, “su davaları”, kataklizmlərlə müqayisədə suveren Azərbaycanda daxili sabitlik, dövlət – xalq – ordu birliyi, birgəyaşayış həyat tərzi, həmrəylik... nəzəri çəkir. Azərbaycanın Cənubi Qafqaz regionunda yaratdığı yeni reallıqlar zəminində ölkə modern inkişaf xəttinə yönəlik strateji yolu seçibdir. Ölkəmizdə məhz daxili siyasi-ictimai və vətəndaş həmrəyliyi sabitlik amilini nizamlayır.**

Yeni reallıqlar fəlsəfəsində Azərbaycanın yeni dövrdə inkişafının çoxtərəfli tərəqqisinin əsasını Prezident İlham Əliyev siyasi xətti ilə ölkənin imkan və potensialının qarşıya çıxan hədəf və çağırışları paralelliyində, respublikanın strateji prioritetləri zəruriləşdirir. XXI əsrin üçüncü onilliyində respublikanın inkişaf mənzərəsi Prezident İlham Əliyev siyasi iradəsindən və praqmatizmindən irəli gələn “Güclü Azərbaycan” modeli paradiqması yeni innovativ tərəqqini gerçəkləşdirən islahatlarla səciyyələnən reallıqlar olub, həmçinin 2020-ci il Vətən müharibəsinin Zəfərlə bitməsindən sonra postmüharibə dövründə də ardıcıllıqla həyata keçirilən yenilənmələr çoxşaxəlidir.

*(ardı 3-cü səhifədə)*

# Yerablur məzarlığından boylanan Qarabağ avantürası

**37 il əvvəlin dünənki günündə, yəni 20 fevral 1988-ci ildə ermənilərin qondarma “Qarabağ hərəkatı” başlamışdı. Bu tarix uzun illər həm Ermənistanda, həm artıq canını tapşırmış separatçı “Dağlıq Qarabağ Respublikası”nda, həm də dünya erməniliyinin müxtəlif məkanlarında bayram günü kimi qeyd edilmişdi. Yenə də qeyd edilir, amma “Qarabağ hərakatı”nın, obrazlı desək, başına daş düşdüyü də vurğulanır.**

Bəli, bu il də Ermənistana sığınmış beş-altı separatçı toplaşaraq 20 fevral 1988-ci il tarixini yada saldılar. Əlbəttə, indi söhbət yada salmaqdan yox, anmaqdan gedir. Anma məkanı isə İrəvandakı Yerablur qəbiristanlığıdır. O qəbiristanlıq ki, İkinci Qarabağ müharibəsində Azərbaycan torpaqlarında cəhənnəmə vasil olmuş ermənilərin məzar daşları ilə doludur.

Ümumən, “Qarabağ hərəkatı”nın 37-ci ildönümünün Yerablurda qeyd edilməsində məntiq, qanunauyğunluq və ibrət var. Çünki ölmüş avantüranın hazırda qərarlaşdığı ən doğru məkan elə qəbirstanlıqdır. Erməni cəmiyyəti bunu nəzərə almalı və düşünməlidir. Nəyi düşünməlidir, bunu sonda açıqlayacağıq.

Azərbaycan xalqı 37 il əvvəlin hadisələrindən dərs götürməlidir. Bilməlidir ki, “Qarabağ hərəkatı” erməni millətçilərinin Ermənistan SSR-də və Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində 1980-ci illərin sonlarında başlamış olduqları, məqsədi bölgəni Azərbaycanda alıb Ermənistana vermək olan hərəkat idi. Hər şey isə 1987-ci ildə Ermənistan SSR-də və DQMV-də muxtar vilayətin Ermənistan SSR-in tərkibinə verilməsi tələbi ilə bağlı imzaların toplanmasından başlamış, təşkilatçılar öz “kampaniyalarını” “referendum” adlandırmışdılar.

Bəli, 1987-ci il dekabrın 1-də Qarabağ ermənilərinin nümayəndə heyəti tələblərini və “referendumda” toplanmış imzaları Moskvada Kommunist Partiyasının Mərkəzi Komitəsinə təqdim etdilər. Prosesdə erməni millətçisi və cəlladı yazıçı Zoriy Balayan aktiv rol oynadı. 1988-ci il fevralın 13-də Xankəndidə (o zaman Stepanakert) ilk kütləvi nümayiş təşkil olundu. Nümayişçilərin tələbi “DQMV-nin Ermənistanla birləşdirilməsi” idi. Fevralın 14-də isə şair Silva Kaputikyan Ermənistan Yazıçılar İttifaqının iclasında Qarabağ ermənilərinin tələblərini dəstəklədiyini açıqladı.



*(ardı 8-ci səhifədə)*

## Paşinyanın 14 tezisi: “Real Ermənistan”, yoxsa kreslo davası?

**Ermənistan baş naziri Nikol Paşinyan iki gün əvvəl xalqa ideoloji məzmunda müraciət ünvanlayıb. Onun təqdim etdiyi 14 tezisə diqqət yetirəndə belə təsəvvür yaranır ki, erməni cəmiyyətinin hazırkı durumu adi yaşayış normalarından da uzaqdır.**

*(ardı 5-ci səhifədə)*



## Afişada “Sosial ədalət”, səhnədə “Məkr – xəyanət”

### *USAID-in törətdiyi rəzalətlərin kartotekasındakı faktlar hər gün artır*

**Yadımdadır, 2019-cu il dekabrın 18-də Bakıda USAID missiyasının direktoru Cey Sinqxin iştirakı ilə “Çirkli pulların yuyulmasında vətəndaş cəmiyyəti təşkilatlarından sui-istifadənin qarşısının alınmasında beynəlxalq qabaqcıl təcrübəyə dair seminar” keçirilmişdi. O zaman “Xalq qəzeti”nin mərhum əməkdaşı İlham Abbasov maraqlı bir fikir səsləndirmişdi: “USAID deyilən o təşkilat çirkli pulların yuylmasında iştirak edənlərin ən yekəsidir”. O həmkarımız filoloq-dilçi olsa da, öz arqumentindəki “yekə” ifadəsini başqa sözlə dəyişməmişdi. Sonra məlum oldu ki, həmin beynəlxalq təşkilat, sözün həqiqi mənasında, çirkin əməlləri törədənlərin lap yekəsidir.**

*(ardı 5-ci səhifədə)*

## Nəqliyyat dəhlizləri – dünyaya açılan qapılar



Səhifə ⇨ 7

## Tramp dünyanı heyrətə salır



Səhifə ⇨ 11

## “İmarət” – dünənə ehtiram, sabaha inam abidəsi



Səhifə ⇨ 10

# Prezident İlham Əliyev Artur Rasi-zadəyə “Heydər Əliyev” ordenini təqdim edib

(əvvəli 1-ci səhifədə)

Təbii olaraq, Ulu öndər Heydər Əliyev insanları tanıyırdı, onların peşəkarlığını, biliklərini və bilirəm ki, sizi də bir insan kimi həmişə yüksək qiymətləndirirdi. Həm dediyim keyfiyyətlərə, eyni zamanda, prinsipial mövqeyinizə görə. Sizin prinsipial mövqeyiniz bütün məsələlərdə özünü göstərirdi - həm ölkəmizin iqtisadi inkişafı ilə, həm də bütün başqa məsələlərlə bağlı.

Biz sizinlə 15 il işləmişik - 2003-cü ildən 2018-ci ilə qədər. Hesab edirəm ki, o illər Azərbaycan iqtisadiyyatı üçün ən sürətli inkişaf illəri olmuşdur. Azərbaycan iqtisadiyyatı o illərdə bəlkə də iki dəfə çox artmışdır və ölkə qarşısında duran əsas infrastruktur layihələrinin həlli, ya da ki, başlanması məhz o illərə təsadüf edir. Sizin rəhbərliyinizlə Nazirlər Kabineti Prezidentin tapşırıqlarını ləyaqətlə yerinə yetirirdi və bu gün Azərbaycanın dayanıqlı iqtisadi inkişafı təbii olaraq bizim müstəqilliyimizin əsasını təşkil edir. Birlikdə işlədiyimiz 15 il ərzində daim təmasda idik, məsələləri müzakirə edirdik, həll edirdik. 2018-ci ildən sonra da təmasdayıq. Şadam ki, siz yubileyinizi çox yaxşı fiziki formada qarşılayırsınız və sizi həmişə görmək mənim üçün xoşdur. İllər boyunca bir çox telefon söhbətimiz olubdur, bir çox məsələləri müzakirə etmişik. Sizi bu gün gözəl yubiley ərəfəsində dəvət etdim ki, sizə Azərbaycan dövlətinin ən ali mükafatı olan “Heydər Əliyev” ordenini təqdim edim. Bu gün imzaladığım Sərəncamla siz ölkəmizin ən ali mükafatına layiq görülmüsünüz. Siz buna layiqsiniz, siz Heydər Əliyevin etibarlı silahdaşı olmusunuz. Yenə də deyirəm, həm sovet dövründə, həm müstəqillik dövründə, özü də müstəqilliyimizin ən ağır dövrlərində atamın yanında olmusunuz. O, bunu qiymətləndirirdi, mən də həmişə qiymətləndirirdim və qiymətləndirirəm. Bu, tam ədalətli bir qərardır və icazə verin, mən bu yüksək ordeni sizə təqdim edim.



***

Prezident İlham Əliyev “Heydər Əliyev” ordenini Artur Rasi-zadəyə təqdim etdi.

***

Əməyinə verdiyi qiymətə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Artur Rasi-zadə Ulu öndər Heydər Əliyevin adını daşıyan ordenə layiq görülməyin onun üçün ən böyük şərəf olduğunu dedi, Ümummilli liderlə və Prezident İlham Əliyevlə uzun illər ərzində çalışmaqdan fəxr hissi keçirdiyini vurğuladı. Artur Rasi-zadə Azərbaycan Prezidentinin tarixi hadisənin müəllifi olduğunu, torpaqlarımızın 30 illik işğalına son qoyduğunu və orada yeni həyatın başladığını qeyd etdi.

# A.T. Rasi-zadənin “Heydər Əliyev” ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə və dövlət qulluğunda müstəsna xidmətlərinə görə Artur Tahir oğlu Rasi-zadə “Heydər Əliyev” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 20 fevral 2025-ci il**

# Ağdam şəhərində “İmarət” Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Qarabağ tarixinin və mədəni irsinin dərindən öyrənilməsi, Pənahəli xan tərəfindən əsası qoyulan Qarabağ xanlığı barədə tarixi faktların təbliği və gələcək nəsillərə ötürülməsi məqsədilə **qərara alıram:**

**1.** Ağdam şəhərində “İmarət” Tarix-Memarlıq Muzey Kompleksi yaradılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. “İmarət” Tarix-Memarlıq Muzey Kompleksinin və Muzey Kompleksinə daxil ediləcək digər dövlət əmlakının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin balansına verilməsi ilə bağlı zəruri tədbirlər görsün;

2.2. Muzey Kompleksinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tələb olunan zəruri xərclərin maliyyələşdirilməsinin Azərbaycan Respublikasının dövlət büdcəsində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilməsini təmin etsin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 20 fevral 2025-ci il**

# Azərbaycan Prezidenti İran İslam Şurası Məclisinin sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqir Qalibafın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Azərbaycan Prezidenti iki ölkənin xalqlarının ortaq tarixi, mədəni və dini köklərinin olduğunu, xalqlarımızın yaxınlığını vurğuladı.

Son dövrlərdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif səviyyələrdə ikitərəfli səfərlərin intensiv xarakter daşımasını məmnunluqla qeyd edən Prezident İlham Əliyev bunu əlaqələrimizin dinamik surətdə inkişafının təzahürü kimi qiymətləndirdi. Dövlətimizin başçısı ölkələrimizin parlamentlərarası əlaqələrinin genişləndiyini qeyd etdi və İran İslam Şurası Məclisinin sədrinin Azərbaycana səfərinin bu əlaqələrin daha da inkişafına təkan verəcəyinə ümidvar olduğunu bildirdi.

Azərbaycan Prezidenti iqtisadi-ticari, nəqliyyat, enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxundu. Şimal-Cənub nəqliyyat dəhlizinin əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev bu dəhlizin Azərbaycana aid olan hissəsində yükdaşıma imkanlarının artırılması üçün ölkəmiz tərəfindən zəruri işlərin görüldüyünü dedi. Dövlətimizin başçısı Ağbənd keçidinin inşası istiqamətində fəaliyyətin intensiv şəkildə həyata keçirildiyini və bu layihənin regionun nəqliyyat imkanlarının artırılmasına töhfə verəcəyini qeyd etdi.

Prezident İlham Əliyev regional məsələlərin region ölkələri tərəfindən həll edilməli və bölgədənkənar qüvvələrin regiona müdaxiləsinin qəbuledilməz olduğunu dedi, 3+3 formatının əhəmiyyətini vurğuladı.

Məhəmməd Baqir Qalibaf İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarının Məsud Pezeşkiana çatdırılmasını xahiş etdi.

Qonaq Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasının Bakıda yüksək səviyyədə təşkil olunduğunu söylədi, iki ölkə arasında səfərlərin intensiv xarakter daşımasından məmnunluğunu diqqətə çatdırdı.

Azərbaycan ilə İran arasında iqtisadiyyat, ticarət, elm, texnologiya, səhiyyə sahələrində və digər sahələrdə əməkdaşlığın inkişafı üçün çox yaxşı imkanların olduğunu vurğulayan Məhəmməd Baqir Qalibaf bu xüsusda hökumətlərarası komissiyanın işinin daha da intensivləşdirilməsinin vacibliyinə toxundu.

Ölkəsinin Azərbaycanla birlikdə regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasında ortaq maraqları bölüşdüyünü deyən qonaq İranın regionun məsələlərinin region ölkələri tərəfindən həll edilməsi yanaşmasını dəstəklədiyini bildirdi. O, Azərbaycan ilə İranın beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyini və yaxından əməkdaşlıq etdiklərini vurğulayaraq, 3+3 formatının əhəmiyyətini qeyd etdi.

Məhəmməd Baqir Qalibaf dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# Asiya ölkələri spikerləri Milli Məclisdə

**Fevralın 20-də Milli Məclisin sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının 15-ci plenar iclasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqer Qalibaf ilə görüşüb.**



Milli Məclisin sədri Azərbaycanın xarici siyasətinin prinsiplərinə, müasir beynəlxalq münasibətlər sisteminə dair baxışları ilə bağlı Prezident İlham Əliyevin fikirlərini xatırladaraq, deyib ki, bu prinsiplər dostluq, bir-birinin daxili işlərinə qarışmamaq, beynəlxalq öhdəliklərə riayət etmək, qarşılıqlı hörmət nümayiş etdirmək kimi prinsiplərdir.

İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqer Qalibaf APA-nın Bakıda keçirilən 15-ci plenar sessiyasının önəmini vurğulayaraq, müzakirəyə çıxarılan qərarların əhəmiyyətindən danışıb. Qonaq ölkəsinin bütün qonşu dövlətlərlə əlaqələrin inkişaf etdirilməsində maraqlı olduğunu, bu siyasətdə Azərbaycanın xüsusi yer tutduğunu qeyd edib, gələcəkdə iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün səylərin artırılacağına əminliyini ifadə edib.



Görüşdə dövlətlərarası münasibətlərin mühüm bir istiqaməti kimi parlamentlərimiz arasında da əlaqələrin genişləndirilməsi, beynəlxalq parlament təşkilatlarında əməkdaşlıq məsələləri də nəzərdən keçirilib.

**Həmin gün Sahibə Qafarova Pakistan Senatının sədri Seyid Yusuf Rza Gilaninin rəhbərlik etdiyi parlament nümayəndə heyəti ilə də görüşüb.**

S.Qafarova qeyd edib ki, Azərbaycan və Pakistan arasında strateji münasibətlər dostluq və qardaşlıq prinsipləri əsasında qurulub. Hər iki ölkə həm ikitərəfli, həm də beynəlxalq müstəvilərdə bir-birini daim dəstəkləyir və dövlətlərimiz arasındakı əlaqələr bütün sahələrdə yüksələn xətt üzrə inkişaf edir.

Pakistan Senatının sədri Seyid Yusuf Rza Gilani diqqətə çatdırıb ki, Pakistan və Azərbaycan həmişə bir-birini dəstəkləyən qardaş ölkələrdir, xalqlarımız ortaq dəyərləri bölüşürlər. Bildirib ki, Pakistan Ermənistanla diplomatik münasibət qurmayan nadir ölkələrdəndir. Pakistanın Azərbaycanla 1992-ci ildən yaradılmış diplomatik münasibətlər üzərində ötən illər ərzində bütün sahələrdə, o cümlədən parlamentlərimiz arasında yüksəksəviyyəli əlaqələr formalaşıb.

**Milli Məclisin sədri Sahibə Qafarova Bəhreyn Krallığının Şura Məclisinin sədri Əli Saleh Abdulla Əlsaleh ilə də görüşüb.**

Görüşdə Azərbaycan paytaxtında Asiya Parlament Assambleyasının 15-ci plenar iclasının uğurla təşkil olunduğu qeyd edilib, Assambleya çərçivəsində əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Görüşdə Azərbaycan ilə Bəhreyn arasında münasibətlərin inkişafından da razılıq ifadə edilərək, xalqlarımız arasında mövcud olan ortaq dini və mədəni dəyərlərin ölkələrimiz arasında münasibətlərə müsbət töhfə verdiyi və ölkələrimizin bir sıra sahələrdə uğurlu əməkdaşlıq etdikləri bildirilib.

Görüşdə ölkələrimizin parlamentləri arasında münasibətlərə dair də fikir mübadiləsi aparılıb. Qarşılıqlı səfərlərin və sıx təmasların bu istiqamətdə vacib rol oynaya biləcəyi vurğulanıb.

**Milli Məclisin sədri Sahibə Qafarova Butan Krallığı Milli Assambleyasının sədri Lunqten Dorci ilə də görüşüb.**

Söhbət zamanı xalqlarımızın sülhpərvər ideyaları dəstəklədikləri, dünyada sülh və sabitliyin bərpa olunması ilə bağlı təşəbbüslərin vacibliyi qeyd edilib. Ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi üçün imkanlar olduğu vurğulanıb.

***XQ***

# Azərbaycan–Ukrayna siyasi məsləhətləşməsi

**Fevralın 20-də xarici işlər naziri Ceyhun Bayramov Ukrayna xarici işlər nazirinin müavini Oleksandr Mişenko ilə görüşüb.**



Görüş zamanı iki ölkə arasında mövcud əməkdaşlıq gündəliyinin aktual məsələləri, habelə regiondakı vəziyyət haqqında müzakirələr aparılıb. Tərəflər dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına dair iki ölkə tərəfindən davamlı şəkildə nümayiş etdirilən mövqenin, habelə ölkələr arasında beynəlxalq hüququn fundamental prinsiplərinə, qarşılıqlı hörmətə əsaslanan münasibətlərin vacibliyini vurğulayıblar.

Qarşı tərəf Azərbaycanın Ukraynanın münaqişədən zərər çəkmiş bölgələrinin bərpa və yenidən qurulmasına töhfəsinin, həmçinin Ukrayna xalqına göndərilən humanitar yardımların yüksək qiymətləndirildiyini qeyd edib.

Dünən, həmçinin Azərbaycan və Ukrayna Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr aparılıb. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən nazir müavini Samir Şərifov, Ukrayna tərəfindən isə Oleksandr Mişenko rəhbərlik ediblər.

***XQ***

# XİN-in BBC açıqlaması

**Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə BBC-nin Azərbaycandakı nümayəndəliyinin fəaliyyətinə xitam verilməsi ilə bağlı yerli mətbuatın sualını cavablandırıb.**

A.Hacızadə bununla bağlı deyib: "BBC-nin ölkəmizdəki nümayəndəliyinin fəaliyyətinə xitam verilməsi məsələsinin siyasiləşdirilməsi, məsələnin mahiyyətinin BBC tərəfindən təhrif olunması, ümumilikdə, ikili standartlar yanaşması nəzərə alınaraq media azadlığı məsələsinə dair ölkəmizə qarşı BBC-nin açıqlaması təəssüf doğurur və qəbuledilməzdir.

BBC-nin ölkəmizdəki nümayəndəliyinin bağlanması ilə bağlı qərar müvafiq şəkildə fevralın 13-də XİN tərəfindən BBC-nin ölkəmizdəki nümayəndələri ilə görüş zamanı rəsmi şəkildə çatdırılıb və mövqeyimiz qarşı tərəfə tam şəkildə izah olunub.

Azərbaycan Respublikasının bütün xarici ölkələrin media qurumları ilə münasibətlərdə və qərarlarda hər zaman qarşılılıq prinsipini əsas götürdüyü qarşı tərəfə bildirilib. Bu çərçivədə aparılmış təhlillər nəticəsində, eləcə də ölkə qanunvericiliyi, xüsusilə “Media haqqında” Qanunun 11.2-ci maddəsi əsas götürülməklə BBC-nin ölkəmizdə nümayəndəlik qismində fəaliyyət göstərməsi üçün hüquqi əsas olmadığı diqqətə çatdırılıb.

Qeyd edək ki, nümayəndəliyin bağlanması qərarının BBC yayım şirkətinin ölkəmizdə müxbir fəaliyyətinə aidiyyəti yoxdur və 1 nəfər müxbir üçün akkreditasiya verilməsi nəzərdə tutulub.

Xatırlatmaq istərdik ki, oxşar qərarlar bəzi digər xarici media qurumları ilə bağlı da verilib".

***XQ***

# Azərbaycanda Birinci vitse-prezidentlik institutu – ilk innovativ-siyasi-mədəni idarəetmə strategiyası

*Prezident İlham Əliyevin 21 fevral 2017-ci il tarixli sərəncamı ilə Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunub*

*(əvvəli 1-ci səhifədə)*

Cənubi Qafqaz ölkələrində yeni reallıqların meydana çıxması ilə maraq və tələblər də dəyişir, yenilənir. İnstitusional islahatlar ölkədə milli dövlət idarəetmə sisteminin zamanın dəyişən hədəf və tələblərinə uyğun qurulmasını zəruri edir. İslahatlar institusional qurumların, dövlət və hakimiyyət sisteminin dəyişən tələb və çağırışlarına uyğun mexanizmlərini şərtləndirir.

XXI əsr dünyanın dəyişən yeni nizamında dövlət, dövlətçilik institutunda, idarəetmə metod və formaları da oxşar və fərqlidir. Dövlət idarəetmə sistemi onun tərkib hissəsi olan icraedici, qanunverici və məhkəmə hakimiyyətlərindən ibarətdir. Bütün xalqlar xaos, özbaşınalıq, anarxiyanın öz ölkələrində qarşısını almaq üçün sabit idarəetmə sistemi və onun tərkib hissələrini təsis edirlər.

Demokratik quruluşlarda ölkə vətəndaşları və onu təmsil edənlər, hakimiyyət qarşılıqlı vətəndaş münasibətlərini tənzim edə bilirsə, bu, demokratik sistemdir. Belə quruluşlarda da çox yayılan siyasi idarəetmə forması prezident və parlament respublikaları və onların tərkib hissələridir.

Dünyada dövlət idarəetməsində prezidentlik institutlarının fərqli modelləri olmasına baxmayaraq, bu təsisat beynəlxalq aləmdə siyasi qüvvələrin mübarizəsindən yuxarıda olan, konstitusiyaya riayət olunmasını, xalqın ehtiyac və maraqlarının təminatçısı və milli birliyin rəmzi kimi qəbul olunur. Dövlətlərin idarəçilik sistemində prezidentlik institutu idarəetmə formasından asılı olaraq siyasi, tarixi dövlətçilik yolunu, siyasi mədəniyyətini və s. ehtiva edərək, bir sıra amil və hakimiyyət sistemində də müxtəlif yer, rol və xüsusiyyətləri ortaya qoyur.

Bu kontekstdən Azərbaycanda dövlət siyasi idarəetmə formasına nəzər yetirək.

Prezidentlik institutu müstəqil Azərbaycanda dövlət hakimiyyəti sistemində əsas siyasi idarəetmə paradiqmasıdır. Zamanın tələblərinə uyğun olaraq prezidentlik institutu özünün təşəkkülü və inkişafında yeniləşərək, Ali Qanuna – Konstitusiyaya dəyişikliklər və islahatlar nəticəsində daha da təkmil metoda keçibdir.

Azərbaycan Konstitusiyasının 7-ci maddəsinin 3-cü bəndində qeyd olunmuşdur ki, Azərbaycan Respublikasında "dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edir".





2016-cı il sentyabrın 26-da Prezident İlham Əliyevin təşəbbüsü ilə Konstitusiyaya dəyişikliklərlə bağlı keçirilən Referendumda dövlət siyasi-ictimai idarəçiliyində ilk və yeni institutu – Birinci vitse-prezidentlik yaradıldı. Müstəqil Azərbaycanda Birinci vitse-prezidentlik institutunun formalaşdırılması dövlət siyasi idarəçiliyində funksional vahid olaraq ölkənin də idarəetmə sistemində yeni və aktuallıq kəsb edən göstəricidir.

2016-cı il 26 sentyabr Referendumunda Konstitusiya dəyişiklikləri, eləcə də Birinci vitse-prezidentlik təsisatının yaradılması Prezident İlham Əliyevin siyasi qətiyyətinin, apardığı islahatların nəticəsi idi.

Müasir Azərbaycanda Prezidentlik institutuna aid islahatlardan ən əsası ökəmizdə ilk dəfə vitse-prezidentlik institutunun yaradılmasıdır. Vitse-prezidentlik institutunun formalaşması dövlət siyasi idarəetməsində yeni və mühüm prosesdir. Bu institut yeni islahatların getdiyi müasir dövrdə dövlətçilik sistemində siyasi-hüquqi idarəetmədə effektivliyin artırılması, ictimai-humanitar-mədəni vəzifələrin reallaşdırılmasında səmərəli inkişaf yoludur. Vitse-prezidentlik institutunun konstitusion əsaslarla təsis olunması respublikada siyasi dövlət idarəetməsinin təkmilləşdirilməsi paradiqmasıdır.

2016-cı ildə Konstitusiyaya əlavə edilmiş 103-1-ci maddə "Azərbaycan Respublikasının vitse-prezidentləri" adlanır və 1-ci bənddə yazılır ki: "Azərbaycan Respublikasının vitse-prezidentləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və azad edilirlər" (1; 39). Konstitusiyanın 103-1-ci maddəsinin 2-ci bəndində də yazılıb: "Azərbaycan Respublikasının vitse-prezidenti vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir" (1;39).

**Birinci vitse-prezidentlik institutu:**

*–XXI əsr müstəqil Azərbaycanda 2016-cı il Referendumu ilə təsbit olunan Konstitusion İnstitutdur.*

*–Müstəqil Azərbaycanda ilk dəfə təsis edilibdir.*

*– İlk növbədə humanizm qayəli milli təhlükəsizlik məsələsidir;*

*–Dövlət idarəetməsində səlahiyyətlilik statuslarının şaxələnmə prosesidir.*

*–İcraetmə ilə idarəetmənin vəhdətində xarakterik komponentdir.*

*–Türk-Şərq-İslam aləmində də optimal idarəçilik modelidir.*

*–Çevik, operativ qərarların daha da məsuliyyətliliyinin formalaşdırılmasıdır.*

*–Ölkədə hakimiyyət və idarəetmədə yeni layihə və islahatlara dəstəkdir.*

*–Humanitar, beynəlxalq, qlobal, lokal, yerli səviyyədə milli-mədəni yeniliyi əks etdirir.*

Prezident İlham Əliyevin 21 fevral 2017-ci il tarixli sərəncamı ilə ölkədə ilk dəfə Birinci vitse-prezident vəzifəsinə Heydər Əliyev Fondunun prezidenti Mehriban Arif qızı Əliyeva təyin edilibdir.

Öncüllük, birincilik Tanrı yazısı, İlahi qismətin seçilmişlərindən biri olma şansıdır. Və hər bir şəxsin gələcək həyat yolunda daxili keyfiyyətlərindən qaynaqlanan yaşam fəlsəfəsidir. Mədəni-humanizm "gücü", fəaliyyətdə enerjilik, işdə uğur kəmiyyəti, nüfuz, ədalətlilik, cəmiyyətdə idarəçiliyi tənzimləyən liderlik keyfiyyətidir.

21 fevral 2017-ci il Təhlükəsizlik Şurasının iclasında Birinci vitse-prezidenti təqdim edərkən Prezident İlham Əliyev xanım Mehriban Əliyevanın müasir Azərbaycanın ictimai-mədəni, siyasi həyatında vacib və aktiv rol oynadığını, Yeni Azərbaycan Partiyasında sədrin müavini, Milli Məclisin deputatı olaraq səmərəli və əhəmiyyətli işlər aparmasını, çoxistiqamətli beynəlxalq fəaliyyətini, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həm Azərbaycan, həm də bölgənin ən böyük ictimai təşkilatı olmasını, ölkədəki bir çox qlobal tədbirlərin təşkilindəki xidmətlərini, Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilməsini... xüsusi vurğulamışdır.

Birinci vitse-prezidentlik institutu ölkədə funksional dövlət idarəçiliyində çeviklik və effektliyin artırılmasında, prezidentlik institutunun tərkib hissəsi kimi aktuallığı ilə seçilən mühüm təsisatdır.

Bu kontekstdə Azərbaycan Respublikası Konstitusiyasının 105-ci maddəsinin I, II, III bəndləri (1;40-41), 106-1 maddəsi (1;42), həmçinin 108-1 maddəsi (1;43) və 110-1 (1;46) maddəsi vitse-prezidentlik institutunun səlahiyyət və fəaliyyətlərini qanunla təsbit edir.

Dövlət siyasi idarəetməsində Birinci vitse-prezidentlik institutu da məhz "Güclü Azərbaycanın" inkişafı aspektində effektivliyi əks etdirir. Belə ki, müasir Azərbaycanda dövlət institusional sahəsində siyasi-ictimai-mədəni idarəetmədə daha çevik və effektliliyin formalaşması, hüquqi dövlət zəminində demokratik dəyişimlərin qanuni əsaslarının da yenilənməsi islahatları mexanizminin aparılma ehtivasıdır. Müasir Azərbaycanda dövlət idarəetmə sahəsində gerçəkləşdirilən islahatlar aparıcı ölkələrin təcrübəsinə istinadən modernləşmə xəttinə uyğun strateji hədəf seçilibdir.

Diqqət yetirək ki, bu illər ərzində ölkədə Birinci vitse-prezidentlik institutu çevik, formalaşmış funksional yeni bir təsisat olaraq çoxşaxəli fəaliyyət aparır.

İlk Birinci vitse-prezident xanım Mehriban Əliyevanın ölkədə çoxşaxəli fəaliyyəti, bacarığı, ulu öndər Heydər Əliyev məktəbindən mənimsədiyi çoxillik idarəçilik təcrübəsi vacib rol daşıyır. Prezident İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında xanım Mehriban Əliyevanın bu keyfiyyətlərinə nəzər yetirərək demişdir: "Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır. Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır".

Bu illərdə Azərbaycan xalqı Birinci vitse-prezidentin çoxistiqamətli fəaliyyətinə müsbət yanaşaraq, güvənc və inam yeri sandıqları, məhəbbətlə etimad bəslədikləri xanım Mehriban Əliyevanın bu məsuliyyətli statusda da ölkə üçün yorulmaz ictimai-humanitar fəaliyyətini təqdir edərək, daim müxtəlif problemlərin həllində ona üz tuturlar. Birinci vitse-prezident xalqın müxtəlif qruplarının məsələlərinin həllinə, valideyn qayğısından məhrum olan uşaqlara, xüsusi diqqət göstərməyə, çoxəsrlik mədəni irsimizin təbliğinə xüsusi diqqət yetirir və s. sahədə çoxsaylı sosial-humanitar-mədəni yeni layihələrin reallaşdırılmasını həyata keçirir.

Suveren Azərbaycanda formalaşan yeni funksional qurumun həyata keçirdiyi geniş spektrli işlər də məhz cəmiyyətdə Birinci vitse-prezidentlik təsisatına rəğbəti yüksəldibdir.

Suveren Azərbaycanda həyata keçirilən sosial siyasətin obyektində vətəndaşların maraq və mənafeləri dayanır. Ölkədə sosial siyasətin əsas komponentlərindən biri cəmiyyətin ən həssas təbəqəsi, müəyyən ehtiyacı olan vətəndaşlar hər zaman dövlətin diqqətindədir. Birinci vitse-prezidentin söylədiyi kimi, "biz bu gün bərabər hüquqlardan bərabər imkanlar siyasətini gerçəkləşdiririk".

Birinci vitse-prezident təyinatından sonra xanım Mehriban Əliyevanın ilk tədbiri də qaçqın və məcburi köçkünlərin problemlərinin çözülməsi məsələsi idi.

Bu mətndən də Birinci vitse-prezidentin məhz yeni statusda ilk iclası 9 mart 2017-ci ildə Bakı və Sumqayıt şəhərində müvəqqəti yerləşən qaçqın və məcburi köçkün ailələri ilə keçirildi. Bu göstərir ki, dövlət siyasətinin vacib xətti olan sosial məsələsi yeni funksional qurum Birinci vitse-prezidentlik təsisatının da fəaliyyətində prioritet istiqamətdir.

XXI əsr Azərbaycanı bir sıra beynəlxalq miqyaslı tədbirlərə, ev sahibi olmuşdur. Nəzərə çatdıraq ki, bu kimi mühüm tədbirlərin bir çoxu məhz Birinci vitse-prezidentin təşkilatı rəhbərliyi ilə hazırlanmışdır. Belə ki, "Eurovision–2012" musiqi yarışı, 2015-ci il Birinci Avropa Oyunları... məhz bu silsilədəndir. Bu tədbirlərin hər biri yüksək standartlar göstəricisində baş tutub. "Eurovision–2012" musiqi yarışı vacib bir mədəni hadisə idi. Həmçinin birinci Avropa Oyunları hazırlıq mərhələsi də çox az vaxtda reallaşsa da dünyada keçirilən Olimpiya Oyunları səviyyəsində həyata keçirildi.

Bu silsilədən 2017-ci il Azərbaycanın yenə ev sahibliyi ilə baş tutan IV İslam Həmrəyliyi Oyunları da Birinci vitse-prezidentin bacarıqlı təşkilatçılığı və qabiliyyətini bir daha əks etdirdi. 10 gün müddətində bu idman yarışı ölkədə əsl bayrama döndü.

Dövlət başçısı İlham Əliyev "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında müxtəlif ölkələrdən olan qalib idmançıları, onların məşqçilərini, İslamiadanın Təşkilat Komitəsinin işini yüksək qiymətləndirərək vurğulamışdı: "Təşkilat Komitəsi Mehriban Əliyevanın rəhbərliyi ilə çox böyük iş görüb, bütün hazırlıq prosesi diqqət mərkəzində idi. Təşkilat Komitəsi ən xırda məsələyə qədər bütün lazımi tədbirləri görüb ki, həm idmançılar, həm də qonaqlar üçün yaxşı şərait yaradılsın".

Birinci vitse-prezident fəaliyyətində Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə, maraq və mənafelərinə, istək və arzularına, humanistliyə əsaslanır. Bu xoşməramlı humanist fəaliyyət Türkiyə, Pakistan, İtaliya, Rusiya, Küveyt, Özbəkistan, Serbiya və s. ölkələrin ali mükafatları ilə təltif edilmişdir. Prezident İlham Əliyev xanım Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətinin beynəlxalq miqyasda yüksək qiymətləndərilməsi haqda söyləyib ki: "O, öz fəaliyyəti nəticəsində bir çox ölkələrin ən yüksək dövlət mükafatları və ordenləri ilə təltif edilibdir".



Postmüharibə dövrü də Birinci vitse-prezidentin, Qarabağın işğaldan azad edilən ərazilərində həyata keçirilən dirçəliş, yenidənqurma, bərpaetmə istiqamətli çoxsaylı fəaliyyəti təqdirəlayiqdir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Azərbaycanda keçirilən COP29-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva bu konfransda ictimai-siyasi və sosio-humanitar paradiqmalı məzmunda ətraflı məruzə ilə çıxış etdi. Xanım Mehriban Əliyevanın məruzəsinin də əsas paradiqmaları ölkələrə sülh və əmin-amanlıq diləməklə dünyaya barış çağırışı idi.

Yekunda nəzərə çatdıraq ki, suveren Azərbaycanda Birinci vitse-prezidentlik institutu ilk innovativ ictimai-siyasi-mədəni idarəetmə strategiyasıdır. Xanım Mehriban Arif qızı Əliyeva ali statuslu bu vəzifəni çox böyük uğurla yerinə yetirdi.

***Rəna MİRZƏZADƏ,***
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, professor***

# Qayıdışın bal dadı

## *Dünənki köçkünlər yenidən doğma yurdlarının sahibləridir*

**Hər görüş bir xatirə olmaqla yanaşı, həm də ötüb-keçənlərə nəzər salmaq, tarixin getdikcə bizdən uzaqlaşan olaylarına, çevrilmiş səhifələrinə yeni gözlə baxmaq və qiymətləndirmək fürsətidir. Görüşə gələnin xalqın və dövlətin taleyində ən yeni tarixi mərhələnin müəllifi olması isə tədbiri daha önəmli edir, ona xüsusi rəng və çalar qatır. Yazımızın mövzusu Azərbaycan Prezidenti İlham Əliyevin Xocalı rayonunun Ballıca kəndinə səfərində bir qrup yerli sakinlə görüşünün və onlarla səmimi söhbətinin yaratdığı assosiasiyadır.**




Haradasa, bir qərinəlik müstəqillik tariximizə qiymət verərkən üç mühüm məsələ xüsusi qeyd olunmalıdır. Birinci məsələ ölkə daxilində ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsidir. İkincisi, məsələ sərhədlərimizdə təhlükəsizlik mühitini gücləndirməyimizdir. Üçüncü mühüm məqam Azərbaycanın davamlı inkişafını təmin etməyimizdir. Ən yaddaqalan hadisələrdən biri isə, heç şübhəsiz, doğma Qarabağa Böyük Qayıdışımızdır.

İndi Qarabağımız durmadan canlanır, onun yenidən bərpa edilən siması sakinlərdə fərəh və qürur hissi doğurur. Azərbaycan insanının ayaq səsləri işğaldan azad olunan bütün ərazilərdə ucadan eşidilməkdədir. Böyük Qayıdış proqramı çərçivəsində Qarabağa istiqamət götürən köç karvanlarının ardı-arası kəsilmir. İşğaldan azad olunan bütün ərazilərimizdə olduğu kimi, Xocalı rayonunun Ballıca kəndində də bərpa-quruculuq işləri davam etməkdədir.

* * *

“Vaxtilə işğal altında olmuş bütün şəhər və kəndlərimizi indi bərpa edirik. Ballıca kəndi 10-cu yaşayış məntəqəsidir ki, işğaldan sonra biz artıq bu kəndi də bərpa etdik. Mənə verilən məlumata görə, artıq 460 keçmiş köçkün burada yerləşib, 137 ev bərpa edilib və əlavə təqribən 60-a yaxın ev də bərpa olunacaq”. Bu sözləri Azərbaycan Prezident İlham Əliyev Ballıca kəndinin sakinləri ilə görüşündə dedi.

Cənab Prezident 1992-ci ildə Xocalıda, digər kəndlərimizdə erməni faşistlərin törətdiyi soyqırımlardan, Qarabağda separatizmin baş qaldırmasının səbəblərindən danışarkən bir məqamı xüsusi vurğuladı: “Heydər Əliyev o vaxt Azərbaycanda hakimiyyətdə olsaydı, heç vaxt torpaqlarımız işğal altına düşməzdi. Bilirsiniz ki, o illərdə qanunsuz Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı və fəaliyyət göstərirdi. Ulu öndər çalışırdı ki, burada yaşayan azərbaycanlıların hüquqları təmin edilsin. Ancaq, o, 1980-ci illərin sonlarında siyasi səhnədən gedəndən sonra bizim başımıza bu bəla gəldi. Yəni, o, istefa verəndən iki həftə sonra erməni separatçıları baş qaldırıb bizə qarşı ərazi iddiası ilə çıxış etmişdilər. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi bu məsələyə laqeyd yanaşdı. Faktiki olaraq fəaliyyətsiz idi və separatçılar daha geniş imkanlara malik oldular”.

Prezident XX əsrin sonlarında Azərbaycan xalqının başına gətirilən bəlaların səbəblərinə təsadüfən toxunmadı. Dövlətimizin başçısının 33 il bundan əvvəl baş vermiş hadisələri xatırlamaqda məqsədi onu gənc nəslin heç vaxt unutmaması, evlərində qonaq olduğu və səmimi söhbətləşdiyi 10 yaşlı ballıcalının yaddaşında həmişəlik həkk olunması idi. Dövlətimizin başçısının Ballıca kənd sakini Əvəz Orucovun evinə baş çəkməsi, bu ailə üçün yaradılan şəraitlə tanış olması kimi tarixi anları azadlaşan Qarabağın abadlaşan şəhər kəndlərində məskunlaşan dünənki köçkünlər, onların övladları, nəticələri, eləcə də bu mənzərəni ölkənin dörd tərəfində ekran qarşısında seyr edənlər heç vaxt unutmayacaqlar.

Yaxın tariximizin işğalla qəddimizi əymiş səhifələrini yada salarkən İlham Əliyev Sovet İttifaqının rəhbərliyinin ermənilərin tərəfində olduğunu, Dağlıq Qarabağı Azərbaycandan ayırmaq üçün çirkin əməllərindən əl çəkmədiyini deməyi də unutmadı: “Burada xüsusi komitə yaradıldı və o komitə faktiki olaraq Qarabağı Azərbaycandan ayırmaq üçün bir vasitə idi. Mən sovet dövrünün tarixini qeyd edirəm. O ki qaldı müstəqillik dövrünə, müstəqillik elan olunandan dörd ay sonra Xocalı soyqırımı törədildi, bu da böyük vəhşilik, barbarlıq idi. Ondan sonra digər kəndlərimizin sakinləri soyqırımına məruz qaldılar, bütün azərbaycanlılar Xankəndidən və ətraf kəndlərdən didərgin salındılar. Sonra yeddi rayonumuz işğal edildi. Bütün bunlar ovaxtkı Azərbaycan rəhbərliyinin cinayətləri nəticəsində baş vermişdir. Əgər Heydər Əliyev xalqın tələbi ilə vaxtında hakimiyyətə gəlməsəydi və o vaxt müharibə dayanmasaydı, bəlkə də daha böyük ərazilər işğal altına düşərdi”.

* * *

Azərbaycan xalqının bəxti onda gətirib ki, son beş ildə əldə etdiyi uğurlar etimad göstərib özünə rəhbər seçdiyi və indi onun güvənc yerinə çevrilmiş İlham Əliyevin adı ilə bağlıdır. Bunu İlahinin qismət payı, lütfü kimi qəbul edirik.

**Mövzu ilə bağlı fikirlərini XQ-nin oxucuları ilə bölüşən siyasi icmalçı Tofiq Abbasov hesab edir ki, baş verən hadisələr dövrülük baxımından tarixdə daim təkrarlanır:** “Atılan yanlış addımlar



insanları daha çox ayıq-sayıq olmağa sövq edir. Həm keçmişdə, həm də müasir dövrdə xalqımızın yaşadıqlarından görürük ki, tarix həqiqətən də təkrarlanır. Ermənilərin bölgəmizə köçürüldüyü zaman, XX əsrin əvvəllərində baş verən hadisələr əsrin sonlarında bir daha yaşandı. Bunların təkrarlanmaması üçün insanlarımız, xüsusən gənclərimiz gərək tarixə yaxın olsunlar. Unutmamalıdırlar ki, əgər keçmişdə faciəvi hadisələr baş veribsə, onların yenidən təkrarlanma təhlükəsi var. Ötən əsrin əvvəllərində Bakıda, Şamaxıda, Qubada, Kürdəmirdə ermənilərin xalqımıza qarşı törətdikləri qırğınları, soyqırımı aktlarını yada salaq. Bəs onlar nə vaxt təkrarlandı? 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində. Soydaşlarımızın Ermənistandan deportasiyası çox ağrılı bir proses idi. İnsanlar bu vandalizmdən hələ də özlərinə gələ bilmir, doğma yurdlarına qayıtmaq haqqını tələb edirlər. Məgər Xocalı soyqırımı təsadüfi hadisə idi? Xeyr! Bunların hamısı ondan xəbər verir ki, haylar çox təhlükəli, məkrli qonşulardır. Bu mənfur qövmə yenidən fürsət verməməkdən ötrü güclü olmalıyıq. Onu da yaxşı anlayırıq ki, bölgəni daim gərginlik içində saxlaması üçün Ermənistana rəvac verən xarici qüvvələr var. Yəni, Azərbaycanın, Türkiyənin başını lazımsız işlərlə qatmağa çalışırlar. Buna görə prioritetlərimizi, paradiqmalarımızı dəqiq müəyyənləşdirib, öz yolumuzla getməliyik”.

Prezident İlham Əliyevin xalqa ünvanladığı bütün çıxışlarında gənclərin maarifləndirilməsi, milli adət-ənənə ruhunda böyüdülməsi, mənəvi-əxlaqi dəyərlərə sadiq olmaları barədə dəyərli mesajlar veridiyini sözlərinə əlavə edən siyasi icmalçı bunların unudulmasının düşmən qüvvələrin xeyrinə işləməsi kimi xarakterizə etdi: “Bu mənada gənclər həm keçmiş, həm də müasir tariximizi yaxşı öyrənməli və xalqın keçmişdə hansı problemlərlə üz-üzə qaldığını, bəlalarımızın səbəblərini yadda saxlamalıdırlar. Bu məsələlər ailədə, məktəbdə, hər yerdə daim diqqət mərkəzində olmalıdır. Dostumuzu və düşmənimizi tanımalıyıq. Prezidentimizin dediyi kimi, müharibədə qələbə çalandan sonra kimlərin bizə dost, kimlərin isə bədxahlarımız olduqlarını aydın şəkildə gördük”.

* * *

Ballıca sakinləri ilə görüşündə kəndin bərpa edilməsi prosesindən danışan Prezident İlham Əliyev o vaxt bu bölgədə yaşayan vətəndaşlarla yanaşı, onların uşaqlarının, nəvələrinin, hətta nəticələrinin doğma yurdlarına qayıtdığını fəxrlə söylədi: “Bu, bir daha onu göstərir ki, xalqımız öz torpağına nə qədər bağlıdır. Bu gün bölgəni, bu yerləri görməyən balaca uşaqlar, yaxud da ki, gənclər həvəslə qayıdırlar, işləyirlər, qururlar, yaradırlar. Öz torpaqlarına qayıdan keçmiş köçkünlərlə çoxsaylı görüşlər əsnasında həmişə gənclərdən soruşuram ki, siz darıxmırsınız burada? Deyirlər, yox, darıxmırıq. Çünki doğma Vətən, doğma torpaq bizi çəkir. Bu, bir daha xalqımızın nə qədər yüksək mənəvi keyfiyyətlərə malik olduğunu göstərir”.

Artıq Dağlıq Qarabağ adlı problem yoxdur. Azərbaycanın bu tarixi ərazisində ikinci erməni dövləti yaratmaq iddiasına birdəfəlik son qoyuldu. İki yüz illik ədalətsizlik “marafonunu” durduran, tarixi ədaləti bərpa edən İlham Əliyevdir. Məhz Prezident İlham Əliyev Ali Baş Komandan kimi ordumuzu qarşısında duran taleyüklü vəzifələri yerinə yetirməyə qadir mükəmməl hərbi gücə çevirdi. Dövlət başçısı qibtəediləsi diplomatik ustalıqla addım-addım Ermənistanın ifşasına və sonda məğlubiyyətinə nail oldu.

İndi Azərbaycanın prioriteti Qarabağa qayıdışdır. İşğaldan azad olunmuş şəhər və rayonlar, kəndlər yenidən qurulur, 30 ilə yaxın yurd həsrəti ilə yaşayan köçkünlər doğma ocağa dönürlər. Böyük Qayıdışı təmin edəcək layihələr sürətlə icra olunur. Söhbət işğaldan azad olunmuş ərazilərdə bütün istiqamətlər üzrə infrastrukturun yenidən qurulmasından gedir. Azərbaycan dövləti qarşısına qoyduğu bütün hədəflərə nail olub. Həllini gözləyən yeganə məsələ Ermənistanla sülh sazişinin bağlanmasıdır. Bu ləngimənin təqsirkarı İrəvan, onun yeritdiyi qeyri-konstruktiv siyasətdir. Onun da gələcəyi məqam uzaqda deyil...

Onu da qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzurda işlər Böyük Qayıdış planına əsasən ardıcıl şəkildə aparılır. Burada bərpa-yenidənqurma işlərinə 10 milyard manatdan çox vəsait sərf olunacaq. Plana uyğun olaraq 2027-ci ilin sonuna kimi Qarabağa və ətraf rayonlara yüz min nəfərə yaxın əhali köçürülməlidir. Hazırda Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Laçın və digər ərazilərdə bu işlər sürətlə davam edir.

Yazımızı Azərbaycan Prezidentinin Qarabağa budəfəki səfərinin, fikrimizcə, ən yaddaqalan epizodu ilə tamamlamaq istərdik. Yerli sakinlərin qonaq etdiyi baldan dadan İlham Əliyev “Mən 2020-ci ildən sonra – Zəfərimizdən sonra ancaq bu bölgənin balını yeyirəm. Kəlbəcər və Laçın balını. İndi Ballıca balını da yedim”, –deyə vurğuladı. Bu zaman balın kəndin adı kimi dadlı olduğuna əminliyini xalqın rəhbərinin üzünün ifadəsindən oxumaq çətin deyildi.

Biz isə ayağımızı möhkəm basdığımız doğma Qarabağımızın əvvəlkindən daha barlı-bərəkətli, süfrələrimizin isə ballı-qaymaqlı olacağına qəti əminik.

***İmran BƏDİRXANLI***
***XQ***

# Qatarlar tezliklə Bakıdan Tbilisiyə sərnişin də daşıyacaq

## *May ayından reyslərin bərpa edilməsi müzakirə olunub*

**Gürcüstanla Azərbaycan arasında əlaqələr uğurla inkişaf edir. Ölkələrimiz arasında həyata keçirilən enerji və nəqliyyat layihələri həm regional, həm də qlobal əhəmiyyət daşıyır. Eyni zamanda, iki ölkə arasında ticarət dövriyyəsinin artırılması və turizmin inkişafı üçün də böyük potensial var. Tam əminliklə deyə bilərik ki, Azərbaycanla Gürcüstan arasında regional əməkdaşlığın əsl nümunəsi ola biləcək qarşılıqlı faydalı fəaliyyət həyata keçirilir. Gürcüstan Baş nazirinin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvilinin Tbilisidə işgüzar səfərdə olan Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevlə görüşü də bu məqsədə xidmət edib.**





Görüş zamanı tərəflər Gürcüstan və Azərbaycan arasında nəqliyyat sahəsində əməkdaşlıq məsələlərini, əsas istiqamətləri və gələcək prioritetləri, həmçinin həyata keçirilən layihələri müzakirə ediblər. Bildirilib ki, bu, ölkələrə daha çox əlavə dəyər yaratmağa imkan verəcək.

Həmçinin bu il mayın 1-dən Gürcüstan və Azərbaycan arasında sərnişin dəmir yolu əlaqəsinin bərpası məsələsi də diqqət mərkəzində olub: “Bu dəmir yolu əlaqəsi bizim turizm sektorumuz üçün çox vacibdir. Azərbaycanlı həmkarımla görüşdə biz, həmçinin bu ilin yükdaşımaları ilə bağlı proqnozları müzakirə etdik. Əsas məqsədimiz maksimum koordinasiya ilə regional və beynəlxalq səviyyədə daha rəqabətqabiliyyətli olmaqdır”, – deyə L.Davitaşvili vurğulayıb.

Qeyd edək ki, Azərbaycan quru sərhədlərini 2020-ci ilin martından etibarən COVID-19 virusunun yayılmasının, pandemiyanın qarşısının alınması məqsədilə bağlayıb. İki ölkə arasında sərnişinlərin gediş-gəlişi hava nəqliyyatı vasitəsilə həyata keçirilir.

Pandemiya bitdikdən sonra da quru sərhədlər açılmadı. Bu, müəyyən təhlükəsizlik məsələləri ilə əlaqəli idi. Azərbaycan 19–20 sentyabr tarixlərində həyata keçirdiyi antiterror tədbirləri ilə bütün ərazilərində suverenliyini və konstitusiya quruluşunu bərpa etsə də, sərhədlərə təhdidlər hələ də mövcuddur. Ermənistanla sərhəd tam müəyyənləşdirilməyib. Hayastan hələ də normal, sivil, beynəlxalq hüquq normaları ilə qonşu dövlətlərlə münasibət qura biləcək bir səviyyədə deyil. İndinin özündə də İrəvan qonşu dövlətlər üçün ciddi bir təhlükə mənbəyidir. Onun silahlanması heç də xoş niyyətlərdən xəbər vermir. Üstəlik, Rusiya–Ukrayna münaqişəsi davam edir, İran ətrafında gərginlik artır. Belə bir vəziyyətdə sərhədlərin tam açılması təhlükəsizlik baxımından səmərəli deyil.

Ermənistanla yanaşı, şimal və cənub qonşularımızdan belə bir təhlükə gözlənilə bilər. Ona görə də faktiki olaraq, Azərbaycan tərəfi, Rusiya və İranla sərhədlərini bağlı saxlamağa çalışır. Digərləri ilə müqayisədə Gürcüstan sərhədindən elə bir ciddi təhlükə yoxdur. Bu səbəbdən onu qismən, müəyyən şərtlər daxilində açmaq olar. Görünür, mayın 1-dən Gürcüstan və Azərbaycan arasında sərnişin dəmir yolu əlaqəsinin bərpası bu çərçivədə həyata keçiriləcək.

O da maraqlıdır ki, sərnişin daşımalarının dəqiq nə vaxt açılacağı cəmiyyəti ən çox maraqlandıran məsələlərdən biridir. Son günlər bu məsələnin yenidən gündəmə gəlməsi də vətəndaşlar arasında marağa səbəb olub.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyir:** “Bakı–Tbilisi–Qars dəmir yolu ilə yüklər daşınır. Amma sərnişinlər hələ ki bundan istifadə



etmirlər. Sərhədlər də bağlıdır. Mən hesab edirəm ki, bu xəttin tam gücü ilə işə başlaması, ondan sərnişinlərin də istifadə etməsi, həm Gürcüstanın, həm də Azərbaycanın xeyrinədir. İnanıram ki, bölgə üçün faydalı olacaq. Bu, bir çox sahələrdə Gürcüstanla Azərbaycan arasında əlaqələri daha da intensivləşdirəcək. Çünki Azərbaycan vətəndaşları da bu marşrutdan istifadə edərək Gürcüstana və Türkiyəyə getmək istəyirlər. Hesab edirəm ki, bu, doğru yanaşmadır.

Onu da nəzərə almaq lazımdır ki, Gürcüstanla quru sərhəd bağlı olduğundan vətəndaşlar üçün çətinlik yaranmışdır. Bu ölkədə xeyli soydaşımız yaşayır. Onların Azərbaycana gediş-gəlişi problemdir. Hesab edirəm ki, indiki mərhələdə Bakı–Tbilisi–Qars dəmir yolu sərnişinlər üçün də açıq olarsa, Azərbaycan və Gürcüstan vətəndaşları bundan faydalanacaqlar. Məncə, marşrutun işə düşməsi Azərbaycanda turizmin inkişafına da faydalı olacaq. Xaricdən gələnlərin sayəsində bölgələrimizdə olan bütün istirahət mərkəzləri, hotellər, iaşə müəssisələri də tam gücü ilə fəaliyyət göstərəcək. Bu da yeni iş yerlərinin açılması deməkdir. Təbii ki, bu da iqtisadiyyatımıza mühüm töhfə verər”.

**Gürcüstan Azərbaycanlıları Ağsaqqallar Şurasının sədri İsak Novruzov** isə bildirdi ki, Azərbaycanın Gürcüstanla quru sərhədini açacağına ümid edir: “Azərbaycan və Gürcüstan qonşu və strateji tərəfdaş dövlətdir. İki ölkə arasında tarixən və bu gün çox sıx və inteqrativ əlaqələr var. Turizmdən tutmuş, digər mədəni mübadilələrə qədər müxtəlif sahələrdə əlaqələr sistemi də mövcuddur. Həm beynəlxalq, həm də regional təşkilatlarda həmişə bir-birinə arxa dururlar. İki ölkə arasında siyasi əlaqələr bütün qonşular üçün nümunə ola bilər. Əlbəttə, Azərbaycan ilə münasibətlərin inkişafı və gücləndirilməsi Gürcüstan üçün də həyati əhəmiyyət daşıyır. Mayın 1-dən Gürcüstan və Azərbaycan arasında sərnişin dəmir yolu əlaqəsinin bərpası ilə bağlı danışıqlar məhz bu münasibətlərə uyğun atmosferdə keçir. İnanıram ki, tezliklə vətəndaşlarımız hər iki istiqamətdə dəmir yolu ilə sərbəst gedib-gələcəklər. Bu, hər iki dövlətin milli maraqlarına xidmət edir”.

Novruzov daha sonra bildirdi ki, Gürcüstanda və Azərbaycanda yaşayan xalqları biri-biri ilə ailə münasibətləri, qohumluq bağları birləşdirir: “İnanmaq istərdim ki, may ayının 1-dən bu proses yekunlaşacaq. Bu, həm də hər iki ölkənin iqtisadi maraqlarına xidmət edir, əhalinin dolanışığı, rifahını özündə ehtiva edən məsələdir. Amma ciddi nəzarət mexanizmi də həyata keçirməlidir ki, sonradan problem yaşanmasın. Tezliklə rəsmi açıqlama veriləcəyinə ümid edirəm”.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Paşinyanın 14 tezisi: “Real Ermənistan”, yoxsa kreslo davası?

(əvvəli 1-ci səhifədə)

N.Paşinyanın açıqladığı 14 tezisin əsas məna yükü referendum yolu ilə yeni konstitusiyanın qəbuluna əsaslanır. O, irəli sürdüyü “Real Ermənistan” ideyası naminə ümumxalq səsverməsinə gedilməsinin vacibliyini vurğulayır. Qeyd edək ki, Nikolun “Real Ermənistan”ı 29743 kvadratkilometr ərazisi olan, beynəlxalq ictimaiyyət tərəfindən tanınan Ermənistandır. Paşinyanın fikrincə, bu sistem üçün yeni konstitusiyanın qəbulu ona görə vacibdir ki, əvvəlki konstitusiya referendumlarında ciddi legitimlik olmayıb. Baş nazirin sözlərindən gəlinən qənaət həm də budur ki, yeni konstitusiyanın strateji məqsədi dövlətçilikdən məhrum xalqı dövlət qurucusu olan xalqın fəaliyyət tərzinə uyğunlaşdırmaqdır.Uzun sözün qısası, yəni, indiyədək Ermənistan dövləti olmayıb.

Əslində, Nikol yanaşmasında haqlıdır. O anlamda ki, SSRİ-nin süqutundan sonra yaranmış müasir Ermənistan Respublikası, Paşinyanın qeyd etdiyi 29743 kvadratkilometrlik ərazi ilə kifayətlənməmiş, işğalçılığı hədəf seçmişdi. Bu hədəfin konturları hələ Sovetlər Birliyinin dağılmasından əvvəl cızılmışdır. Əlbəttə ki, söhbət Qarabağdan gedir. Qarabağ köklənişinin isə Ermənistanın dövlət kimi formalaşmasına yol vermədiyi aşkardır.

Onu da nəzərə alaq ki, Ermənistanın hazırkı konstitusiyasının istinad etdiyi İstiqlaliyyət bəyannaməsində Azərbaycanla yanaşı, Türkiyəyə qarşı da ərazi iddiası var. Heç şübhəsiz, Qarabağ məsələsi tez bir zamanda və itkisiz reallaşsaydı, erməni avantürizminin növbəti hədəfi Türkiyə olacaqdı. Görəsən, indi Paşinyanın təklif etdiyi konstitusiya dəyişikliyi erməni milli identikliyinin sərsəmliyindən yaxa qurtarmağamı hesablanıb? Əlbəttə yox!

Haşiyə çıxaq ki, hazırda Azərbaycanın Ermənistanla sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü iki başlıca tələb var. Onlardan birincisi Ermənistan Konstitusiyasının dəyişdirilməsi, yəni ümumən ölkə qanunvericiliyinin işğalı leqallaşdıran mahiyyətindən uzaq durulmasıdır. Paşinyan iqtidarı buna gediləcəyini bildirmir.

O da məlumdur ki, ötən ilin sentyabrında Ermənistan konstitusiya məhkəməsi sözügedən İstiqlaliyyət Bəyannaməsinin ölkə konstitusiyasında yer almayan müddəalarının etibarsızlığına dair qərar çıxardı. Rəsmi İrəvan açıq şəkildə bəyan etməsə də, elə fon yaratdı ki, sanki, bu, Bakının irəli sürdüyü tələbin yerinə yetirilməsidir. Halbuki, məhkəmə qərarı heç bir halda həlledici sayıla bilməz və daim interpretasiyalara açıqdır.

Digər tərəfdən, Ermənistanın qonşularına qarşı ərazi iddiasından daşınmasına dair Azərbaycanın tələbi erməni xalqının və cəmiyyətinin iradəsinin məhsulu olaraq yerinə yetirilməlidir. Yəni, Ermənistan referendum keçirərək bütün dünyaya bəyan etməlidir ki, avantürizmdən uzaqdır. Paşinyan “Real Ermənistan”dan danışırsa, vacib olan məhz budur. Çünki Azərbaycan torpaqlarının otuz ilə yaxın müddətdə işğalda saxlanılması faktı danılmazdır. Əvvəldə də dedik ki, bu fakt Ermənistanın keçmiş SSRİ-dən miras qalan ərazi ilə kifayətlənmədiyinin təsdiqidir.

Onu da bildirək ki, Paşinyanın dilindən düşməyən “Real Ermənistan”ın özü də mahiyyətcə reallıqdan uzaqdır. Çünki Ermənistan Sovetlər Birliyinə qoşulanda hazırda haqqında söz açılan 29743 kvadratkilometrlik ərazisi yox idi. Bu rəqəm sovet rəhbərliyinin qurduğu müxtəlif oyunların nəticəsində yaranmışdı. Başqa sözlə desək, sovet Azərbaycanının ərazilərindən sovet Ermənistanına torpaq hədiyələri olmuşdu. Özü də bu hədiyyələr düz 1969-cu ilin mayınadək davam etmişdi. Yaxşı olardı ki, Nikol “Real Ermənistan”ın necə formalaşdığına da diqqət yetirsin.

Sözümüz ondadır ki, referendumla yeni konstitusiyanın qəbulu nəticəsində rəsmi İrəvan reallıqla barışılıb işğalçılığa və təcavüzə baş vurmayacağının uca səslə bəyan etməlidir. Yəni, indiki durumda Paşinyanın filosofluğuna, onsuz da bəlli olan



həyat normalarını gəlişigözəl ifadələrlə bəzəyib təqdim etməsinə ehtiyac yoxdur. Heç şübhəsiz, onun özü də bunu gözəl anlayır. Ancaq yarımçıq fəlsəfəsindən də qalmır. O zaman sual olunur: Nikol niyə boş-boş danışır? Elə isə keçək onun əsl məqsədinə.

Əlbəttə, Paşinyan konstitusiya dəyişikliyinə getmək istəyir. Çünki 2018-ci ildə hakimiyyətə gəldikdən sonra reallaşdırmadığı tək iş budur. Özünü dünyaya islahatçı demokrat kimi təqdim etmək istəyən Nikol yeni konstitusiyanı start verdiyi prosesin məntiqi yekunu kimi görür və bu, dünyaya tamamilə fərqli Ermənistan modelini sırımaq üçün lazımdır. Ancaq bu modeldə ərazi iddiasından geri durulacağını söyləmək çətindir. Çünki Paşinyan erməni cəmiyyətinin mahiyyətinə hakim kəsilmiş avantürizmi yenmək üçün ya gücsüzdür, ya da buna cəhd göstərmək niyyətində deyil. Axı Ermənistanda revanşizm meyili hələ də güclüdür.

İkincisi, diqqət yetirək, görək, Nikol nə üçün 14 tezislə məhz indi çıxış edib referendumdan danışır? Çünki, necə deyərlər, quyruğu qapı arasında qalıb. ABŞ-da Prezident seçkilərindən sonra hakimiyyət dəyişikliyinin baş verməsi və Donald Tramp Administrasiyasının əvvəlki iqtidar komandasından tamamilə fərqli yöntəm seçməsi rəsmi İrəvanı qeyri-müəyyən duruma və təşvişə salıb. Aydındır ki, Tramp hakimiyyəti Bayden iqtidarının Cənubi Qafqaz müstəvisində də tutduğu xətti davam etdirməyəcək. Paşinyan isə perspektivi öz hakimiyyəti üçün təhlükəli sayır.

Bir halda ki, söhbət Ermənistandakı revanşistlərdən düşdü, nəzərə alaq ki, ABŞ-ın yeni administrasiyasının təmsilçiləri ilə Rusiya nümayəndə heyətinin görüşündən sonra ölkənin Kremlə meyilli qüvvələri fəallaşıblar. Onlar, kifayət qədər, açıq tekstlə Nikolun hakimiyyətdən uzaqlaşdırılmasının vacibliyini vurğulayırlar. Paşinyan buna görə dünyanın diqqətini Ermənistana cəlb etmək istəyir. Əslində, onun verdiyi yeni konstitusiya anonsunda başlıca məqsəd budur.

Nikolun açıqladığı 14 tezis gözlər önündə Ermənistanın dinc, firavan, sakit, öz yolu ilə gedən, ümumbəşəri prinsiplərə, demokratizmə, həmçinin xristian dini dəyərlərinə sadiq məmləkət simasını canlandırır. Ümumiləşdirmə apararaq deyə bilərik ki, həmin tezislər yeni ABŞ Adminstrasiyasından özünün hakimiyyətdə qalması üçün aman diləmək niyyətindən başqa bir şey deyil.

Bu tezislər, həmçinin Trampın hakimiyyətə gəlişi ilə deformasiyaya uğramış Qərbə Ermənistanı Cənubi Qafqaz üzrə alət qismində nümayiş etdirməyə də hesablanıb. Axı Nikol illərdir sığındığı Avropa İttifaqını lazımsız quruma çevrildiyini yaxşı görür. O, eyni zamanda, Ukrayna ilə bağlı vəziyyətdən də xəbərdardır. Volodimir Zelenskini diktator kimi qələmə verən ABŞ Nikol Paşinyana nə deməz, nə etməz ki? Hər şey deyər, lap keçi qiymətinə də satar.

Sonda N.Paşinyanın 14 tezislə əsaslandırmağa çalışdığı yeni konstitusiya məsələsinə bir qədər fərqli nöqteyi-nəzərdən diqqət yetirək. Məlumdur ki, Ermənistan hazırda Azərbaycanla sülhdən yayınmaq yolunu tutur, müxtəlif avantürist niyyətlər gerçəkləşdirmək istəyir. Ancaq dünyadakı hazırkı durum buna imkan vermir və Nikol daxili mühüm məsələlərə kökləndiyi görüntüsünü formalaşdırmağa çalışır ki, vəziyyət stabilləşənədək vaxt udsun. O, ümid edir ki, Qərbin Cənubi Qafqaza əvvəlki yanaşmasına oxşar hansısa baxış yaranacaq və beləliklə güclü manevr imkanları qazanacaq. Hələlik isə obrazlı desək, tısbağa qınına çəkilir. Hərçənd, bir məqam da var ki, dəvəquşunun başını qumluğa salıb gizlənməsi heç nəyi dəyişmir. Çünki əndamı çöldədir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Referendum üçün “geri sayım” başladı

**Azərbaycan sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü şərtlərdən biri Ermənistan konstitusiyasının dəyişdirilməsidir. Çünki konstitusiyanın istinad etdiyi Müstəqillik bəyannaməsində ölkəmizin ərazi bütövlüyünün pozulmasına birbaşa çağırışlar var. Ermənistanın qoşulduğu bir çox konvensiyalarda və digər sənədlərdə də Azərbaycanın Qarabağ üzərində suverenliyini tanımayan çoxsaylı qeyd-şərtlər mövcuddur. Bunlar Ermənistanın Azərbaycan ilə münasibətlərinin tənzimlənməsində ciddi əngəllərdir.**



Yada salaq ki, Bakı əvvəllər dəfələrlə bəyan edib ki, Ermənistan konstitusiyasının preambulasında yer alan Azərbaycana qarşı ərazi iddiaları ölkələr arasında sülh müqaviləsinin imzalanmasına keçilməz əngəl rolunu oynayır. Ermənistan Respublikasının əsas qanununa dəyişiklik edilməyincə, bu müqavilə imzalana bilməz. Ona görə də, iki ölkə arasında sülh yolunda maneələr aradan qaldırılmalı, Ermənistan konstitusiyası dəyişdirilməlidir. Əks halda sülh sazişi imzalanmayacaq. Artıq bunu Ermənistanın baş naziri Nikol Paşinyan da etiraf edir. O, bu günlərdə erməni xalqına müraciət edib. Paşinyanın sözlərinə görə, Ermənistan konstitusiyası təcili dəyişdirilməlidir: “Ermənistan xalqının yeni konstitusiyaya ehtiyacı var”.

Hökumət başçısı qeyd edib ki, bu vacibdir, çünki hazırkı konstitusiyanın qəbul edildiyi bütün referendumlar ictimai baxımdan qeyri-legitimdir. “Yeni konstitusiyanın qəbulunun strateji məqsədi dövlətçiliyi olmayan millətdən dövlət quran milətə keçiddir”, – baş nazir Nkol Paşinyan deyib.

Onun sözlərinə görə, konstitusiyada islahatları yox, tamamilə yeni ana qanunun qəbul edilməsi vacibdir. Baş nazir daha sonra qeyd edib ki, yeni konstitusiyaya regionda və dünyada baş verən dəyişikliklərə uyğunlaşmalı, referendum yolu ilə dəyişdirilməlidir. Çünki referendum xalqın iradəsinin göstəricisidir. Yalnız onun dəyişdirilməsi, ərazi iddialarının aradan qaldırılması yolu ilə regionda sülh və əmin-amanlıq bərpa oluna bilər. Bu, hər iki dövlətin maraqlarına xidmət edər.

**Milli Məclisin deputatı Arzu Nağıyev deyir:** “Sülh müqaviləsinin imzalanması istiqamətində atılacaq addımlarda Azərbaycanın qoyduğu şərtlərdən ən mühümü, məhz Ermənistan konstitusiyasının dəyişdirilməsidir. Zaman-zaman bu məsələ Hayastan parlamentində gündəmə gətirilir. Eyni zamanda, müxtəlif siyasətçilər tərə-



findən müzakirə olunur. Artıq Paşinyanın öz dilindən də ölkənin əsas qanunun dəyişdirilməsinin vacibliyi bildirilir. Bu gün haylar üçün tək Rusiyadan gələn yol deyil, eyni zamanda, iqtisadiyyatın şaxələndirilməsi çox önəmlidir. Bu, əsas məqamlardan biridir. Paşinyanı belə addım atmağa sövq edir.

Məlum məsələdir ki, Müstəqillik bəyannaməsində Azərbaycandan başqa, Türkiyənin də ərazi bütövlüyü şübhə altına salınır. Orada qeyd olunub ki, Ermənistan “1915-ci ildə Osmanlı Türkiyəsində və “Qərbi Ermənistan”da gerçəkləşən soyqırımının tanınması”nı dəstəkləyir. Göründüyü kimi, burada həm qondarma erməni soyqırımı, həm də Türkiyə ərazisini əhatə edən “Qərbi Ermənistan” ifadələri mövcuddur. Bütün bunlar yuxarıda qeyd etdiyim kimi tərəflər arasında münasibətlərə mənfi təsir göstərir.

Əvvəllər ərazi iddiası ilə bağlı məsələnin konstitusiya məhkəməsi vasitəsilə həll olunması təklif olunub. Rəsmi İrəvan hesab edirdi ki, bu tələb onun çıxardığı qərarla yerinə yetirilib. Həmin qərarda bəyannamənin konstitusiyada yer almayan müddəlarının etibarsız sayıldığı açıqlanıb. Halbuki belə yanaşma çox səthidir, necə deyərlər, əl yeri saxlayır. Kim zəmanət verə bilər ki, bir müddət keçəndən sonra haylar ərazi iddiyasını yenidən qaldırmayacaqlar. Bundan başqa, problemin parlament, referendum ilə həll yolları da təklif olunmuşdu. Hazırda, hətta bəzi siyasətçilər deyirlər ki, referendumsuz da ərazi iddialarını həll etmək mümkündür. Yəni belə problemlər var. Bunların hamızı rədd edilib.

Düşünürəm ki, Paşinyan yalnız Avropaya inteqrasiya məsələsinə görə deyil, həm də Azərbaycanın haqlı tələbini nəzərə almaqla bu addımları atmağa çalışır. Xalqa müraciətinin təməlində də bu dayanır. Hayların bu prossesə nə dərəcədə hazır olduğu da çox önəmlidir. İnanıram ki, onlar sülhü, əmin-amanlığı seçəcəklər”.

**Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev** isə bildirdi ki, Ermənistanın ərazi iddiası təkcə Azərbaycana deyil, həm də Türkiyəyə



qarşıdır. “Ermənistan konstitusiyasının bünövrəsinsdə ziddiyyətlər dayanır. Hətta bu ölkənin gerbində Ararat dağının təsviri yer alıb. Ermənistan Müstəqillik bəyannaməsində beynəlxalq səviyyədə Azərbaycan ərazisi kimi tanınan Qarabağ hüquqi olaraq Ermənistan torpağı kimi qəbul edilir. Hüquqi olaraq ərazi iddiaları irəli sürən mövcud konstitusiya bölgədə davamlı və uzunmüddətli sülhə qarşı təhdid formalaşdırır. Azərbaycan bu təhdidin aradan qalxması üçün Ermənistan konstitusiyasının dəyişdirilməsini istəyir. Ölkəmiz bu məsələni təkrar-təkrar gündəmə gətirib. Hesab edirəm ki, bu konstitusiya dəyişdirilmədən iki ölkə arasında barış müqaviləsinə imza atmaq qeyri-mümkündür. Paşinyanın özü də bu məsələnin ciddiliyini qəbul edir. Fərqindədir ki, dəyişiklik olmadan tərəflər arasında sülh mümkün deyil.

Əlbəttə, revanşist qüvvələr konstitusiya dəyişikliyinin əleyhinədirlər. Onlar vahid cəbhədə birləşməyə çağrışlar edirlər. Elə bu günlərdə Koçaryanın keçirdiyi mətbuat konfransı və orada səslənən iddialar bundan xəbər verir. Amma səhv yoldadırlar. Azərbaycanla sülh müqaviləsi üzrə danışıqların intensivləşdiyi, sərhədin demarkasiyasına başlanıldığı və artıq 12,7 kilometrlik ərazinin demarkasiya edildiyi bir vaxtda, haqlı tələbi daxili işə qarışmaq kimi şərh etmək ən azı siyasi savadsızlıqdır.

İnanıram ki, Ermənstan Konstitusiyası dəyişəcək, ərazi iddiaları ortadan çıxacaq. Bu, realdır. Reallığı dəyərləndirən qüvvələr Paşinyanın ətrafında birləşərək buna nail olacaqlar.

Sonda onu da qeyd etmək istəyirəm ki, Zəngəzur dəhlizinin açılması da Azərbaycanın sülh müqaviləsi bağlamaq üçün irəli sürdüyü şərtlər arasındadır. Tezliklə dəhliz də açılacaq. Buna heç kimin şübhəsi olmasın”.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Afişada “Sosial ədalət”, səhnədə “Məkr – xəyanət”

(əvvəli 1-ci səhifədə)

Doğrusu, mən o zaman İlham Abbasovla razılaşmamışdım. Çünki söhbət ABŞ kimi güclü dövlətin büdcəsindən maliyyələşdirilən “nüfuzlu” qurumdan gedirdi. O zaman İlham Abbasov məni inandıra bilməsə də, altı ildən sonra cənab Donald Tramp inandırdı. Birləşmiş Ştatların yenidən seçilmiş Prezidenti USAID haqqında elə faktlar səsləndirdi o faktları iki-üç il əvvəl dünyanın heç bir siasətçisi işlətmək istəməzdi. Ancaq zaman çox suları durultmaq iqtidarındadır.

Dünya ictimaiyyəti suların durulmağa doğru getməsi prosesində – ötən ilin payızından bəri USAID- in son əlli ildəki bütün eybəcərliklərini ifşa etdikcə həmin iyrənc faktların kartotekası gündən-günə “zənginləşir”. Bu gün artıq mətbuatda “USAID-lə əməkdaşlıq etmək niyə təhlükəlidir?”, “USAID-in qanunsuz əməlləri dünyanı şoka saldı”, “İç üzü açılan USAID hər yerdən qovulur”, “Dünyada hansı çirkin iş varsa, arxasından USAID çıxır” kimi yazı sərlövhələrinin görünmədiyi gün olmur.

Həmkarlarımız yazırlar ki, dünyanın ən nüfuzlu mətbuat orqanları bu məkrli təşkilatın əlində bir alət imiş. Təmsil etdiyi dövlətin adından istifadə edən “usaidçilər” hansısa dövlətə, onun rəhbərliyinə qarşı qaralama




kampaniyasını məhz satın aldıqları mətbuat vasitələrinin əli ilə aparıblar. Üstəlik, USAID hər yerdə ABŞ-ın kəşfiyyat orqanlarının fəaliyyət göstərməsi üçün zəmin yaradıb. “Azərbaycanı “söyən” media orqanına 1 ildə 19 milyon dollar pul verildi...” adlı məqalədə isə göstərilir ki, USAID Gürcüstanda rəngli inqilab törətmək üçün 47 milyon dollar ayırıb. Ancaq gürcü xalqı buna imkan vermədi. USAID-in maliyyələşdirdiyi media orqanları Azərbaycana qarşı təbliğat, qaralama kampaniyası aparırlar. Görəndə ki, Azərbaycana birbaşa təsir edə bilmirlər, bu kimi qaranlıq vasitələrə əl atırlar. Ekspert hesab edir ki, “araşdırmalar nəticəsində ortaya hələ çox şeylər çıxacaq”.

Mətbuat yazır ki, USAID-in caynağı Kubaya da uzanıb. Belə ki, “Associated Press”in araşdırmasının nəticələrinə görə 2010-cu ildə Kubada yaradılan “Twitter”ə bənzər “ZunZuneo” adlı sosial şəbəkənin məqsədi ölkədə kütləvi iğtişaşlar və inqilab törətmək olub. USAID-in birbaşa maliyyə dəstəyi və nəzarəti altında gerçəkləşdirilən layihədə sosial şəbəkənin əvvəlcə idman, əyləncə, təbiət hadisələri kimi xəbərləri yaymaqla istifadəçilərinin sayını artırması nəzərdə tutulubmuş. Bu müddətdə istifadəçilərin yaş, cins, yaşayış yeri kimi şəxsi məlumatları toplanaraq təhlil edilib. Sosial şəbəkənin fəal istifadəçilərinin sayının yüzminlərlə üzvü əhatə etməsindən sonra isə şəbəkədə siyasi yönlü, əhalini kütləvi etirazlara sövq edən informasiyaların yerləşdirilməsi planlaşdırılırmış. Lakin nədənsə, 40 mindən artıq üzvü olan sosial şəbəkə 2012-ci ildə xəbərdarlıq edilmədən bağlanılıb. Təxminən iki il sonra isə layihənin arxasında dayanan gizli məqsədlər üzə çıxıb.

Başqa bir ekspert isə yazır ki, bu iyrənc və məkrli qurum Əfqanıstanda da çirkin əməlləri ilə “tarix” yazıb. Həmin”tarix”in əsas nəticəsi isə Əfqanıstanın əbədi terrorçuluq məkanına çevrilməsi olub. Sonra isə təşkilat yeni planlar üzərində işləməyə başlayıb. Yeni planların nəticəsi isə Ukraynada – göz qabağındadır. Ekspertin fikrincə, Ukraynanın indiki günlərini görəndə USAID-in “harada qan var, orada biz varıq” strategiyası yada düşür.

Bu rəzil qurum adıçəkilən ölkələrin qeyd etdiyimiz vəziyyətə salınmasına nail olubsa, gör indi Afrika xalqlarına hansı sitəmləri edib. Həm kasıblıqdan, həm də müstəmləkə statusundan əzab çəkən afrikalıların USAID-in “sosial ədalət naminə” göstərdiyi yardımlara nə qədər ehtiyacı olduğunu biməyən var ki? Elə ərəb ölkələrindəki “rəngli inqilab”ların körüklənməsində də USAID-in “xidmətləri” az olmamışdır.

Bütün bunlar cənab Trampın məlum addımlarından sonra ifşa olunan faktlardır. Ən pisi isə odur ki, USAID bu rəzalətlərin hamısını “sosial ədalət” afişası altında həyata keçirib. Bundan sonra dünyada “sosial ədalət” tezisinə inanan qalacaqmı? Mən biləni – yox! Çünki USAID ABŞ-ın adına ləkə olduğu kimi, “sosial ədalət” prinsipinə də qənim kəsilib.

Hər halda, dünya xalqlarının gümanı suların daha çox durulmasına qalıb. Allah böyükdür!

***İttifaq MİRZƏBƏYLİ***

## "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) 2-ci maddəsinə "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı;" hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

"Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalı;".

Maddə 2. "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

Maddə 3. "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 fevral 2025-ci il**

## "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli 132-VIIQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli 132-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli 132-VIIQD nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Əsasnamənin 2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi nəzərdə tutulur.

2. "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin İcraçı direktoruna verilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli 132-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 fevral 2025-ci il**

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2003-cü il 27 sentyabr tarixli 934 nömrəli, "Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi"nin təsdiq edilməsi barədə" 2006-cı il 13 fevral tarixli 363 nömrəli, "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və işçilərinin ümumi say tərkibinin müəyyən edilməsi barədə" 2006-cı il 18 aprel tarixli 392 nömrəli, "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2016-cı il 20 aprel tarixli 869 nömrəli, "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" 2023-cü il 24 iyul tarixli 2242 nömrəli və "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 934 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 485 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi haqqında Əsasnamə"nin 4-cü bəndində "qanunla qadağan olunmayan" sözləri "qanunda nəzərdə tutulan" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 363 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 80 (Cild I) ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi"nin 5-ci bəndində "qanunvericiliklə" sözü "qanunda" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 324 (Cild I); 2024, № 1, maddə 22, № 5 (I kitab), maddə 529; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 dekabr tarixli 263 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

3.1. 5-ci bənddə "qanunvericilikdə" sözü "qanunda" sözü ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 14.3-1-ci, 14.3-2-ci yarımbəndlər və 17-1-ci bənd əlavə edilsin:

"14.3-1. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin sərəncamçısı olaraq maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla Nazirlik işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

14.3-2. Nazirliyin fəaliyyətinin istiqamətləri üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar vəsaitin formalaşdırılması ilə bağlı təkliflər verir;";

"17-1. Nazirliyin Kollegiyası qərar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

17-1.1. Nazirliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktları;

17-1.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Nazirliyə tapşırılmış normativ hüquqi aktları;

17-1.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktları;

17-1.4. aidiyyəti dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktları;

17-1.5. nazirin təşəbbüsü ilə Nazirliyin Kollegiyasının müzakirəsinə çıxarılan bu Əsasnamənin 14.2-ci yarımbəndində nəzərdə tutulmuş normativ hüquqi aktları;

17-1.6. bu Əsasnamənin 17-1.1–17-1.5-ci yarımbəndlərinə uyğun olaraq, Nazirliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişiklik edilməsi barədə normativ hüquqi aktları.".

4. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 869 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 674 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin Əsasnaməsi"nin 1.5-ci bəndində "qanunla qadağan olunmayan" sözləri "qanunda nəzərdə tutulan" sözləri ilə əvəz edilsin.

5. "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2242 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 967 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 1.5-ci bəndində "qanunla qadağan olunmayan" sözləri "qanunda nəzərdə tutulan" sözləri ilə əvəz edilsin;

5.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Əsasnaməsi"nin 1.5-ci bəndində "qanunla qadağan olunmayan" sözləri "qanunda nəzərdə tutulan" sözləri ilə əvəz edilsin;

5.3. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Əsasnaməsi"nin 1.5-ci bəndində "qanunla qadağan olunmayan" sözləri "qanunda nəzərdə tutulan" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 11, maddə 1510 (Cild I); 2024, № 7, maddə 821, № 9, maddə 1005, № 11, maddə 1205) ilə təsdiq edilmiş "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.5-ci bənddə "qanunla qadağan olunmayan" sözləri "qanunda nəzərdə tutulan" sözləri ilə əvəz edilsin;

6.2. 3.1.66-cı yarımbənddən "qanunla qadağan olunmayan" sözləri çıxarılsın.

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

7.1. mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsinin yeni layihəsini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 fevral 2025-ci il**

*Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli Qanunu ilə təsdiq edilmişdir*

## "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

"Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə media sahəsinin inkişafında xüsusi xidmətləri olan, bu sahədə səmərəli fəaliyyət göstərən və ya media ilə əməkdaşlıqda fərqlənən Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

"Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

*Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli Qanunu ilə təsdiq edilmişdir*

## "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

"Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra – medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan dairəvi lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfi xarici və daxili çevrələrlə konturlanmışdır. Xarici çevrə dekorativ elementlidir.

2.2. Xarici və daxili çevrələrin arasında yuxarı qövs boyunca "AZƏRBAYCAN MİLLİ MƏTBUATI" sözləri, aşağı qövs boyunca "1875–2025" rəqəmləri yazılmışdır. Yazılarla rəqəmlərin arasında sol və sağ tərəflərdə qövs boyunca yuxarıya doğru uzanan sünbül çələngləri təsvir olunmuşdur.

2.3. Daxili çevrənin içərisində "150 İL" sözləri və bükülmüş vərəq və lələkdən ibarət kompozisiya yerləşdirilmişdir.

2.4. Bütün yazılar, rəqəmlər və elementlər relyefli olaraq, qabarıqdır, qızılı rəngdədir.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfi çevrə ilə konturlanmışdır. Çevrənin içərisində "AZƏRBAYCAN MİLLİ MƏTBUATININ 150 İLLİYİ" sözləri həkk olunmuşdur. Yazılardan aşağı hissədə "1875–2025" rəqəmləri yazılmışdır. Rəqəmlərdən sol, sağ və aşağı tərəflərdə üç düz xətt təsvir olunmuşdur.

3.2. Medalın arxa tərəfinin aşağı hissəsində medalın seriyası və nömrəsi göstərilir.

3.3. Bütün yazılar, rəqəmlər və xətlər relyefli olaraq, qabarıqdır, qızılı rəngdədir.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 50 mm x 37 mm ölçülü xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentin yuxarı hissəsinə üzərində relyefli aypara və səkkizguşəli ulduzdan, aypara və ulduzun sol və sağ tərəflərində bükülmüş lentlərdən ibarət kompozisiya həkk olunmuş 40 mm x 5,5 mm ölçülü metal lövhə bərkidilmişdir.

4.2. Xara lentin mərkəzində eni 11 mm olan qızılı rəngli şaquli zolaq təsvir edilmişdir. Mərkəzdən sol və sağ kənarlara doğru, ardıcıl olaraq 6,5 mm enində boz rəngli, 2 mm enində qızılı rəngli, 2,5 mm enində açıq göy rəngli və 2 mm enində qızılı rəngli şaquli zolaqlar təsvir edilmişdir.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə edilir.

## "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı







## "Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 671 (Cild I); 2024, № 6 (I kitab), maddə 650) 4-cü hissəsində "455" rəqəmləri "473" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 fevral 2025-ci il**

# MDB ölkələri ilə ticarət inkişaf edir

## *İlin ilk ayında 556 milyon 453 min dollarlıq əməliyyat aparılıb*



**Dövlət Gömrük Komitəsindən bildirilib ki, ötən ay respublikamızla MDB ölkələri arasında 556 milyon 453 min ABŞ dolları (ötən ilin eyni dövrü ilə müqayisədə 32 faiz çox) dəyərində ticarət əməliyyatları reallaşıb. Hesabat dövründə MDB ölkələri ilə ticarət əməliyyatları ölkəmizin ümumi ticarət dövriyyəsinin 33,57 faizini təşkil edib.**

Bu dövrdə Azərbaycanın ticarət dövriyyəsinin dəyəri azalan sıra üzrə Rusiya ilə 411 milyon 812 min dollar (1 il əvvələ nisbətən 55,5 faiz çox), Ukrayna ilə 44 milyon 448 min dollar (11,7 faiz az), Belarusla 33 milyon 189 min dollar (4,3 faiz az), Türkmənistanla 26 milyon 352 min dolları (22 faiz az), Qazaxıstanla 24 milyon 691 min dollar (41,6 faiz çox), Özbəkistanla 14 milyon 578 min dolları (13,2 faiz çox), Qırğızıstanla 822 min dollar (88,5 faiz az), Moldova ilə 418 min dollar (20,7 faiz az), Tacikistanla 136 min dollar (52,8 faiz çox) olub. Yanvarda Azərbaycanın MDB ölkələrinə məhsul ixracının dəyəri 19,5 faiz artaraq 120 milyon 234 min dollar təşkil edib.

Bu dövrdə Azərbaycandan Rusiyaya 81 milyon 145 min dollar (illik müqayisədə 7,3 faiz çox), Ukraynaya 22 milyon 762 min dollar (9,4 dəfə çox), Belarusa 4 milyon 723 min dollar (31,1faiz az), Türkmənistana 3 milyon 4 min dollar (25,1 faiz az), Qazaxıstana 5 milyon 693 min dollar (68,4 faiz çox), Özbəkistana 2 milyon 612 min dollar (31,5 faiz çox), Qırğızıstana 91 min dollar (98,5 faiz az), Moldovaya 107 min dolları (36,7 faiz az), Tacikistana 93 min dollar (ötən ilin yanvar ayında ixrac olmayıb) dəyərində məhsul ixrac edilib.

Ölkənin ümumi ixracında MDB ölkələri 3,95 faiz, o cümlədən Rusiya 2,67 faiz, Ukrayna 0,75 faiz, Türkmənistan 0,10 faiz, Belarus 0,15 faiz, Qazaxıstan 0,19 faiz, Özbəkistan 0,09 faiz, Qırğızıstan, Moldova, Tacikistan isə cüzi paya sahib olub.

Yanvar ayında Azərbaycanın MDB ölkələrindən məhsul idxalının dəyəri 35,9 faiz artaraq 436 milyon 219 min dollar təşkil edib.

Bu dövrdə Azərbaycana Rusiyadan 330 milyon 667 min dollar (74,8 faiz çox), Ukraynadan 21 milyon 686 min dollar (54,8 faiz az), Belarusdan 28 milyon 466 min dollar (2,3 faiz çox), Türkmənistandan 23 milyon 348 min dollar (21,5 faiz az), Qazaxıstandan 18 milyon 998 min dollar (35,1 faiz çox), Özbəkistandan 11 milyon 966 min dollar (9,8 faiz çox), Qırğızıstandan 731 min dollar (20,5 faiz az), Moldovadan 311 min dollar (13,1 faiz az), Tacikistandan 43 min dollar (51,7 faiz az) dəyərində məhsul idxal edib.

Ölkənin ümumi idxalında MDB ölkələri 21,25 faiz, o cümlədən Rusiya 16,11 faiz, Ukrayna 1,06 faiz, Türkmənistan 1,14 faiz, Belarus 1,39 faiz, Qazaxıstan 0,93 faiz, Özbəkistan 0,58 faiz, Qırğızıstan 0,04 faiz, Moldova 0,02 faiz, Tacikistan isə cüzi paya sahib olub.

# İmişlidə aqrobiznes festivalı

**Ölkəmizin aparıcı banklarının tərəfdaşlığı ilə keçirilən aqrar biznes festivalları dövlət güzəştlərindən daha çox fermer-sahibkarın faydalanması üçün lazım olan addımların müzakirəsi baxımından xüsusi əhəmiyyət daşıyır. Fermerlərin, kiçik və orta sahibkarların, kənd təsərrüfatı məhsul və avadanlıqlarının istehsalı ilə məşğul olan yerli və xarici şirkətlərin, eləcə də dövlət qurumlarının iştirak etdikləri belə tədbirlərdə müxtəlif xidmətlər təklif edilir, innovativ məhsul və avadanlıqlar nümayiş olunur.**



2025-ci ilin ilk Aqrar Biznes Festivalı fevralın 19-da İmişli rayonunda keçirilib. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, festivalda İmişli, Saatlı, Sabirabad, Beyləqan və Biləsuvar rayonlarından olan fermerlər iştirak ediblər. Tədbirdə müxtəlif kənd təsərrüfatı məhsulları, texnika və avadanlıqlar sərgilənib. Fermerlər toxum, gübrə və pestisidlər, müasir suvarma texnologiyaları və kənd təsərrüfatı texnikaları ilə tanış olub, onların tətbiqi barədə ətraflı məlumat əldə ediblər.

Aqrar Biznes Festivalını giriş sözü ilə açan İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev belə tədbirlərin regionlarda kənd təsərrüfatının inkişafına, fermerlərin maariflənməsinə və yeni texnologiyaların tətbiqinə mühüm töhfə verdiyini diqqətə çatdırıb. Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov festivalların kənd təsərrüfatında müasir texnologiya və innovasiyaların fermerlərə çatdırılması, eləcə də fermerlər və təchizatçı şirkətlər arasında əlaqələrin gücləndirilməsi baxımından mühüm platforma olduğunu bildirib. Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Yalçın Camalov isə çıxışında dövlətin kənd təsərrüfatı sektoruna göstərdiyi dəstək, xüsusilə də güzəştli kreditlər və digər maliyyə mexanizmləri barədə danışıb. O, fermerlərin bu imkanlardan səmərəli istifadə etmələrinin vacibliyini qeyd edib.

Festival çərçivəsində kənd təsərrüfatına dair müxtəlif xidmətlərin təklifi və məhsulların nümayişi ilə yanaşı, regionlarda sahibkarlığın inkişafına dəstək, eləcə də fermerlərin maliyyə savadlılığının artırılması, güzəştli kreditlərin verilməsi ilə bağlı məlumatlandırma məqsədilə kredit yarmarkası keçirilib. Yarmarkada iştirak edən 10-a yaxın bank və bank olmayan kredit təşkilatının mütəxəssisləri potensial müştərilərinə kreditlərin verilməsi ilə bağlı məsləhət və tövsiyələr verib.

Bundan əlavə, tədbir çərçivəsində "Dövlətin maliyyə mexanizmləri" mövzusunda panel müzakirə keçirilib. Müzakirədə Aqrar Kredit və İnkişaf Agentliyi, Sahibkarlığın İnkişafı Fondu, Aqrar Sığorta Fondu, banklar və kredit təşkilatlarının nümayəndələri iştirak ediblər. Panel müzakirələr zamanı fermerlərə güzəştli kreditlər, kənd təsərrüfatına dövlət dəstəyi və digər maliyyə mexanizmləri barədə məlumat verilib, fermerlərin sualları cavablandırılıb, aqrar təyinatlı kredit almaq üçün müraciət edənlərə texniki dəstək göstərilib. Festival çərçivəsində fermerlər və sahibkarlarla bank və kredit təşkilatlarının nümayəndələri arasında görüşlər olub, potensial əməkdaşlıq imkanları müzakirə edilib.

Xatırladaq ki, ötən il Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə ölkənin 12 iqtisadi rayonunu əhatə edən 33 rayonunda Aqrar Biznes festivalları keçirilib. Sözügedən festivallarda 56 rayondan 17 min 171 nəfər kənd təsərrüfatı məhsul istehsalçısı və emalçısı iştirak edib, fermerlərin maarifləndirilməsi istiqamətində aqrar sahənin prioritet sahələri üzrə ən qabaqcıl təcrübə və yeniliklərlə bağlı 32 təlim və 9 panel müzakirə təşkil olunub. Aqrar sahədə müasir innovativ yeniliklərin nümayiş olunduğu festivallar çərçivəsində bir sıra şirkət və fərdi sahibkar tərəfindən 6 milyon 125 min manat həcmində satış həyata keçirilib, Bununla yanaşı, kredit yarmarkalarında 6 bank tərəfindən sahibkarlara 1 milyon 662 min 77 manat dəyərində kredit verilib.

# Nəqliyyat dəhlizləri – dünyaya açılan qapılar

**Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il Cənub – Qərb Nəqliyyat Dəhlizi ilə daşınan yüklərin həcmi 394,2 min ton (2023-cü illə müqayisədə 141,3 min ton və ya 55,9 faiz çox) təşkil edib. 2023-cü ildə isə bu nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmi 252,9 min tona çatıb. Hesabat ilində Şimal – Qərb Nəqliyyat dəhlizi ilə yükdaşıma 5 milyon 984,9 min ton (əvvəlki illə müqayisədə 86,3 min ton və ya 1,5faiz çox) olub. Xatırladaq ki, 2023-cü ildə Şimal-Qərb marşrutu ilə daşınmış yüklərin həcmi 5 milyon 898,6 min tona yüksəlib. Ötən il Şimal–Cənub Nəqliyyat Dəhlizi ilə daşınmış yüklərin həcmi isə 9 milyon 896,5 min ton (əvvəlki illə müqayisədə 625,4 min ton və ya 6,7 faiz çox) olub.**



Beləliklə, 2024-cü ildə nəqliyyat dəhlizlərində daşınan yüklərin həcmi 33 milyon 258 min ton olub. Yüklərin 15 milyon 277,6 min tonu və ya 46 faizi dəmir yolu, 10 milyon 90 min tonu və ya 30,3 faizi avtomobil, 7 milyon 890,4 min tonu və ya 23,7 faizi dəniz nəqliyyatı ilə daşınıb. Dəhlizlər vasitəsilə daşınan yüklərin 56,6 faizini və ya 18 milyon 840 min tonunu tranzit yüklər təşkil edib.

Bütün bu müsbət göstəricilərin əldə edilməsində respublikamızın fəaliyyəti də xüsusi diqqət çəkib. Belə ki, tarixi İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan Azərbaycan, həm də ötən dövrdə digər dəhlizlərlə müqayisədə yüklərin ölkəmizin ərazisindən keçməklə müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı şərait yaradıb, yüklərin daha əlverişli şərtlərlə qısa müddətdə, təhlükəsiz və vaxtında çatdırılmasına, tranzit daşımaların həcminin dəfələrlə artmasını şərtləndirib.

Yuxarıda qeyd edilənlərdən belə nəticəyə gəlinir ki, Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. Bununla bərabər beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı da iqtisadiyyatımızın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Eyni zamanda, nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirir, əhəmiyyətini artırır.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, son 10 il ərzində nəqliyyat sektorunda orta illik artım tempi 3,5 faiz təşkil edib, yeni infrastruktur qurulub, özəl investisiyalar artıb. Ölkə regional əhəmiyyətli nəqliyyat-logistika və ticarət qovşağına çevrilib və əsas ticarət marşrutlarından bəhrələnməyin əsası qoyulub.

# Qarabağda özəl fəaliyyət genişlənir

## *10 layihəyə 23,8 milyon manat kredit verilib*

**Sahibkarlığın İnkişafı Fondunun (SİF) məlumatına görə, qurumun 2024-cü ildə güzəştli kreditlə təmin etdiyi sahibkarlıq subyektlərinin sayı 5 min 722-yə (2023-cü illə müqayisədə 74,7 faiz çox) çatıb. Verilən kreditin məbləği isə 28 faiz yüksələrək 248,1 milyon manat təşkil edib.**



Hesabat ilində fondun vəsaitinin səmərəli yerləşdirilməsi məqsədilə sənaye, kənd təsərrüfatı, logistika, anbar komplekslərinin yaradılması, turizm, balıqçılıq və akvakultura, kütləvi informasiya vasitələrinin inkişafı, tibb, təhsil və xidmət layihələri prioritet istiqamətlər kimi müəyyənləşdirilib. Fondun verdiyi ümumi güzəştli kredit məbləğinin 53,3 faizi kənd təsərrüfatı, 38,1 faizi sənaye məhsullarının istehsalı və emalı (o cümlədən, aqrar emal), 6,1 faizi xidmət, 2,1 faizi turizm və 0,4 faizi isə balıqçılıq sahələrinə yönəldilib.

Fondun məlumatına görə, 2024-cü ildə güzəştli kreditlə gerçəkləşdirilən layihələrin 94,7 faizi, verilmiş güzəştli kredit məbləğinin isə 72 faizi və ya 179 milyon manatı regionların payına düşüb.

Yeri gəlmişkən, Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sahibkarlığın inkişafı da diqqətdə saxlanılıb. Bu ərazilərdə özəl sektorun tərəqqisi məqsədilə infrastrukturun qurulmasına xüsusi önəm verilib. Belə ki, işğaldan azad olunan torpaqlarda investisiya mühitinin yaradılması məqsədilə növbəti mərhələ sayılan fiziki infrastrukturun böyük hissəsi artıq qurulub. Qarabağ və Şərqi Zəngəzur elektrik enerjisi ilə tam təmin olunub. Bu iqtisadi rayonlar ölkənin vahid enerji şəbəkəsinə qoşulub. Nəqliyyat infrastukturu tam sürətlə bərpa olunmaqla, ölkənin digər şəhər və rayonlarının yol infrastukturu ilə birləşdirilib.

İşğaldan azad olunan ərazilərin bərpası haqqında danışarkən bir məqamı da xatırlatmaq istərdik. SİF-in məlumatına görə, adıçəkilən fond 2022-ci ildən etibarən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında fəaliyyət göstərən sahibkarları güzəştli kreditlərlə təmin etməyə başlayıb. Fond ötən müddət ərzində bu torpaqlarda gerçəkləşdirilən 10 layihəyə, ümumilikdə, 23,8 milyon manat güzəştli kredit verib.

Beləliklə, son illərdə güzəştli kreditlər regionlarda sahibkarlığın inkişafına, yeni iş yerlərinin yaradılmasına və iqtisadi dinamikanın artmasına böyük töhfə verib. Bundan başqa, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin dayanıqlığının və inkişafının reallaşdırılması üçün onların güzəştli maliyyə resurslarına çıxışı mühüm önəm daşıyıb. Dövlətin bu sahədə gerçəkləşdirdiyi dəstək mexanizmləri belə sahibkarlar üçün əlverişli maliyyələşmə imkanları yaradıb və onların biznes fəaliyyətlərinin genişləndirməsini şərtləndirib. Xatırladaq ki, hesabat ili ərzində fondun maliyyələşdirdiyi layihələrin 99,8 faizi, ayrılan güzəştli kredit məbləğinin isə 93,4 faizi məhz mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payına düşüb.

İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin stimullaşdırılması istiqamətində zəmanət–subsidiya mexanizmi ilə yanaşı, güzəştli kredit mexanizmi ilə də dəstək tədbirləri davam etdirilib. Hesabat dövründə bu ərazilərdə icra olunan 3 layihə üzrə fonddan, ümumilikdə, 8,1 milyon manat güzəştli kredit əldə olunub.

2024-cü il işğaldan azad edilmiş ərazilərdə iqtisadi fəallığın bərpa olunması və bu ərazilərdə investisiya qoyuluşlarının sürətlənməsinə dəstək diqqət mərkəzində saxlanılıb. Belə ki, fevral ayından etibarən "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlara dəstək" mexanizmi çərçivəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında investisiya layihəsi həyata keçirən sahibkarların bank və bank olmayan kredit təşkilatlarından əldə etdikləri kreditlərin 90 faizədək hissəsinə dövlət zəmanətinin verilməsinə başlanılıb. Bununla yanaşı, həmin kreditlərin illik faiz dərəcəsinin 10 faiz bəndi ilə 36 aya qədər müddətdə dövlət tərəfindən subsidiyalaşdırılması və kreditin müddətinin yarısından çox olmamaqla, 36 aya qədər güzəşt müddətinin tətbiq edilməsi qərara alınıb.

# Sabirabad aqroparkı istehsalı artırır

**"Orta fermer təsərrüfatının aqrar-sənaye klasterlərinə inteqrasiyası" pilot layihəsi çərçivəsində yaradılmış Sabirabad Pilot Aqroparkının ərazisi tam olaraq sahibkarların istifadəsinə verilib. Bu barədə İqtisadi Zonaların İnkişafı Agentliyi məlumat yayıb.**



Bildirilib ki, 7 min 544 hektar ərazidə yerləşən aqroparkda ötən müddətdə 8 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Sahibkarlar tərəfindən indiyədək 4 min 100 hektar sahədə əkin işləri görülüb. Bu məqsədlə 22,4 milyon manat investisiya yatırılıb, 98 daimi, 397 mövsümi iş yeri yaradılıb.

Qeyd edək ki, Sabirabad Pilot Aqroparkında müasir suvarma sistemlərinin tətbiqi ilə meyvəçilik, toxumçuluq, heyvandarlıq, taxılçılıq və pambıqçılıq təsərrüfatlarının yaradılması istiqamətində işlər aparılır.

# Magistral kəmərlər 3,2 milyon ton neft nəql edib



**Bu ilin yanvar ayında Azərbaycanın magistral neft kəmərləri ilə 3 milyon 209,5 min ton neft nəql edilib. Bunun da əsas hissəsi Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin payına düşüb. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.**

Bildirilib ki, hesabat dövründə nəqletmənin 72,3 faizi Bakı–Tbilisi–Ceyhan neft ixrac kəməri ilə həyata keçirilib. Ötən ay bu kəmər vasitəsilə 2 milyon 319,1 min ton neft ötürülüb. Ay ərzində BTC kəməri ilə nəql edilmiş neftin 1 milyon 926,5 min tonunu və ya 83,1 faizini Azərbaycanda hasil edilən neft, 392,6 min tonunu və ya 16, 9 faizini isə Türkmənistan və Qazaxıstandan daxil olan neft həcmləri təşkil edib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan xalqına qarşı çoxsaylı cinayətlərdə təqsirləndirilənlərin məhkəməsi davam etdirilir



**Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə məhkəmə prosesi fevralın 20-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər - Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, habelə müdafiələri üçün vəkillərlə təmin olunub.

Məhkəmə iclasında təqsirləndirilən şəxslər və onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, habelə dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev təqsirləndirilən şəxslərin hər birinə onlara qarşı irəli sürülmüş hər bir ittihamın mahiyyətini, onlara istinad olunan əməllərin hüquqi tövsifini, həmin əməllərə görə cinayət qanunu ilə nəzərdə tutulan cəzanı və təqsirləndirilən şəxslərin malik olduqları hüquqları izah edib, habelə özlərini tam və ya qismən təqsirli, yaxud təqsirsiz bilib-bilməmələrinə dair suallar ünvanlayıb.

Məhkəmə iclasının əvvəlində təqsirləndirilən şəxs Arayik Harutyunyanın vəkili məhkəməyə müraciət edərək hüquqlarını müdafiə etdiyi şəxslə konfidensial görüş keçirmək istədiyini bildirib. Məhkəmə vəsatəti təmin edərək konfidensial görüş üçün şərait yaradıb.

Təqsirləndirilən şəxslərin heç biri onlara elan olunmuş ittihamlar üzrə özlərini təqsirli bilmədiklərini qeyd edib.

Təqsirləndirilən şəxslərdən Arayik Harutyunyan bir qədər geniş danışaraq baş vermiş cinayət hadisələri ilə bağlı təəssüf hissi keçirdiyini bildirib. O deyib: "Mən prokurorluq tərəfindən təqdim edilmiş ittihamlarla tanış olmuşam. Son 34 il ərzində Qarabağda hansı proseslərin baş verməsindən xəbərdaram. Təəssüf edirəm. Münaqişə Sovet İttifaqının xüsusi xidmət orqanları tərəfindən təhrik edilib. Ona görə də biz özümüzü qurban hesab edirik”.

Daha sonra Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev məhkəmə istintaqında sübutların tədqiq edilmə ardıcıllığına dair ittiham tərəfinin təklifini səsləndirib.

Digər proses iştirakçıları, o cümlədən təqsirləndirilən şəxslər və onların müdafiəçiləri ittiham tərəfinin təklifini dəstəkləyiblər.

Məhkəmə iclasına sədrlik edən hakim Zeynal Ağayev cinayət prosesinin tərəflərinə məhkəmə istintaqında sübutların tədqiq edilmə qaydasını izah edib.

Bundan sonra təqsirləndirilən şəxslərə məhkəmə tərəfindən müəyyən edilmiş ardıcıllıqla sərbəst ifadə vermək təklif olunub. Təqsirləndirilən şəxslər və onların müdafiəçiləri məhkəməyə müraciət edərək ifadə vermək üçün hazırlaşmaq və onlara təqdim olunmuş cinayət işi materiallarını yenidən nəzərdən keçirmək üçün əlavə vaxt istəyiblər.



Məhkəmə onların xahişini təmin edərək iclası təxirə salıb.

Məhkəmənin növbəti iclası fevralın 24-nə təyin olunub.

Növbəti məhkəmə iclası təqsirləndirilən şəxs Arkadi Qukasyanın sərbəst ifadəsi ilə başlayacaq.

Qeyd edək ki, Ermənistan dövlətinin onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə erməniəsilli 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni, Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan Davit Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beglaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

***XQ***

# Yerablur məzarlığından boylanan Qarabağ avantürası

*(əvvəli 1-ci səhifədə)*

Ümumən, 1988-ci il fevralın 16-dan martın 2-dək Xankəndinin mərkəzi meydanında fasiləsiz nümayişlər keçirildi. Fevralın 20-də DQMV-nin Xalq Deputatları Şurasının növbədənkənar iclasında “Ermənistan SSR və Azərbaycan SSR-in Ali Sovetləri qarşısında, DQMV-nin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə verilməsi haqqında vəsatət qaldırılması” qərara alındı. Məhz həmin gün İrəvanda sözügedən vəsatətə dəstək məqsədilə ilk nümayiş oldu. Bunun ardınca baş verənlər də yaxşı məlumdur.

Beləliklə, 1988-ci il martın 1-də Xankəndidə Dağlıq Qarabağı Azərbaycandan qoparmağı qarşısına məqsəd qoymuş “Krunk” təşkilatı yaradıldı. Ona rəhbərliyi Xankəndi tikinti materialları kombinatının direktoru Arkadi Manuçarov etdi. Jurnalist Tomas de Vaal kitabında yazır ki, “Krunk” SSRİ-nin rəhbəri Mixail Qorbaçov dövründə Sovet İttifaqında tətili siyasi silah kimi istifadə etməyə başlayan ilk təşkilat idi. Onun “ideoloji bölməsinə” başçılığı o zaman Xankəndi ipək fabrikinin partiya komitəsinin katibi işləmiş, sonradan Ermənistan prezidenti olmuş Robert Koçaryan həyata keçirdi. S.Şaumyan adına şəhər stadionunun direktoru Ramzik Petrosyanın rəhbərliyi altında yaradılmış xalq drujinalararının məqsədi isə Xankəndidə yaşayan azərbaycanlıları qovmaq oldu. Bir müddət sonra R.Petrosyan “Qarabağ özünü müdafiə qüvvələri” adlanan erməni silahlı dəstələrinin komandirlərindən birinə çevrildi. Paralel olaraq Ermənistanda Dağlıq Qarabağın Azərbaycandan qoparılması uğrunda kampaniya da vüsət aldı. Nəticədə İrəvanda “Qarabağ komitəsi” yaradıldı. Bir müddət sonra bu komitə hakim Ermənistan kommunist partiyasını üstələməyə başladı.

Onu da bildirək ki, 1988-ci il fevralın 26-da Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi Mixail Qorbaçov Kremldə Zori Balayanı və Silva Kaputikyanı qəbul etmişdi. Görüşdə Qorbaçovun erməni əsilli köməkçisi Qeorgi Şaxnazarovun iştirakı diqqət çəkmişdi. Şaxnazarov yazırdı ki, Qorbaçov Qarabağ ətrafında baş verən hadisələri “Arxadan vurulan zərbə” kimi səciyyələndirmiş və bildirmişdi ki, “azərbaycanlıları çətinliklə sakitləşdirirlər, ən əsası isə təhlükəli presedent yaranır. Ölkədə onlarca potensial etnik qarşıdurma ocağı var, Qarabağ məsələsi zorakı əməllərə əl atmağa cürət etməyənləri ilhamlandıra bilər”.

Lakin bütün bunlar yalnız sözdə idi. Çünki SSRİ rəhbərliyi erməni separatizminin qarşısını almaq üçün, faktiki olaraq, heç nə etmir, azğınlaşmış erməni millətçilərinə qarşı sərt tədbirlər görmür, onların nazı ilə oynayırdı. Nəticə ertibarilə “Qarabağ hərəkatı”nın rəhbərləri ermənilərin özlərinin törətdikləri Sumqayıt hadisələrindən məharətlə yararlandılar. Onlar Ermənistanda yaşayan azərbaycanlıların həmin vaxtadək başlamış olan qovulmalarını sürətləndirdilər.

Martın 21-də Sov.İKP MK Siyasi Bürosunun iclasında Qarabağda və Ermənistanda baş verən hadisələr, habelə, Qarabağ komitəsinin fəaliyyəti müzakirəyə çıxarıldı. Həmin günün ertəsi Sovet İttifaqının mərkəzi mətbuat orqanı “Pravda” qəzeti “Qarabağ hərəkatı”, həmçinin Azərbaycan və Ermənistanda yaşanan hadisələr haqqında “Emosiyalar və şüur” sərlövhəli məqalə dərc etdi. Yazıda baş verənlər “insanları təxribata çəkən məsuliyyətsiz ekstremistlərin əməlləri” adlandırıldı. Amma bunun heç bir faydası olmadı. Əksinə, martın 23-də məhz həmin məqaləyə cavab olaraq Xankəndidə aprelin 5-dək davam etmiş kütləvi tətil başlandı. Bir gün sonra Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti “Krunk”un ləğvi və icazəsiz toplantıların qadağan edilməsi haqqında qərar qəbul etdi.

1988-ci ilin mayında Qarabağ komitəsinin rəhbərliyində dəyişikliklər oldu - Qarabağ erməniləri Zori Balayan və İqor Muradyan komitədən kənarlaşdırıldı, təşkilatın tərkibində, demək olar, bütünlüklə İrəvan ziyalıları yer aldı. Beləliklə, Qarabağ komitəsi “Qarabağla Ermənistanın birləşməsi uğrunda ümummilli erməni hərəkatı” kimi fəaliyyət dövrünə start verdi. SSRİ Baş Prokurorluğu isə qurumun bəzi rəhbərlərini həbs etsə də, onlar tezliklə azadlığa çıxdılar.

1990-cı ilin avqustunda Erməni ümummilli hərəkatı sonradan Ermənistanın birinci prezidenti olmuş Levon Ter-Petrosyanın rəhbərliyi ilə Ermənistan Ali Sovetinə keçirilən seçkilərdə qalib gəldi. Nəticədə Qarabağ komitəsinin, yəni elə “Qarabağ hərəkatı”nın da bir çox üzvü nazirə və dövət məmuruna çevrildi. Sonra SSRİ dağıldı, Ermənistan müstəqil oldu və əvvəldə də bildirdiyimiz kimi, “Qarabağ hərəkatı” ilə başlanmış oyun Azərbaycan torpaqlarının işğalı ilə nəticələndi.

Sonda yenidən Yerablur qəbiristanlığından söz açaq. Əvvəldə bildirdik ki, burada İkinci Qarabağ müharibəsində məhv edilmiş erməni hərbçilərinin qəbirləri yerləşir. Onu da dedik ki, “Qarabağ hərəkatı”nın 37-ci ildönümü ilə bağlı həmin məkanın ziyarət edilməsində məntiq var. Yaxşı olar ki, baş nazir Nikol Paşinyan və onun komandası Yerablurda “Qarabağ hərəkatı” üçün ayrıca məzar yeri düzəltsinlər və oranı ziyarət edənlər başqalarının torpağına göz dikməyin aqibətini yaşasınlar.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Naxçıvan xəbərləri

## *Ali Məclisin iclası*





**Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yaz sessiyasının növbəti iclası keçirilib.**

Bəxtiyar Məmmədov iclasın gündəliyində duran məsələlərin “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında” Qanun layihəsinin müzakirəsi və “Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının qorunması haqqında” Naxçıvan MR İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2024-cü il üzrə məruzəsi olduğunu bildirib.

Qanun layihəsi barədə Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib, komitənin rəyini diqqətə çatdırıb. Layihənin müzakirəsi ilə bağlı deputatlardan Təhminə Babayeva və Əziz Qasımov çıxış ediblər. Müzakirə olunan məsələ ilə bağlı qanun səsə qoyularaq qəbul edilib.

Gündəlikdə duran ikinci məsələ ilə əlaqədar Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov bildirib ki, Muxtar Respublika İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) 2024-cü il üzrə məruzəsinin layihəsi Ali Məclisin müzakirəsinə çıxarılması üçün Hüquq siyasəti komitəsində müzakirə olunub.

Sonra İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Günay Rzayeva 2024-cü ildə muxtar respublikada insan hüquqlarının qorunması haqqında fəaliyyətə dair məruzə edib.

Məruzə ilə bağlı Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev komitənin rəyini diqqətə çatdırıb. Məruzənin nəzərə alınması ilə bağlı qərar layihəsi səsə qoyularaq qəbul edilib.

## NDU-da təcrübə konfransı

**Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbində 2024-2025-ci tədris ilinə aid təcrübələrin başlanğıc konfransı keçirilib.**



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli məclisdə çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasətinin ölkəmizin sosial-iqtisadi inkişafının əsas dayaqlarından biri olduğunu bildirib. O, dövlət qurumları ilə gənclər arasında əməkdaşlığın gücləndirilməsi, onların gələcək karyera inkişafına dəstək verilməsi və əmək bazarının tələblərinə uyğun peşəkar kadrların hazırlanmasının nəzəri və praktik aspektlərinə toxunub.

NDU-nun rektoru Elbrus İsayev 2024-2025–ci tədris ilinə aid təcrübələrin başlanğıc konfransının dövlət–universitet–sənaye əməkdaşlıq platforması görüşü olduğunu vurğulayıb. Naxçıvan MR Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Fərid Bağırzadə gənclərlə işin təşkili, onların peşəkar kadr kimi formalaşması, eyni zamanda əmək bazarına daxil olan ali təhsilli gənclərin məşğulluğunun təmin edilməsi yönünüdə fəaliyyətlərndən bəhs edib. Universitetin sektor müdiri Aynurə Seyidovaya “Təcrübələrin təşkilinə dair tələblər və qarşıda duran vəzifələr” barədə məlumat verib.

Konfransda Naxçıvan Dövlət Universitetinin ötən tədris ilinin təcrübələrindən hazırlanan videoçarx izlənilib, çıxışlar dinlənilib. Sonda Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Məktəbi ilə tanışlıq olub.

***Səbuhi HƏSƏNOV***
***XQ***

# APA-nın Bakı sessiyası başa çatdı



**Fevralın 20-də Bakı şəhərində Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasının rəsmi bağlanış mərasimi keçirilib. Sessiyada APA-ya üzv olan ölkələrin parlament nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri və digər rəsmi şəxslər iştirak ediblər.**

Bağlanış mərasimi çərçivəsində APA-nın müxtəlif daimi komitələrinin illik hesabatları müzakirəyə çıxarılıb və təsdiqlənib. Təqdim olunan hesabatlar arasında Sosial və mədəni məsələlər üzrə daimi komitə, Büdcə və planlaşdırma üzrə daimi komitə, İqtisadi və dayanıqlı inkişaf üzrə daimi komitə, Siyasi məsələlər üzrə daimi komitə kimi mühüm strukturların fəaliyyəti yer alıb. Hər bir komitə tərəfindən təqdim olunan hesabatlarda Asiya regionunda parlamentlərarası əməkdaşlığın inkişafı, iqtisadi və sosial sabitliyin gücləndirilməsi, büdcə planlaşdırılması və siyasi dialoqun dərinləşdirilməsi kimi mühüm məsələlərə toxunulub.

Bundan əlavə, sessiya çərçivəsində APA-nın 2025-ci il üzrə vitse-prezidentlərinin təsdiqlənməsi və 2026-2027-ci illər üçün APA prezidentliyinə namizədin irəli sürülməsi prosesi həyata keçirilib. Bu qərarlar assambleyanın gələcək fəaliyyətinin səmərəli və ardıcıl şəkildə davam etdirilməsinə xidmət edir.

Plenar iclasda, həmçinin APA Nizamnaməsinə və İcraiyyə Şurasının tövsiyə etdiyi daxili qaydalara bir sıra dəyişikliklərin edilməsi məsələsi müzakirəyə çıxarılıb və yekdilliklə təsdiqlənib. Bu dəyişikliklər assambleyanın fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi və idarəetmə strukturunun daha da effektivləşdirilməsi məqsədi daşıyır.

Sessiya çərçivəsində digər mühüm məsələlərin müzakirəsindən sonra APA-nın 15-ci plenar iclası rəsmən bağlı elan edilib. Təşkilatın gələcək fəaliyyət planları çərçivəsində qəbul edilən qərarların Asiya regionunda sülh, sabitlik və inkişafın gücləndirilməsinə mühüm töhfə verəcəyi vurğulanıb.

***XQ***

# MEDİA-nın kiberhücum məlumatı

***Fevralın 20-də ölkəmizin bir sıra onlayn media resurslarına qarşı həyata keçirilən kütləvi kiberhücumu Azərbaycanın informasiya təhlükəsizliyinə təhdid kimi qiymətləndirir və bildiririk ki, veb-saytların fəaliyyətinin bərpası istiqamətində zəruri tədbirlər görülməkdədir.***

Bu barədə Medianın İnkişafı Agentliyi məlumat yayıb.

“Hazırda müvafiq dövlət qurumları tərəfindən kütləvi kiberhücumun nəticələrinin aradan qaldırılması və gələcəkdə belə halların təkrarlanmaması üçün təxirəsalınmaz tədbirlər həyata keçirilir.

Ölkəmizin informasiya təhlükəsizliyinə yönəlmiş bu hücum bir daha sübut edir ki, milli informasiya məkanımız daim ictimai fikri çaşdırmaq istəyən qüvvələr tərəfindən nəinki dezinformasiya və yanlış xəbərlərin yayılması, habelə media infrastrukturuna müdaxilə olunaraq məlumatın mənbədən silinməsi və dəyişdirilməsi cəhdləri ilə hədəfə alınır.

Bu kimi halların qarşısının alınması məqsədilə media qurumlarını öz resurslarının mühafizəsinə daha həssas yanaşmağa çağırırıq”, – məlumatda vurğulanıb.

**XQ**

AMEA-nın ümumi yığıncağı

# Azərbaycan elminin növbəti hesabatı

**Fevralın 20-də AMEA-nın Rəyasət Heyətinin binasında Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi yığıncağı keçirilib.**

Məclisdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, elm və təhsil naziri Emin Əmrullayev, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri Famil Mustafayev, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, Türkiyə Elmlər Akademiyasının prezidenti professor Müzəffər Şəkər (onlayn), ÇXR Honkonq Kore Akademiyasının İdarə Heyətinin üzvü professor Li Lei (onlayn), AMEA-nın Rəyasət Heyətinin üzvləri, deputatlar, akademiyanın həqiqi və müxbir üzvləri, AMEA-nın və əhatə etdiyi elmi müəssisə və təşkilatların direktorları, ali təhsil müəssisələrinin rektorları, respublika üzrə 2024-cü il ərzində əldə edilmiş mühüm elmi nəticələrin müəllifləri iştirak ediblər.



Əvvəlcə 2024-cü ilin yekunlarına həsr edilmiş elmi nailiyyətlər sərgisinə baxış olub.

Ümumi yığıncaqda AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin “Akademiyada təməl islahatlardan – İnkişaf Konsepsiyasına və Yol Xəritəsinə” mövzusunda məruzəsi dinlənilib. Bu il martın 27-də AMEA-nın yaradılmasının 80 illiyinin tamam olduğunu bildirən AMEA prezidenti akademiyanın tarixinə nəzər salıb.

Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969–1982-ci illərin ölkəmizdə akademiya quruculuğunun intibah dövrü olduğunu deyən akademik İsa Həbibbəyli sonrakı 1983-1993-cü illərdə Azərbaycan cəmiyyətinin digər sahələrində olduğu kimi, Elmlər Akademiyasında da tədricən enmə və tənəzzülə meyil proseslərinin müşahidə edilməyə başlandığını, nəhayət, 1991-1993-cü illərdə böhran həddinə çatdığını söyləyib. Bildirib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ildən siyasi hakimiyyətə qayıtdıqdan sonrakı 2003-cü ilə qədərki mərhələ yenidən təşkilatlanma və Milli Elmlər Akademiyasının quruculuğu dövrü kimi tarixdə iz salıb.

Məruzədə qeyd olunub ki, akademiyanın inkişafında 2003–2022-ci illər modernləşdirilmə dövrü, 2022-ci ilin oktyabr ayından başlanan yeniləşmə və islahatlar mərhələsi kimi səciyyələndirilə bilər.

AMEA prezidenti akademiyada 2022-ci ildən etibarən bir çox əsas istiqamətlərdə yeniləşmə və islahatların həyata keçirildiyini, akademik elmdə məzmunca müstəqil dövlətimizin ön mövqeyə çıxardığı reallıqlara dair tədqiqatları daha da genişləndirmək və möhkəmləndirmək üçün addımlar atıldığını söyləyib. Bildirib ki, sivilizasiyaların inkişafı və ölkəmizin siyasi-tarixi reallıqlarına əsaslanan, azərbaycançılıq üstündə köklənmiş dövrləşdirmə konsepsiyası işlənib-hazırlanıb. Azərbaycan ədəbiyyatının, tarixinin, milli-mədəniyyətinin, Azərbaycan dilinin çoxəsrlik ortaq inkişaf mərhələləri müəyyənləşdirilib.

Həmçinin Azərbaycan elmi tarixində ilk dəfə olaraq milli fəlsəfə anlayışı elmi dövriyyəyə gətirilib, materialist fəlsəfə ilə yanaşı, idealist fəlsəfənin də öyrənilməsinin örnəkləri meydana qoyulub.

Beynəlxalq əlaqələrə də toxunan məruzəçi akademiyanın 80 illik inkişafı tarixində ilk dəfə olaraq Beynəlxalq Elmi Şura, Beynəlxalq Akademiyalararası Tərəfdaşlıq Akademiyası, Asiya Akademiyaları və Elmi Cəmiyyətləri Assosiasiyası kimi təşkilatların üzvü olduğunu, həmin qurumların Baş assambleyalarının rəhbər heyətlərinin seçkilərində səsvermə hüququna malik olan elmi təşkilat statusunda təmsil olunduğunu, elm sahəsində dünyada gedən prosesləri, yeni çağırışları yaxından öyrənmək imkanı qazandığını bildirib.

Akademik İsa Həbibbəyli AMEA-da yeniləşmə və islahatlar dövründə elektron hərəkata start verilməsinə də diqqət çəkib. Qeyd edib ki, AMEA Rəyasət Heyəti aparatında yaradılan Elektron Akademiya şöbəsi vasitəsilə akademiyanin elmi bölmələrinə və elmi-tədqiqat institutlarına aid 31 elmi jurnaldan 21-nin elektron bazası istifadəyə verilib. Akademiyanın tarixində ilk dəfə olaraq İnsan Resursları Elmmetrik Məlumatlar Bazası, Rəqəmsal Elmi İnformasiya Resursları Sistemi yaradılaraq hər bir əməkdaşın elmi fəaliyyətinin elmmetrik reallığı və istinad göstəricilərinin müəyyən edilməsi mexanizmi formalaşdırılıb. Azərbaycan dilinin dil korpusunun işlənməsi sahəsində addımlar atılıb. Sözlərin Universal Funksionallıqla İşlənməsi sistemi əsasında SUFİ işlək robot modeli işə salınıb.

Akademik İsa Həbibbəyli bildirib ki, dövlətimizin başçısının təsdiq etdiyi Rəqəmsal İnkişaf Konsepsiyasının qarşıya qoyduğu tələblər əsasında Humanitar və İctimai Elmlər sferasında süni intellektdən və rəqəmsal texnologiyalardan istifadə edilməsi üçün əlavə tədbirlər hazırlanaraq həyata keçirilməkdədir.



Sonra çıxış edən elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, ikipilləli doktorantura proqramlarının mahiyyəti kökündən dəyişməli və ən qısa müddətdə kredit əsaslı və strukturlaşdırılmış doktorantura pilləsi hazırlanmalıdır. Nazir müəssisələr tərəfindən Elm və Təhsil Nazirliyinə təqdim edilən faktiki qəbul sayının (doktorant qəbuluna görə) müdafiə edənlərin sayından çox olduğunu deyib. Bildirib ki, elmi-tədqiqat müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi üçün Ali Attestasiya Komissiyası ilə birlikdə müəyyən addımlar atılıb.

“Elmi dərəcə ilə elmi fəaliyyət arasındakı əlaqəni ciddi şəkildə monitorinq etməyə başlamışıq. Elmi dərəcəsi olan şəxslərin statusu yox, sonrakı fəaliyyəti daha çox diqqətimizdədir. Otuz-otuz beş yaşında elmi adı alan alim bütün ömrü boyu bu addan istifadə etməməlidir. Bütün bunlar artıq razılaşdırma mərhələsində olan yeni dövlət proqramında öz əksini tapacaq”, - deyə Emin Əmrullayev əlavə edib.

O, həmçinin fəlsəfə və elmlər doktoru proqramları üzrə həyata keçirilən elmi kadr hazırlığı prosesinin müasir tələblərə uyğun təşkili və bu sahədə təhsil formasının yenilənməsinə dair zəruri tədbirlərin görülməsinə ehtiyac olduğunu qeyd edib.

Elm və təhsil naziri Azərbaycanla bağlı tədqiqatlar aparan sosial və humanitar sahələr üzrə alimlərin stimullaşdırılmasının vacibliyini vurğulayıb. Qeyd edib ki, nəticəyönümlü maliyyələşmə yeni hazırlanmaqda olan dövlət proqramının əsasını təşkil edir: “Elmi fəaliyyətin nəticəsinə söykənən maliyyələşmə ən ədalətli sistemdir. Ayrı-ayrı layihələrin, təqaüdlərin müxtəlif elmi fəaliyyətlərə yönəlmiş müəssisələr və alimlərə verilməsi planlaşdırılır”.

Emin Əmrullayev yeni fəaliyyətə başlayan Qarabağ Universitetində nəticəyə əsaslanan maliyyələşmənin artıq tərtib edildiyini söyləyib.

Nazir, həmçinin son iki il ərzində ali təhsil müəssisələrinin reytinqlərdə irəliləməsini yüksək qiymətləndirib. Azərbaycanda elm sahəsində aparılan islahatlardan danışan Emin Əmrullayev ali təhsil və elmi müəssisələr arasındakı əlaqələrə toxunub. Nazir müvafiq sferada aparılan islahatlar, həyata keçirilən kompleks tədbirlər nəticəsində elm və təhsilin keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyduğunu, elmi məhsuldarlığın yüksəldiyini, müsbət təzahürlərin müşahidə olunduğunu və ölkəmizin beynəlxalq reytinqlərdə irəlilədiyini diqqətə çatdırıb.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova isə çıxışında rəhbəri olduğu qurumun AMEA ilə birgə müxtəlif konfrans və seminarlar keçirdiyini söyləyib.

“Türk dünyasının görkəmli elm və incəsənət xadimləri haqqında AMEA tərəfindən nəşr olunmuş kitablardan böyük və zəngin bir kitabxana yaratmaq mümkündür”, - deyə vurğulayan Aktotı Raimkulova Parisdə UNESCO çərçivəsində Türk dünyasının ilk ensiklopedik əsəri “Divanü lüğat-it-türk” kitabının təqdimatına görə akademiya rəhbərliyinə minnətdarlığını bildirib. Qeyd edib ki, bu gün Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu AMEA ilə birlikdə Bakıda Birinci Türkoloji Qurultayın 100 illiyinin yüksək səviyyədə keçirilməsi üçün hazırlıq işləri görür.

Aktotı Raimkulova əməkdaşlıq perspektivləri, aşıq sənətinə dair təşkil olunacaq beynəlxalq elmi konfrans haqqında danışıb, Azərbaycan alimlərini bu konfransda fəal iştirak etməyə çağırıb. O, Azərbaycan, Türkiyə, Özbəkistan, Qırğızıstan, Qazaxıstan və Türkmənistan alimlərinin sıx əməkdaşlığı sayəsində qarşılıqlı əlaqələrin gücləndirilməsi və inkişafına, bundan sonra da mədəni və elmi təşəbbüslərin genişlənəcəyinə inamını bildirib.

Daha sonra AMEA-nın akademik-katibi akademik Arif Həşimovun “2024-cü Akademik İlin elmi hesabatı” mövzusunda məruzəsi dinlənilib.

“AMEA-nın İnkişaf Konsepsiyası və Yol Xəritəsi” layihəsi haqqında çıxış edən işçi qrupunun rəhbəri, AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsinin müdiri filologiya elmləri doktoru Sərxan Xavəri qeyd edib ki, müzakirəyə təqdim edilən “Azərbaycan Milli Elmlər Akademiyasının 2025–2030-cu illər İnkişaf Konsepsiyası və Yol Xəritəsi” iki əsas bölmədən ibarətdir.

Birinci bölmədə qlobal çağırışlar, dünya elminin yeni inkişaf meyilləri, ictimai və humanitar elmlərin yeni inkişaf trendləri, konsepsiyanın əsaslandırılması, hədəfləri, məqsəd və vəzifələri, akademiyanın tarixi inkişaf xronikası və yeni hüquqi statusu, elmi-təşkilati fəaliyyəti üzrə Yol Xəritəsinin əsas istiqamətləri yer alıb. Bunlardan əlavə, konsepsiyanın icrası üzrə zaman ardıcıllığı, icra və icraya nəzarət mexanizmləri, monitorinq sistemi, nəticə indikatorları öz əksini tapıb. O vurğulayıb ki, bütövlükdə konsepsiyanın birinci bölməsini yaxın beş il müddətində akademiyada inkişaf proseslərini effektiv və davamlı təşkil etmək üçün elmi-fəlsəfi çərçivə sənədi kimi dəyərləndirmək mümkündür.

S.Xavəri diqqətə çatdırıb ki, konsepsiyada onun hazırlanması və icrası zərurəti qlobal, regional və lokal səviyyələrdə olmaqla 3 mühüm amillə izah olunur. Birinci amil müasir dünyanın qlobal inkişaf tendensiyaları, ikinci amil ölkəmizin və regionun yeni geosiyasi reallıqları, üçüncü amil isə respublikada elmin yeni inkişaf mərhələsi ilə bağlıdır.

Məruzəçi bildirib ki, konsepsiyanın ikinci bölməsi “Yol Xəritəsi”dir və burada akademiyanın inkişafı ilə bağlı müəyyənləşdirilən hədəflərə çatmaq üçün çoxsaylı və çoxçeşidli tədbirlər əksini tapıb.

“Konsepsiyanın əsas fəlsəfi platformasını gələcəyi görmə metodologiyası təşkil edir. Konsepsiyada bu metodologiyaya əsaslanaraq yaxın beş ildə elmin inkişafı üzrə mümkün ssenarilər araşdırılmış, onlara hazır olmaq üçün strategiyalar müəyyənləşdirilib, onların icrası mexanizmləri hazırlanıb. Konsepsiyanın və Yol Xəritəsinin icrasına akademiyanın 6 elmi bölmə, 2 regional bölmə, 10 elmi-tədqiqat müəssisəsi, 2 regional elmi mərkəzi, 4 təşkilat, 16 Rəyasət Heyəti şöbəsi olmaqla cəmi 40 qurumu icraçı qismində cəlb olunub”, – deyə alim diqqətə çatdırıb.

Daha sonra AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova, Elm və Təhsil Nazirliyinin İdarəetmə Sistemləri İnstitutunun baş direktoru akademik Əli Abbasov və Gənclər üçün Prezident mükafatçısı, Arxeologiya və Antropologiya İnstitutunun doktorantı Mircavid Ağalarovun çıxışları dinlənilib. Həmçinin Türkiyə Elmlər Akademiyasının (TÜBA) prezidenti professor Müzəffər Şəkər və ÇXR Honkonq Kore Akademiyasının İdarə Heyətinin üzvü professor Li Leinin onlayn çıxışları təqdim olunub.

Sonda “Azərbaycan Milli Elmlər Akademiyasının 2025–2030-cu illər İnkişaf Konsepsiyası və Yol Xəritəsi”nin layihəsi və AMEA-nın Ümumi yığıncağının qərarı təsdiq olunub.

**XQ**

# “Böyük manipulyator”

***Ma E NDEVELD***

*(əvvəli ötən saylarımızda)*

## Mərkəzləşmə proseduru və onun ziyanı

2018-ci ilin əvvəlində hər sahədə uğur qazanmağa çalışan prezidentin komandasının hələ ağlına gəlmir ki, tələsən təndirə düşər. Biz sanki “yumurtaların üstündə gəzirik!”, – deyə Emmanuel Makronun yaxın məsləhətçilərindən biri təşvişlə etiraf edir. Prezidentin komandası elə hesab edir ki, Makronun siyasi rəqiblərinin heç biri onun dırnağı da ola bilməz. Yelisey sarayında hər şeyi prezident Makron ilə Baş katib Kohler idarə edir. Hər şeyə onlar qərar verir və əlbəttə ki, nazirləri, prefektləri, səfirləri, eləcə də ölkənin bütün idarəetmə orqanlarının rəhbərlərini ancaq özləri təyin edirlər.




...Nəticədə sistem bloka düşüb tormozlanır. Bu vəzifələrə can atan çoxsaylı namizədləri bir-bir qəbul edib onlarla söhbət etmək, hansının bu vəzifəyə yararlı olub-olmamasına qərar vermək, təbii ki, çox vaxt aparır. Ona görə də departamentlərin çoxunun prefekturasına hələ nə prefekt təyin olunub, nə də xarici ölkələrə səfirlər. Prezidentlik kampaniyası zamanı Emmanuel Makron bəyan etmişdi ki, əgər prezident seçilsə, ölkənin idarəetmə orqanlarına rəhbər təyin etmək məsələsində Amerikada tətbiq olunan “spolis system” üsulundan istifadə edəcək. Di gəl prezident seçiləndən sonra fikrini dəyişdi. Amma 2017-ci ilin yayında o, hökumətin baş katibi Mark Qiyyomu öz vəzifəsində saxlamaq qərarına gəldi – baxmayaraq ki, onu bu vəzifəyə Hollandın prezidentliyi dövründə, Baş nazir Manuel Valls təyin etmişdi...

Beləliklə, “Contexte” saytında “Vitse Baş nazir” kimi təqdim olunan Mark Qiyyom, nazirliklərarası görüşlərə rəhbərlik edir, eləcə də nazirlər Şurasına təyin olunacaq namizədlərlə görüşüb onların arasında seçim edir. Ona görə də hamı ona, hökumətin bir növ nəzarət qülləsi kimi baxır. Yeri gəlmişkən, 52 yaşlı bu adam, düz səkkiz il Konstitusiya Şurasının katibi olub. Bu da o deməkdir ki, Qiyyom dövlət aparatının bütün sirlərini çox yaxşı bilir. Məhz elə buna görə, xüsusən də dövlət administrasiyasında istədiyini etmək üçün Makron onu öz vəzifəsində saxlamağa qərar verir. Onunla əlaqəni daha da möhkəmləndirmək üçün Makron ilə Bricit, hətta Mark Qiyyomu həyat yoldaşı ilə birlikdə evlərinə şam yeməyinə dəvət edirlər.

Hər şeyi öz nəzarəti altında saxlamaq, hər bir işə qarışmaq, lazım gəldi-gəlmədi hər bir məsələyə öz münasibətini bildirmək tez bir zamanda Emmanuel Makronu hamıdan təcrid edəcək. Dövlətin idarəetmə orqanlarındakı məmurları ixtisar etməkdə Nikola Sarkozidən daha betər olan Makron, Nazirlər Kabinetinin işçilərinin sayını azaldıb on nəfərə endirir. Ümumiyyətlə, Yelisey sarayı nazirlərə çox nadir hallarda məsləhətçilər götürməyə səlahiyyət verir, xüsusən də maliyyə sahəsində. Təbii ki, bundan sonra nazirlər idarə etdikləri nazirliklərin büdcə məsələsinə özləri qərar verə bilmirlər. (!) Bundan başqa, Nazirlər Kabinetində texniki məsləhətçilərin sayını məhdudlaşdırmaqla Makron, dövlət administrasiyalarında nazirlərinin siyasi çəkilərini azaldır.

Müxtəlif nazirliklərdə ixtisara saldığı təcrübəli mütəxəssislərin çatışmazlığını kompensasiya etmək üçün prezident Yelisey sarayında və Baş nazirin kabinetində rəsmi və qeyri-rəsmi məsləhətçilərin saylarını artırır. Dövlət fərmanlarının nəşr olunduğu rəsmi qəzetin yazdığına görə, onların sayı altmışa (!) qalxır, hətta bəziləri, eyni zamanda, həm prezident aparatında, həm də Baş nazirin kabinetində fəaliyyət göstərirlər. Bu, konformizm okeanında Makronun yaratdığı daha bir “yenilikdir”. Çünki onların çoxu İqtisadiyyat Nazirliyində büdcə sahəsində çalışmış maliyyə müfəttişləridir. Bir sözlə, Makronun ətrafındakıların təşkilat inqilabi kimi təqdim etdikləri bu məsələ, əslində, təmiz fransız texnokratiyasıdır.

Makronun prezident kampaniyasında birbaşa və ya dolayısı ilə iştirak edənlər indi özlərini onun tərəfindən tərk olunmuş hiss edirlər. 2017-ci ilin iyul ayında məşhur iqtisadçı Eli Kohen “Challenges” jurnalına verdiyi müsahibəsində belə deyir: “Emmanuel Makron onun layihəsinin inkişafında böyük rol oynamış iqtisadçıların hamısını özündən uzaqlaşdırdı... İndi hətta Yelisey sarayının Baş katibinin belə İqtisadiyyat Nazirliyindən gələn bu texnokratların nöqteyi-nəzərlərini qəbul etmək və ya inkar etmək bacarığı yoxdur”.

Prezident seçiləndən cəmisi bir neçə ay sonra Makron özündən elə bir super-prezident imici yaradır ki, nazirlərin heç biri qorxusundan onun yanında ağzını açıb bir söz deyə bilmirlər. Makron iclaslarda hətta bəzən onları təhqir də edir, sözlərini kobudcasına kəsir, təkliflərinə rişxənd edir. O, müxtəlif administrasiyaların direktorlarını birbaşa Yelisey sarayına çağırmaqdan da çəkinmir. Nə prezident aparatında, nə də nazirlər kabinetində onun sözünün qarşısında heç kim bir söz deyə bilmir. İqtisadiyyat naziri Brüno Lö Mer “Le Monde” qəzetinə böyük bir müsahibə verəndən sonra dərhal Yelisey sarayının Baş katibi Kohler tərəfindən tənbeh olunur. Makronun özünü super-prezident kimi aparması kənardan yaxşı görünsə də, praktikada özünü doğrultmur: Dövləti idarə edən nazir və məmurlar onun bu hoqqalarına çətinliklə dözürlər.

Makron əməkdaşlarına daim təzyiq göstərir. Gecə və gündüz. Hamı bu gərginliyi hiss edir – həm prezident aparatında, həm də Baş nazirin iqamətgahında. Makron bircə dəqiqə də olsun nə özü boş oturur, nə də başqalarına imkan verir. Nəticədə, o prezident seçiləndən on səkkiz ay sonra prezidentin ətrafındakı müşavirlər, məsləhətçilər hamısı yorulub əldən düşür. Hər şeyə şəxsən özü nəzarət edən, gecə-gündüz işləyən, hətta gecələr də yatmayan bir prezident kimi təqdim edilən Makron, istəsə də bütün işlərin öhdəsindən gələ bilmir. Buna baxmayaraq, prezident hətta ona ünvanlanan bütün məktubları şəxsən özü açıb oxuyur. Nəticədə, işlər üst-üstə yığılıb qalır, vacib sənədlərə cavab verməyə nə vaxt qalır, nə də imkan.

## Özünə güvənib hökmranlıq edən texnokrat

Gənc prezident ətrafına təxminən özü yaşda müşavirlər və məsləhətçilər yığıb. Onların hamısı bir yerdə, qəhrəmanlarının şan-şöhrəti üçün əllərindən gələn hər şeyi edirlər. Tarixçi Patrik Buşeron onu, “hakimiyyətə can atan bir dəstə cavan oğlanı başına toplayıb, siyasət aparan” Makiavelli ilə müqayisə edir. Aleksi Kohler (Yelisey sarayının Baş katibi) ilə Makron eyni zövqə malikdirlər – ikisi də hakimiyyətə susayan adamlardır.

Şahmat taxtasında ən vacib fiqur vəzir olduğu kimi, Yelisey sarayında ən vacib fiqur Baş katibdir – dövlət texnokratiyasının xalis məhsulu olan Aleksi Kohler! Milli idarəetmə məktəbinin məzunu olmaqla bərabər, o, həm də çox nüfuzlu biznes məktəbini (Essec) bitirib. Nazirlər kabinetinə daxil olmamışdan əvvəl İqtisadiyyat Nazirliyinin Dövlət Xəzinə Agentliyində (APE) fəaliyyət göstərib. Əsli Alzasdan olan bu adam, üç il Beynəlxalq Valyuta Fondunda (BVF) işləyəndən sonra İqtisadiyyat Nazirliyində Pier Moskoviçinin kabinet direktorunun müavini təyin olunub. “O, çox təkəbbürlü və özündənrazı bir texnokratdır. Belələri, milli idarəetmə məktəbinin qəliblərində hazırlanan vafliyə oxşayır”, – deyə keçmiş iqtisadiyyat naziri Arno Monteburqun komandasının üzvlərindən biri narazılıqla donquldanır.

Əvvəllər Aleksi Kohler və Emmanuel Makron bir-birini tanımırdılar. “Aleksinin timsalında o, ikinci özünü tapıb”, – deyə bir vaxtlar Bricit hamının yanında sevinə-sevinə etiraf edirdi. Amma çox keçmir ki, birinci xanım bu texnokratda hakimiyyətə, hökmranlıq etməyə xüsusi bir iştaha aşkar edir və bundan sonra Kohler onun gözündən düşür. “Aleksinin özünü ərimlə bir səviyyəyə qoyması mənim heç xoşuma gəlmir”, – deyə Bricit rəfiqələrindən birinə şikayətlənir. Doğrudan da, Yelisey sarayında Kohler özünü dəryada balıq kimi hiss edir. Bu baş katib Baş nazir Eduard Philippi gözəl tanıyır. İkisi də bir vaxtlar – tələbəlik dövründə Mişel Rokardın (1988-1991-ci illərdə Baş nazir) təbliğatçısı olublar. O, həm də Brüno Lö Merin kabinet direktoru və Nikola Sarkozinin keçmiş iqtisadi müşaviri, Emmanuel Mulanın da yaxın adamıdır. Onlar Siyasi Elmlər İnstitutunda bir yerdə oxuyublar. İqtisadiyyat Nazirliyində Makronun keçmiş müşavirlərindən birinin dediyinə görə “Kohler xidmət işlərində çox liberaldır, həm də vergi məsələlərində sağçılar partiyasının ideyalarına daha yaxındır”. Makronun prezidentlik kampaniyası zamanı o, varlı səhmdarların artıq vergi ödəməklərinin ləğv olunması təklifini dəstəkləmişdi, halbuki Filip Marta və Jan Pisani-Ferri kimi iqtisadi ekspertlər bu təklifi rədd etmişdilər. Bu təklifi balanslaşdırmaq üçün Filip Marta məcbur olub, daşınmaz əmlakın miras verildiyi adamların vergilərinin artırılmasını təklif edir. Yeri gəlmişkən, bu təklifi vaxtilə ilk dəfə Attali komissiyasının gənc üzvü Emmanuel Makron irəli sürmüşdü... Ancaq bu ideya rəy araşdırmalarından sonra tez bir zamanda rədd edildi, çünki kampaniyanın rəhbərləri hiss etdilər ki, bu, seçicilərin narazılığına səbəb olacaq!

**(ardı var)**

21 Fevral Beynəlxalq Ana dili Günüdür

# Milli kimliyimizin triadası: Vətən, millət, dil

**Bu gün təhsilin təşkilatlanmasından, yeni nəslin tərbiyəsindən danışırıqsa, burada nəzərə almağımız gərəkən mühüm və həssas məsələlərdən biri dilə olan münasibətin düzgün qurulması, uşaqlarımızın kiçik yaşlardan doğru istiqamətə yönləndirilməsidir.**



İlk təhsilin hansı dildə alınması, xarici dilə meyillənmələr hər zaman aktual, müzakirə predmeti olan məsələ olub. Çağdaş zamanımızda da valideynlər daha çox övladlarının xarici dildə təhsil almasını istəyirlər və bu tendensiya bizdə yalnız son illərin göstəricisi sayıla bilməz. Məncə, Sovet dövründən bizdə rus dili mühitinə maraq daha güclü olub. Sonradan buna ingilis və digər dillər əlavə olundu. İnsanlarda belə bir düşüncə formalaşıb ki, sanki xarici sektorda təhsil alan uşaq daha dünyagörüşlü, yüksək nizam-intizama malik olur. Digər səbəblər də var, əlbəttə. Ali məktəbi bitirən məzunlar xarici dili bildikləri təqdirdə işlə daha rahat və asan təmin olunurlar. Valideyn də bunu bildiyindən, övladını məktəbə ayaq qoyduğu ilk vaxtlardan artıq xarici sektora yazdırır, yaxud məktəbi bitirən kimi başqa ölkələrdə təhsilini davam etdirməsi üçün elə kiçik yaşdan uşaqlarına dil bilikləri qazandırmağa çalışır.

Amma burda bir önəmli məqamı unutmaq lazım deyil. İstər sosial tərəqqidə, istərsə də milli şüur hadisəsi kimi üstündə “Ana dili” yazılan kitablar daha böyük iş görüb. XIX əsrin sonunda bir “Vətən dili” dərsliyi hasilə gətirmişdi milli aydınlarımız. O dərsliyin yetişdirdiyi nəsil sonradan Azərbaycanda milli məfkurənin, dövlət müstəqilliyinin qurucuları oldular. Görünür, bu gün də eyni vaxtda həm valideyn, həm də şagird üçün şərikli “Vətən dili” kitabını yazmağın və oxutmağın zamanı gəlib.

Uşaqlar kiçik yaşdan seçim imkanı tanımırlar. Onları yad atmosferə yönləndirən valideynləridir. Təhsildəki təmiz ekoloji mühit sağlam və milli ruhlu gəncliyin yetişməsi üçün çox vacibdir. Bəli, o uşaqlar hətta bir neçə xarici dilə sahiblənmiş olarlar. Amma milli təəssübkeşliyin, milli düşüncənin formalaşmasının düstürü birdir və onun yolu ilk təhsili ana dilində almaqdan keçir.

“Hansı millətin dilində təhsil alırsansa, o millətə məxsussan” fikri sıradan deyilmiş fikir deyil. Cəlil Məmmədquluzadənin “Molla Nəsrəddin” jurnalında çap olunan “Rişədən başlamalı” adlı bir məqaləsi var. Orda yazır ki, “Əgər rişəni baltalayıb ona zərər yetirə bilsək, qol-qanad onsuz da öz-özünə quruyub məhv olacaq. Yoxsa nə qədər ki, rişə sağ-salamatdır, ağac hələ dayanıb duracaqdır”. Yəni, ilk təhsil çox önəmlidir. Xalqına, millətinə bağlı, tarixini və ədəbiyyatını bilən insanlar yetişdirmək istəyiriksə, ilk təhsilin ana dilindən başlamasını nəzərə almalıyıq.

Daha bir məqama xüsusi diqqət çəkmək istəyirəm. Dil bilikləri ayrı, ilk təhsilin xarici dildə əxz olunması ayrı məsələlərdir. Məsələn, Pakistanın mənəvi lideri və ideoloqu, eyni zamanda ən böyük milli şairi Məhəmməd İqbal Kembric Universitetini bitirib. Bizdə XX əsrin əvvəllərində də, ondan əvvəl də milli aydınlarımız bir neçə xarici dil biliblər. Təhsillərini mükəmməlləşdirmək üçün bir neçə xarici ölkənin universitetlərində oxuyublar. Əhməd bəy Ağayev, Məhəmməd ağa Şahtaxtinski Fransanın Sarbon Universitetini bitirib. Peterburq və İstanbul Universitetində təhsil alan Əli bəy Hüseynzadə 7 xarici dili mükəmməl səviyyədə bilib. O qədər mükəmməl ki, Türkiyədə nəşr olunan almanca-fransızca lüğəti redaktə edib.

Əsrin əvvəllərində bu proses ümumiyyətlə, çox intensiv, ardıcıl olub. Amma XX yüzilliyin əvvəllərində milli mədəniyyətin dünyaya açılması, ona məhz yeni mərhələyə keçid üçün, “böyük sintez işi üçün” lazım olub; Avropaya pərvaz etmək və yenidən Şərqrə qayıtmaq üçün lazım olub.. Bu təmasa mədəniyyətin özünün qeyri-milli ölçülərdən yanaşmaq cəhdləri yox idi. Əksinə, o dövrdə ədəbiyyatın özünün pafosu ifrat, aludəçi, milli düşüncəyə xələl gətirə bilən hər hansı neqativ meyllərə qarşı yönəlmişdir. Yada salaq: Cəlil Məmmədquluzadənin “Anamın kitabı” pyesi və bu xüsusda dillə bağlı yazdığı publisistik məqalələri, felyetonları, Mirzə Ələkbər Sabirin eyni məramı aşılayan şerləri, yaxud dünya ədəbiyyatını böyük əzm və inadla təbliğ edən Əli bəy Hüseynzadənin bu mövzuda manifest xarakterli fikrini: “… türklük və islam dairəsində tərəqqi etmək istəriz. Biz arzu edəriz ki, bizim tərəqqimizə baxıldıqda, … türk və müsəlmanlar nə gözəl tərəqqi ediyorlar denilsin. Yoxsa “türklər, müsəlmanlar irtidad ediyor, firəngləşiyorlar” denilməsin”! Yəni bütün hallarda bir amal vardı: “Vətən, millət, dil”!

Bu gün xüsusən, təhsilə ciddi nəzarət olmalıdır. Nəzarət güclü olanda dünya ilə birbaşa dialoqa girmək daha səmərəli nəticə verib. Amma nəzarət zəif olanda fəsadları olub. Xüsusən dini mənsubiyyət mənasında. Məsələn, “Millət şərqisi” adlı milli marşın müəllifi Tofiq Fikrətin oğlu Robert kollecini bitirib. Robert kollecində təhsil alarkən, “İncil” oxuyub, təhsilini davam etdirmək üçün Avropaya gedib və sonda xristianlığı qəbul edib, nəinki dinini dəyişib, hətta Amerika kilsəsində keşiş olub. İlk təhsilin xarici dildə alınması təbii ki, arzuolunan deyil. İbtidai təhsil fərdin bünövrəsini yaradır. Bünövrə milli şüurun təməlini qoymalıdır. Bu mənada, ibtidai təhsilin millli dildə olması son dərəcə vacibdir. Öz dilini bil, tarixini, ədəbiyyatını tanı, sonra istədiyin xarici dili mənimsə. Dünyaya çıxanda da öz milli müəyyənliyinlə çıxmaq, ölkəni təmsil eləmək lazımdır. Biz Avropaya avropalı qafasında çıxacağıqsa, kimə maraqlı olacağıq? Onların kimliyini onlardan yaxşı bilməyəcəyik ki. Ona görə öz ruhumuzu maraqlı etməliyik ki, dünya üçün də maraq kəsb edə bilək.

Təsəvvür edin, kiçik yaşlarından fərddə formalaşmış baza, hansı ki, orada nə Nizami, nə Füzuli, nə Sabir var... Təməldən sən bu sənətkarları tanımadan böyüyürsən. Bu, çox acınacaqlı vəziyyətdir. O təhsil artıq fərdi kökündən ayrı salmırmı? Əlbəttə salır. Bu gün ən böyük bəlamız elə bu deyilmi? Hətta ədəbiyyatın özündə belə gənc nəslin klassikadan nə qədər aralı düşdüyünün şahidiyik. Səbəb qərbə meyillilik, orda yaradılan ədəbiyyata aludəlikdir. Bu, ağrılı bir prosesdir. Yadıma Hüseyn Cavidin 1915-ci ildə yazdığı bir məqalə düşür: “Avropa yolunu tanır-tanımaz, bir də fransız müqəllidliyi meydan aldı. Həm də fransızların az-çox ciddi və məharətli ədəbiyyatı deyil, hoppa, dəyərsiz və çürük əsərləri təqib olundu, tərcümə edildi və özlərindən xüsusi əsər yazanlar belə bir dürlü təqliddən yaxanı sıyıra bilmədilər. Həm də əskilik ilə yeniliyi, əcəmlik ilə fransızlığı qarışdıraraq iki çürük, iki əxlaqsız uçurum arasında qaldılar”. Halbuki, milli baza öz ədəbiyyatımız olmalıdı. Bu mənada, möhtərəm Prezidentimiz cənab İlham Əliyev ard-arda çox mühüm sərəncamlara imza atmaqla milli ədəbiyyata qayıtmaq üçün yaxşı fürsət qazandırır. Klassik ədəbiyyatın latın qrafikası ilə kütləvi nəşri, İmadəddin Nəsimi ili, Nizami Gəncəvi ili, Cümhiriyyət ili, Heydər Əliyev ili, Əhməd Cavad, Əli bəy Hüseynzadə, Cəlil Məmmədquluzadə və başqaları ilə bağlı verdiyi hər qərarla xalq öz milli kimliyinə boylanmağa nail olur. Bu yaxınlarda ölkə başçısı görkəmli bəstəkarımız Üzeyir Hacıbəylinin 140 illiyinin keçirilməsi ilə bağlı sərəncam imzaladı. O Üzeyir Hacıbəyli ki, ərəb, fars, rus, tatar, gürcü, ləzgi dillərini mükəmməl bilməsinə rəğmən XX əsrin əvvəllərində aparılan böyük maarifçi dalğanın önündə gəlir. Onun böyük mücadiləçi bir ruhla ana dili, milli şüur oyanışı ilə bağlı yazdığı məqalələrinin özü dilimizin, mənəviyyatımızın qorunmasına qoyulan ən böyük abidədir. “Hansı vasitələrlə dilimizi öyrənib kəsbi-maarif etməliyik” məqaləsində yazırdı: “... Bizim türk lisanımız Avropa üləma və filosoflarının rəyinə nəzərən ən vəsi və kamil bir dildir ki, onun vasitəsilə insan ən ali fikirlərini və ən dəqiq hisslərini bəyanə qadirdir. Belə bir zəngin lisanın sahibi olub da ondan istifadə etməməyin özü böyük bir bədbəxtlikdir”.




Əlbəttə, seçim imkanı hər valideynin özünə məxsusdur. Heç kəsin qarşısına keçib təzyiq göstərmək mümkün deyil. Bunu yalnız tədrisin özündə müəyyən ayıq-sayıq davranışlara, dürüst ideoloji taktikalara varmaqla nail ola bilərik. Məsələn, necə? Xarici dil sektorunda təhsil alan uşaqlar üçün eyni saat nisbətində Azərbaycan dili və ədəbiyyat dərslərini də bərabərləşdirməklə. Qoy hər bir uşaq ana dilini bilsin, ona sevgi ruhunda böyüsün. Yaxud ədəbiyyat yaradan tarixi şəxsiyyətlərini tanısın, əsərlərini öz dilində mütaliə eləsin. Təhsil qanununda qeyd edilir ki, istənilən beynəlxalq məktəbdə Azərbaycan dili, Azərbaycan tarixi, Azərbaycan coğrafiyası dövlət dilində olmalıdır! Təəssüf ki, dövlət təhsil proqramlarımızın buna riayət etməsi son vaxtlarda reallaşdı. Rus bölmələrində Azərbaycan dilinin saatları iki saatdan, üç saata qaldırıldı, Azərbaycan tarixinin Azərbaycan dilində keçirilməsi ilə bağlı qərar verildi. Bunu Elm və Təhsil Nazirliyi adına ciddi addım hesab etmək lazımdır. Amma bu saat artımı daha çox olmalıdır. Belə olan halda milli varlıq gücünü itirməz, milli idrak kasadlıq yaşamaz, milli təəssübkeşlik hər yetişən nəslin canında, qanında özü ilə birlikdə rişələnər.

Hər xalqın etnomədəni sistemi var. Etnomədəni sistemi qoruyan amil təbii ki, ana dilidir. Bura etnomədəni yaddaş amilini də əlavə etməliyik. Və bu etnomədəni yaddaş məncə, ən əvvəl uşaq yaddaşının saflığına borcludur. Onu zədələmək millətin bütövlüyünü, milli kimliyini zədələyə bilər. Onu qorumaq isə bünövrədə daha önəmlidir. Etnomədəni sistemi qorumaq qloballaşmanın, xüsusən milli dil üzərindəki təhdidlərini dəf etməkdə də yardımçı olar.

*Elnarə AKİMOVA,*
*Milli Məclisin deputatı,*
*filologiya elmləri doktoru*




# “İmarət”– dünənə ehtiram, sabaha inam abidəsi

**Prezident İlham Əliyevin sərəncamı ilə Ağdam şəhərində “İmarət” Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması qərara alınıb.**

Xatırladaq ki, Qarabağ işğaldan azad olunandan sonra xarici mütəxəssislərin iştirakı ilə bu ərazilərdəki digər tarixi-mədəni və dini abidələrlə yanaşı, “İmarət”də də restavrasiya və arxeoloji tədqiqat işlərinə start verilmişdi. Vəhşi erməni vandalizminə məruz qalmış kompleksə, o cümlədən Pənahəli xanın imarətinə, İbrahimxəlil xanın türbəsinə və Xurşidbanu Natəvanın qəbirüstü abidəsinə də ikinci həyat bəxş edilməyə başlamışdı. Ötən il sentyabrın 19-da isə dövlətimizin başçısı XVIII əsrə aid olan bu tarixi kompleksin bərpadan sonra açılışında iştirak edib. İndi isə 20 fevral 2025-ci il tarixli sərəncamla burada “İmarət” Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması rəsmiləşdi.

Qarabağın mərkəzində yerləşən, adının mənası günəş şüaları ilə nurlanmış işıqlı, ağ ev olan Ağdam özünün XIV–XVII əsrlərdən soraq verən Üzərliktəpə, Qutlu Musa oğlu günbəzi, Xanoğlu və digər türbələri, Şahbulaq qalası, daş abidələri, qədim məscidi ilə bərabər, Pənahəli xanı və nəslinin imarəti ilə məşhur bir diyardır.

Azərbaycanın 3 əsrlik yaşı olan tarixi incisi – “İmarət” kompleksi xan nəslinin ilk mülklərindəndir. Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və burada müxtəlif illərdə hakimiyyətdə olmuş İbrahimxəlil xanın, onun oğlu, Qarabağın sonuncu hakimi Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı, görkəmli şair, rəssam Xurşidbanu Natəvanın məzarları “İmarət” kompleksində yerləşir. Şöhrətli xanların nəslindən olmuş digər görkəmli şəxslər də buradakı qəbiristanlıqda dəfn ediliblər.

Kompleksin ərazisi 3,3 hektardır. Bura imarət, türbələr, qəbiristanlıq və mərasim yerləri, eləcə də Qarabağ atlarının təqdimatı və satışı üçün atçılıq parkından ibarətdir. 6 min kvadratmetrlik sahədə yerləşən tarixi qəbiristanlıqda arxeoloji tədqiqat işləri ikinci mərhələdə davam etdirilir. Aparılan araşdırmalar nəticəsində yeni tarixi faktlar üzə çıxarılıb.

Qarabağ tarixinin bir çox məqamları barədə jurnalist tədqiqatlarının müəllifi, “Şuşa” qəzetinin baş redaktoru Vasif Quliyev tarixi mənbələri araşdırmaqla “İmarət” barədə yazılıb-deyilənlərə xeyli dürüstlük gətirib:

– “İmarət”in ərazisi orta əsrlərdən Cavanşirlər nəslinə məxsus olub. Nadir şah öləndən sonra Qarabağa qayıdan Pənahəli ata mülkündə müxtəlif bağlar saldırıb. Bunlardan biri onların nəsil qəbiristanlığı olan ərazidəki “Barlı bağ” olub. Xan bu bağın məhsulunu ehtiyacı olanlara payladarmış. Şuşadan tez-tez Ağdama enən xan burada da özünə bir iqamətgah tikdirir və bu tikili xan sarayı, xan imarəti adı ilə tanınır.

Ata-babaların xatirəsini əziz tutan Pənahəli vəsiyyət edir ki, öləndə onu bu halal mülk yerlərində, ulu babalarının məzarlığında dəfn etsinlər. Beləliklə, bu yer Cavanşirlər nəslinin yeni məzarlığı kimi ikinci həyat qazanır. İlk türbədə Pənahəli xan, ikinci türbədə İbrahim xan, üçüncüdə isə Mehdiqulu xan dəfn olunub. Xan qızı Natəvan da ata-babaları kimi, məhz burada torpağa tapşırılmasını vəsiyyət edib və atasının türbəsinin yanında dəfn edilib.

Həmkarımızın dediyinə əlavə olaraq qeyd edək ki, “Cıdır düzü” şuşalılar üçün nə olubsa, “İmarət” də ağdamlılar üçün həmişə eyni dəyər daşıyıb. Lakin mənfur qonşularımız 1993-cü il iyulun 23-də gözəlliklər diyarının böyük hissəsini işğal edərək yaman günə qoymuşdular. 27 il sonra Azərbaycanın Vətən müharibəsində qazandığı parlaq qələbə nəticəsində Ağdam bir güllə atılmadan tamamilə düşmən tapdağından azad olundu.



Son 4 il ərzində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dəfələrlə Ağdama səfər edərək, həyata keçirilən təmir, bərpa və yenidənqurma işləri ilə tanış olub, bir çox açılış və mərasimlərində iştirak edib, “İmarət” tarixi kompleksinə də baş çəkiblər. Elə bir neçə gün əvvəl dövlətimizin başçısı və xanımı Qarabağa növbəti səfərlərində Ağdamda da sosial layihələrin həyata keçirilməsi ilə tanış olublar.

Dünən isə, möhtərəm Prezidentimiz Qarabağ tarixinin və mədəni irsinin dərindən öyrənilməsi, Pənahəli xan tərəfindən əsası qoyulan Qarabağ xanlığı barədə tarixi faktların təbliği və gələcək nəsillərə ötürülməsi məqsədilə Ağdam şəhərində “İmarət” Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması barədə sərəncam imzalayıb. Bu sənədlə Nazirlər Kabinetinə muzey kompleksinin və oraya daxil ediləcək digər dövlət əmlakının Mədəniyyət Nazirliyinin balansına verilməsi ilə bağlı zəruri tədbirlər görmək tapşırılıb.

Qeyd edək ki, Ağdam İmarət Kompleksi artıq ötən ildən ziyarətçilər üçün açıqdır. Kompleksə gələn qonaqlar, turistlər buradakı park, ziyarətçi mərkəzi, muzey və kafenin xidmətlərindən istifadə edə bilirlər. Yeni sərəncamla isə artıq “İmarət” tarixi kompleksi yeni və daha böyük statusla fəaliyyət göstərəcək, “İçərişəhər”, “Şirvanşahlar”, “Naxçıvanqala”, “Şəki xan Sarayı” kimi, beynəlxalq turizm xəritələrində layiqli yerini tutacaq. Yenə də burada şöhrəti dünyanı dolaşan Qarabağ atlarının auksionları keçiriləcək, eyni zamanda, atçılıq parkında köhlənlərin iştirakı ilə təlim və şou-proqramlar təşkil olunacaq.

*Ə.ƏLİYEV*
*XQ*

# Meksika rəssamlarının “Miqrant ürək” ağrısı




**Milli Azərbaycan Tarixi Muzeyində meksikalı rəssamların “Miqrant ürək” adlı sərgisi təşkil olunub.**

Sərgi çərçivəsində nümayiş olunan əsərlər daha əvvəl Meksikanın müxtəlif bölgələrində, eləcə də ABŞ-ın Los-Anceles, Çikaqo, Dallas, Hyuston, Mayami və Nyu-York kimi iri şəhərlərində sənətsevərlərə təqdim edilib. Əsərlərin Bakıya gətirilməsi Azərbaycan sənət mühitinə yeni nəfəs qataraq mədəniyyətlərarası dialoqu daha da gücləndirir.

Qeyd edək ki, sərginin tərtibatı muzeyin beynəlxalq əlaqələr və ictimaiyyətlə iş şöbəsinin müdiri Zümrüd İsmayılovaya məxsusdur.

**Zümrüd xanım sərgi haqqında XQ-yə müsahibə verərək deyib:**

Bu sərgi Meksikanın ölkəmizdəki səfirliyi və Tarix Muzeyinin birgə təşkilatçılığı ilə həyata keçirilir. Burada ABŞ-da yaşayan 26 amerikalı, həmçinin hər iki millətin daşıyıcısı olan meksikalı və amerikalı rəssamların 40 əsəri sərgilənir.

Miqrasiya mövzusu sənət ilə birləşdirilərək, ilk dəfə Azərbaycanda – Tarix Muzeyində ziyarətçilərə təqdim olunur.

Şəkillərdə Meksikanın mədəni-tarixi məişəti, miqrantların düşüncələri və dünyagörüşləri əks olunub. Rəsmlərə baxdıqca, insan dərin fəlsəfi düşüncələrə dalır və Meksikanın mədəni-tarixi həyatı ilə daha yaxından tanış olmaq imkanı qazanır. Sərgi fevralın 22-dək davam edəcək. Ziyarətçilərimizi sərgini izləməyə dəvət edirik.

*Fidan SALMAN*
*XQ*

# Özbək qardaşlara kitab hədiyyəsi



**Ölkəmizin Özbəkistandakı səfirliyi nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) ilə Əlişir Nəvai adına Özbəkistan Milli Kitabxanasının rəhbərləri arasında görüş keçirilib.**

Kitabxananın direktoru Ümidə Teşaboyeva qonaqları salamlayaraq bildirib ki, Özbəkistanda 12000 kitabxana var və bunlardan 200-ü kütləvi kitabxanadır. Milli Kitabxana mərkəzləşmiş 14 vilayət kitabxanaları ilə sıx əməkdaşlıq edir.

Milli Kitabxananın AMM ilə sıx əməkdaşlığını, iki ölkə xalqları arasında qarşılıqlı anlaşmanın dərinləşməsinə mühüm töhfə verdiyini də qeyd edən direktor bildirib ki, Mədəniyyət Mərkəzinin layihəsi ilə burada fəaliyyət göstərən Azərbaycan guşəsi özbək oxucularına qardaş ölkə, onun mədəniyyəti, incəsənəti, tarixi ilə daha da yaxından tanış olmaq imkanı yaradır.

AMM-nin direktoru Akif Marifli Azərbaycan xalqının qədim zamanlardan yüksək kitabxana işi və kitab oxuma mədəniyyətinə malik olduğunu, onu qiymətli sərvət kimi qoruduğunu qeyd edib. O, bu gün də Azərbaycanda əlyazma nümunələrinin toplanması, saxlanması, öyrənilməsi və təbliğinə böyük önəm verildiyini diqqətə çatdırıb.

Görüşdə sıx əməkdaşlığa dair layihələrin həyata keçirilməsi, fondların zənginləşdirilməsi müzakirə edilib. Sonda Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən Milli Kitabxanaya Azərbaycan mədəniyyəti, dili, tarixi, ədəbiyyatı və s. mövzularda 500-dən çox kitab hədiyyə edilib.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Türküstan üzrə xüsusi müxbiri*

**Daşkənd**

Beynəlxalq həyat

# Tramp dünyanı heyrətə salır

**Dünya heyrət içindədir. ABŞ Prezidenti Donald Trampın Ukrayna müharibəsi və prezident Volodimir Zelenski barədə səsləndirdiyi fikirlər beynəlxalq aləmdə fırtına təsiri yaradıb. Xüsusilə də Ağ ev sahibinin Ukrayna prezidentini "diktator" adlandırması okeanın hər iki tayında ciddi narazılıqla qarşılanıb. Mütəxəssislərin sözlərinə görə, son həftə ərzində yaşananlar 1945-ci ildən bu yana formalaşmış beynəlxalq münasibətlər sistemini alt-üst etməklə yanaşı, Transatlantik əməkdaşlıq münasibətlərini də ciddi şəkildə korlayır. Proseslər belə davam edərsə, "soyuq müharibə"nin başlanmasından sonra formalaşan dünya təhlükəsizlik arxitekturası dağılacaq. Bu da dünya ölkələrini yeni və daha təhlükəli çağırışlarla üz-üzə qoyacaq.**



Ər-Riyaddakı Rusiya–Amerika danışıqları təkcə Vaşinqtonun Qərb müttəfiqləri arasında deyil, ABŞ-ın özündə də qarışıq reaksiyaya səbəb olub. Bu günlərdə Amerika mətbuatında Donald Tramp həm demokratlar, həm də respublikaçılar tərəfindən Kremlə ehtimal edilən güzəştlərə görə tənqid olunur. Siyasi müşahidəçilərin fikrincə, son günlərədək Ağ ev təşəbbüslərinin nəzarətində olduğu Konqresdən keçirəcəyini əmin idi. Lakin hazırda elə bir vəziyyət yaranıb ki, Konqresdəki Respublikaçılar Partiyası fraksiyasının dəstəyi olmadan Tramp hökuməti çətin ki, Ukrayna ilə bağlı hər hansı razılaşmanı həyata keçirə bilsin.

Rusiya nümayəndə heyəti ilə danışıqları izləyən jurnalistlərlə qısa ünsiyyət zamanı ABŞ-ın dövlət katibi rəhbəri Marko Rubio tələsik nəticələr çıxarmamağa çağırıb. Amerika diplomatiyasının rəhbəri xüsusi olaraq vurğulayıb ki, indiyə qədər yalnız ilkin məsləhətləşmələr olub. Bu, hətta danışıqlar deyil, yalnız Kreml və Ağ evin bir – birindən nə istədiklərini və əldə edə biləcəklərini öyrəndikdən sonra danışıqlara hazırlaşmaqdır. Bununla belə, respublikaçılar düşərgəsindən tənqidi fikirlər səsləndirildi. Xüsusilə də sabiq milli təhlükəsizlik müşaviri Con Bolton Ər-Riyad danışıqlarını sərt tənqid etdi. ABŞ-ın bir neçə prezidentinin dövründə ölkənin xarici siyasətini böyük ölçüdə formalaşdıran 76 yaşlı veteran diplomat deyib ki, Ukraynanın 2014-cü il sərhədlərinə qayıtmasının və bu ölkənin NATO-ya üzv olmasının mümkün olmadığını qəbul etməklə Tramp hələ danışıqlar başlamazdan əvvəl uduzub.

Senatın Müdafiə komitəsinin sədri Rocer Uiker də sərt çıxış edib. Düzdür, o, Trampı birbaşa ittiham etməyib, o, daha çox Pentaqonun rəhbəri Pit Heqseti tənqid atəşinə tutub. Xatırladaq ki, müdafiə naziri Brüsseldə Ramşteyn təmas qrupunun iclasında ABŞ-ın Ukraynanın NATO-ya daxil olması kursunu dəstəkləməkdən imtina etdiyini və onun tərəfindən hər hansı ərazi güzəştlərinin qəbuledilməz olduğunu bildirib. Senator Uikerin fikrincə, müdafiə naziri ölkəsinin danışıqlarda tutduğu mövqeləri vaxtından əvvəl açıqlayaraq səhvə yol verib ki, bu da ABŞ-ın müqabilində heç nə istəmədən birtərəfli güzəştlərə getdiyi təəssüratı yaradıb.

Ancaq əsl fırtına fevralın 19-da prezident Trampın Ukrayna lideri Volodimir Zelenski haqqında dediyi ziddiyyətli bəyanatlardan sonra qopdu. Amerika lideri Ukrayna prezidentini sərt tənqid edib və Rusiyanı "uğurlu danışıqlara" görə tərifləyib. Ağ evin sahibi Volodimir Zelenskini seçki keçirmək istəmədiyi üçün onu "diktator" adlandırıb. Trampın sözlərinə görə, Vaşinqton Ukraynaya Avropadan 200 milyard dollar çox xərcləyib. Avropalıların pulları isə "zəmanətlərlə qorunur" və ABŞ isə "heç nəyi geri almayacaq". Amerika lideri hesab edir ki, Rusiyanın Ukraynaya qarşı müharibəsi ABŞ üçün deyil, "Avropa üçün daha vacibdir", çünki Amerika və Rusiyanı "gözəl okean" ayırır. "Mən Ukraynanı sevirəm, lakin Zelenski dəhşətli iş görüb, ölkəsi dağıdılıb və milyonlarla insan lazımsız yerə ölüb və bu, davam edir", – deyə Amerika prezidenti əlavə edib.

ABŞ prezidentinin Zelenskinin "diktator" olması ilə bağlı ittihamları həm ukraynalılar, həm də avropalı müttəfiqlər arasında hiddətə səbəb olub. Bir sıra dövlət başçıları və aparıcı siyasətçilər Vladimir Zelenskiyə dəstək ifadə ediblər. Almaniya kansleri Olaf Şolts "Spiegel"ə müsahibəsində Trampın ittihamlarını yanlış və təhlükəli adlandırıb: "Prezident Zelenskinin demokratik legitimliyini inkar etmək, sadəcə olaraq, yanlış və təhlükəlidir. Zelenski seçilmiş dövlət başçısıdır. Müharibə şəraitində növbədənkənar seçkilərin keçirilə bilməməsi Konstitusiyanın və seçki qanunvericiliyinin tələblərinə cavab verir. Heç kim başqa cür mübahisə etməməlidir. Ukrayna artıq 3 ilə yaxındır ki, özünü Rusiyanın amansız təcavüzündən müdafiə edir".

Fransa prezidenti Emmanuel Makron ölkəsinin və tərəfdaşlarının Ukraynanı dəstəklədiyini və Avropada sülh və təhlükəsizliyin təmin edilməsi üçün tam məsuliyyət daşıyacağını bildirib. Çexiya Prezidenti Petr Pavelin fikrincə, belə bir ölkənin prezidentini "diktator" adlandırmaq böyük sinizmdir. Norveçin Baş naziri Jonas Gahr Stor isə hesab edir ki, bu ittiham çox ədalətsizlikdir: "Zelenski səs çoxluğu ilə seçilmiş prezidentdir və səlahiyyət müddətinin ortasında müharibə yaşayır". Polşanın xarici işlər naziri Radoslav Sikorski vurğulayıb ki, "Bu, Ukrayna Konstitusiyasının məsələsidir. Amma əgər Rusiya danışıqlarda iştirak edən bütün tərəflərin demokratik mandata malik olmasında təkid edərsə, o zaman, bəlkə də, həm Ukraynada, həm də Rusiyada demokratik seçkilər keçirilməlidir".

Zelenskinin "diktator" adlandırılması ABŞ-da da birmənalı qarşılanmayıb. Trampın bəyanatı hətta onun partiyadaşları tərəfindən də tənqid edilib. Məsələn, ABŞ-ın sabiq vitse-prezidenti Mayk Pens prezident Trampın Ukrayna bəyanatlarını açıq şəkildə tənqid edib və Ukraynaya genişmiqyaslı işğala başlayanın Rusiya olduğunu vurğulayıb. O bildirib ki, sülhə gedən yol həqiqət üzərində qurulmalıdır.

Nümayəndələr Palatasında da Ağ evi tənqid edən respublikaçılar var. Bütün bunlar onu göstərir ki, Tramp və komandası respublikaçı qanunvericililərlə görüşərək Ukrayna və onun prezidenti barədə deyilənlər, eyni zamanda, Rusiya ilə aparılan danışıqlar haqqında daha ətraflı izahat verməyə məcbur olacaq. Hazırda respublikaçılar həm Nümayəndələr Palatasında, həm də Senatda ən azı iki il (Konqresdə aralıq seçkilərə qədər) çoxluğu saxlayacaqlar. Bu isə o deməkdir ki, respublikaçılar Rusiyaya qarşı sanksiyaları zəiflətmək və ya ləğv etmək imkanına malikdirlər. Ancaq bunun üçün respublikaçıların hamısı Trampı dəstəkləkməlidir. Əks halda, Ağ evin Rusiya–Ukrayna münaqişəsinə son qoymaq üçün danışıqlar aparmaq imkanları çox məhdud olacaq.

Təbii ki, ABŞ prezidentinin "Ukrayna müharibəsi daha çox Avropanı maraqlandırmalıdır" deməsi və Moskva ilə Vaşinqton arasında okean olmasını vurğulaması belə ehtimallara yol açıb ki, Trampın prioritetləri arasında "qoca qitə" yer almayıb. Belə bir perspektivi Qərb dünyası üçün çox təhlükəli hesab edən politoloqlar xəbərdarlıq edirlər ki, ABŞ-ın Translantik əməkdaşlıq barədə sərgilədiyi mövqe İkinci Dünya müharibəsindən sonra formalaşan təhlükəsizlik arxitekturasının gələcəyini sual altına qoyur.

Avropa İttifaqı liderlərinin də son açıqlamaları onu göstərir ki, "qoca qitə" okeanın o tayından əsməyə başlayan "soyuq küləklər"ə yelkən açmaq fikrində deyil. Avropa Qərb ittifaqının qalmasında maraqlı olduğunu nümayiş etdirir. Bəs ABŞ-Avropa münasibətlərində müşahidə olunan gərginliyin fonunda yeni təhlükəsizlik arxitekturasının yaradılması mümkün olacaqmı? Bu sualın hazırda cavabı yoxdur, amma bu bir həqiqətdir ki, Transatlantik əməkdaşlıq ciddi təhlükə ilə üz-üzədir. Müttəfiqlər bir-birilə anlaşa bilməsələr, Qərb dünyasının sarsıntılarla qarşılaşacağı qaçılmaz olacaq.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

Günün araşdırması

**Bir neçə il qabaq bir məclisdə masanın üzərinə düzülmüş müxtəlif içkilərlə yanaşı, üzərinə "Vur getsin" sözü yazılmış araq şüşəsi də diqqətimi cəlb elədi. Əlimə götürüb diqqətlə o tərəf-bu tərəfinə baxırdım ki, ev sahibi yaxınlaşıb dedi: "Müəllim, mən özüm içən deyiləm, amma əgər meyliniz varsa, bir yüz qram süzsünlər, satıcı çox təriflədi bu arağı". Xətrinə dəyməmək üçün minnətdarlıq etdim və dedim ki, bir az naxoşlamışam, dərman içirəm, sağlıq olsun, başqa vaxt. Çünki əmin idim ki, bu "araq" hardasa gizli sexdə doldurulub, üzərinə də primitiv, sanki, əllə yazılmış etiket yapışdırılıb.**



Ev sahibi yenicə aralanmışdı ki, yanımda əyləşən tanışım yerində qurcalanıb "dünəndən dişim ağrıyır, bəlkə, bir az vurum" deyib "Vur getsin"i açmağa başladı. Əlinin üstündən tutsam da, xeyri olmadı. Süzməyi ilə arağı başına çəkməyi bir oldu. Əvvəlcə istədi ki, ağzını yuma, yuma bilmədi, nəfəs almağa çalışdı, hava gəlmədi, əli ilə nə demək istədi, başa düşmədim. Bir az ara verəndən sonra əcaib nəzərlərlə

# "Vur getsin" və ya "bu nə süd idi mənə verdin?"



mənə baxıb "Əyyub, sənin südünə nə deyim, bu nəydi mənə verdin?" deyib süfrədə əlinə nə keçdi tez-tez yeməyə başladı. Handan-hana özünə gəlib "az qala ölmüşdüm" deyəndən sonra soruşdum ki, Əyyub kimiydi, adını çəkdin? Qayıtdı ki, qoy sənə bir olmuş əhvalat danışım.

"Bir gün rəhmətlik Hüseyn Arif "Baksovet"dən piyada aşağı düşürmüş. Birdən qarşısına şair Əyyub Sədi çıxır. Baxır ki, əlində qəzetə bükülü bir butulka var. Soruşur ki, Əyyub, o əlindəki nədir. Əyyub da bilir ki, araq desə, şair əl çəkməyəcək. Deyir heç, Hüseyn müəllim, süddür, uşağa almışam, tələsirəm. Filarmoniyanın bağına çatanda Hüseyn Arif deyir ki, Əyyub, gəl bir stəkan çay içək, gedərsən. Əyyub etiraz edə bilmir. Əyləşirlər, çay gəlir. Görür ki, Hüseyn Arif bufetə yaxınlaşıb soyutma toyuq, turşu sifariş verir və qayıdıb Əyyubun qarşısında əyləşib düz gözünün içunə baxıb, "Əyyub, dedin bu qəzetə bükülü nədir?" deyə təkrar soruşur. Əyyub da "dedim axı şair, süddür, uşağa aparıram". Hüseyn Arif də təmkinini pozmadan toyuğun budunu dişinə çəkib "ayə, Əyyub, qağan da elə uşaq kimi bir şeydir, süz içək" deyir. Əyyub əlacsız qalıb arağı açıb "daş stəkan"ı ağzınadək doldurur. Elə o da mənim kimi tez başına çəkir və nəfəsi zorla çıxa-çıxa "Əyyub, Əyyub, bu nə südüydü mənə verdin, sənin görüm..." deyib çayxananı iri addımlarla tərk etməyə başlayır. Sən demə, bu, o vaxtlar Vyetnamdan gələn, olduqca acı, keyfiyyətsiz və ucuz araqlardan imiş. Şair də ilk dəfə bu araqdan içirmiş..."

Yəqin ki, bəzilərinizin dodağı qaçdı, güldünüz, bəzileriniz təəssüfləndiniz və sair. Amma inanın, bunları nə gülmək üçün yazıram, nə də kimisə təəccübləndirmək üçün. Sadəcə son vaxtlar çox acınacaqlı bir vəziyyət yaranıb. İstanbulda son bir ayda saxta spirtli içkidən ölənlərin sayı 70-ə çatıb. Ankarada da spirtli içkidən ölənlərin sayında hər gün artım qeydə alınıb. Belə ki, paytaxtda artıq 50-dən çox adam saxta spirtli içki səbəbindən həyatını itirib.

Elə bilirsiniz Azərbaycanda bu sahədə vəziyyət yaxşıdır? Qətiyyən! İndi kim gəldi, araq buraxır, üstünə də qəribə adlar fikirləşib bir etiket də yapışdıraraq paylayır ticarət şəbəkələrinə. Vəziyyət 2019-cu ildən sonra, xüsusilə, acınacaqlı hala düşüb. Çünki 2019-cu ilə qədər ölkədə barmaqla sayılacaq qədər araq istehsalçısı var idi. Şərab istehsalçılarının sayı isə 3–4 idi. Məhz həmin il spirtli içkilərin istehsalı üçün lisenziyalar ləğv olundu. Bundan sonra yoxlamalar, demək olar ki, aparılmadı. İşbazlar da elə bunu gözləyirdilər. Nəticədə bazara 90-a qədər araq istehsalçısının daxil olmasına şərait yaradıldı. Qəribədir ki, cəmi 1 ədəd şərab istehsalçısı meydana gəldi. Çünki şərab istehsalı mürəkkəb, əziyyətli bir işdir, gərək özünün üzüm bağların olsun, xüsusi texnologiyaya sahib olasan. Araq düzəltməyə nə var ki... 5–10 nəfəri yığdın başına, spirti aldın, heç keyfiyyətinə baxmadan doldurdun butulkalara, sat getsin, yəni yuxarıdakı epizodda olduğu kimi, "vur getsin". Bax elə o vaxtdan bazarda böyük xaos yaşanmağa başlandı.

..İri, tanınmış marketlərdən birindəyəm. Məşhur, artıq nəinki respublikamızda, onun hüdudlarından kənarda məhsulları tanınan zavodların və şirkətlərin məhsulları ilə yanaşı, piştaxtalara əcaib adları olan araq məhsulları da düzülüb. Adlarını çəkmirəm, onlar üçün reklam olar. Qiymətlərinə baxıram, 3 manat, 4 manat, 2 manat... İndi özünüz nəticə çıxarın. Bir litrlik arağın təkcə aksizinin qiyməti 4 manat 80 qəpikdir. Üstünə 18 faiz də gəlir vergisi gəlsən, maya dəyəri 5 manat 66 qəpiyə gəlib çatır. Yaxşı, sən "məhsulunu" 3–4 manata, lap 6–7 manata necə sata bilirsən?! Təbii ki, bunlar hamısı saxtadır və ya çox keyfiyyətsizdir, insanların həyatı üçün təhlükə mənbəyidir. Bu məhsulların hazırlanmasında hətta orqanizm üçün çox təhlükəli olan metil spirtlər də bəzən istifadə olunur. Belə araqların çoxu sexlərdə hazırlanır. Lakin maraqlıdır ki, piştaxtalara necə yol tapır?

Bu sahədə müvafiq nazirliklər, digər əlaqədar təşkilatlar lazımi mübarizə aparırlar. Məsələn, bir neçə il qabaq Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi araşdırmalar apardı, vəziyyətin acınacaqlı olduğunu bildirdi. Sübut etdi ki, ölkədə saxta içkilər hətta bahalı restoranlarda müştərilərə təqdim edilir. Yaxud İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti vətəndaşlara dəfələrlə müraciət edərək bildirib ki, saxta məhsulların istifadəsi insan orqanizmi üçün ciddi təhlükə yaradır və belə hallarla rastlaşdıqları, kustar üsulla spirtli içkilər hazırlayıb satan şəxslər barədə hər hansı məlumata malik olduqları təqdirdə, Dövlət Vergi Xidmətinin "195-1" Çağrı Mərkəzinə və yerli vergi orqanlarına məlumat versinlər.

Qeyd edək ki, 1995-ci ildə "İstehlakçıların hüquqlarının qorunması haqqında" qanun qəbul olunub. Sonradan qanuna bir neçə dəfə dəyişikliklər edilib. Lap bu yaxınlarda, yəni keçən ay qanuna daha bir dəyişiklik olub. Alkoqollu içkilərin pərakəndə satışının minimum qiymətinin müəyyən olunması qərara alınıb və bu içkilərin aşağı qiymətə satılması qadağan edilib.

Lakin son vaxtlar akoqollu içkilərin bazardakı vəziyyəti göstərir ki, daha radikal və ciddi tədbirlər görülməsə bu sahədə vəziyyəti stabilləşdirmək olmayacaq. Çünki qanunda dəyişiklik işbazlara həm qiyməti qaldırmağa, həm də keyfiyyətə lazımi nəzarət etməməyə imkan yaradıb.

Burada bir faktı da qabarıq nəzərə çatdırmaq istəyirəm ki, bəzən özünə "sahibkar" deyən bir çox işbazlar başına 15–20 adam yığıb primitiv bir sexi də zavod kimi təqdim edir, "xeyli iş yeri açmışam" deyərək gözdən pərdə asırlar.

Artıq bu məsələ getdikcə daha çox ictimailəşir. Ona görə də adamlar daha fəal olmalı, belə saxtakarları, eləcə də onların kustar yolla hazırladıqları məhsulları tapıb üzə çıxarmalı, vətəndaşlıq mövqeyi göstərməli, hüquq-mühafizə orqanlarına, vergi xidmətinə məlumat verməlidirlər. Yoxsa "vur getsin"lər özümüzün başımızda çatlayacaq.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# Zaqatalada qanunsuz ağac kəsimi

*Baş Prokurorluq, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə məlumatı*

**Vəzifə səlahiyyətlərindən sui-istifadə edilərək qanunsuz ağac kəsilməsi faktı ilə bağlı başlanmış cinayət işinin ibtidai istintaqı davam etdirilir**

Xəbər verildiyi kimi, Zaqatala-Danaçı-Aşağı Çardaxlar avtomobil yolunun kənarlarındakı çoxillik ağacların kəsilməsi və qanunsuz budanması ilə əlaqədar cinayət işi açılıb. Bununla bağlı Baş Prokurorluq və Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən birgə məlumat yayılıb.

Bildirilib ki, daxil olmuş məlumatlar əsasında Zaqatala rayonu ərazisində ağacların qanunsuz kəsilməsi faktı ilə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 259.2.3-cü (qanunsuz olaraq ağackəsmə şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

İlkin istintaq-əməliyyat tədbirləri ilə Zaqatala-Danaçı-Aşağı Çardaxlar avtomobil yolu üzərində yerləşən 1100-dən çox ağacın təhlükəsizlik məqsədilə budanması işləri çərçivəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan Qudayev Muhuma Məmmədəli oğlunun başqa şəxsin adından "14 nömrəli Yol İstismarı" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Paşayev Rüstəm Kamal oğlu ilə müqavilə bağlayaraq, bu il fevralın 15-16-da həmin ərazidə, ümumilikdə, 140 ağacı qanunvericiliyə zidd formada, 7 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin ekoloji tələblərinə riayət etmədən budayaraq zərər yetirməsinə əsaslı şübhələr müəyyən olunub. Belə ki, sözügedən işlər müvafiq təcrübəyə malik olmayan şəxslər tərəfindən, bir çox ağacların alt yarus budaqları götürülməklə və estetik görünüşü korlanmaqla həyata keçirilib, bu işlərdə aidiyyəti nəzarət təşkilatlarının iştirakı təmin edilməyib.

İstintaq zamanı Muhuma Qudayevə məxsus 4 obyektə baxış keçirilib, budanmış ağacların hissələri aşkarlanıb və saxlanca verilib.

"14 nömrəli Yol İstismarı" MMC-nin direktoru Rüstəm Paşayev, 8 saylı "Avtomobil Yollarının Yaşıllaşdırılması" MMC-nin direktoru İlham Namazov, Zaqatala Rayon İcra Hakimiyyəti başçısının Maqov kəndi üzrə inzibati ərazi nümayəndəsi Rəcəb Davudov tutduqları vəzifədən azad edilib, müvafiq nəzarət tədbirlərinin həyata keçirilmədiyinə görə 7 saylı RETSİ-nin rəisi əvəzi Anar Süleymanov və həmin idarənin məsləhətçi-müfəttişi Əfqan Şibiyev vəzifələrinin icrasından kənarlaşdırılıb.

Hazırda Zaqatala rayonu ərazisində baş vermiş digər qanunsuz ağackəsmə faktlarının müəyyən olunması istiqamətində ibtidai istintaq tədbirləri davam etdirilir. Nəticəsi barədə ictimaiyyətə əlavə məlumatın verilməsi təmin ediləcəkdir.

"AZİNŞAAT SERVİS" ASC səhmdarlarının nəzərinə!

7 aprel 2025-ci il saat 11.00-da "Azinşaat Servis" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin icra orqanının seçilməsi.
2. Cəmiyyətin direktorlar (müşahidə) şurasının sədr və üzvlərinin seçilməsi.
3. Cəmiyyətin nizamnaməsinin yeni redaksiyada təsdiqi.
4. 2024-cü il üzrə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin təhlili və təsdiqi.

Telefon – (012) 567-20-12.

Ünvan – Bakı şəhəri, Keşlə qəsəbəsi 4, Köndələn küçəsi 1.

*"Azinşaat Servis" ASC-nin sədri*

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*dənizdə və quruda yükqaldırıcı, xilasedici, qəza takelajlarının və yedəkləmə avadanlıqlarının yoxlanılması, təmiri, testi və sertifikatlaşması xidmətlərinin satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2025-ci il fevralın 27-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili: 1132.

Ünvan – Bakı, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 39 (30733) 21 fevral 2025-ci il, cümə

## İdman

### Bakı "İdman paytaxtı" mükafatı aldı



**İtaliyanın Genuya şəhərində Avropa İdman Paytaxtları Konqresi keçirilib. Tədbirdə Gənclər və İdman Nazirliyinin nümayəndələri "Bakı 2026 – Dünya idman paytaxtı" mükafatının laureatı qismində iştirak ediblər.**

"İdman paytaxtı" mükafatına layiq görülmüş şəhərlərin nümayəndələrini bir araya gətirən konqresdə Gənclər və İdman Nazirliyinin sektor müdiri Elvin Zeynallı Bakıda fəaliyyət göstərən idman qurğuları haqqında məlumat verib. O, 2026-cı ildə ölkəmizdə gerçəkləşdiriləcək layihələr haqqında danışıb, Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi etmək baxımından böyük təcrübəsinin olduğunu qeyd edib.

### Futzal millimiz yunanlarla oynayacaq




**Futzal üzrə Avropa çempionatının əsas mərhələsinin V qrupu çərçivəsində keçiriləcək Yunanıstan – Azərbaycan oyununa təyinatlar açıqlanıb.**

Afinada martın 11-də keçiriləcək matçı Bolqarıstandan olan hakimlər briqadası idarə edəcək.

Baş hakim Trayan Ençevə Kaloyan Kirilov və İvan İvanov kömək edəcəklər. Almaniyalı Sven Ekler isə hakim-inspektor kimi fəaliyyət göstərəcək.

DAİS İdman Arenasında təşkil olunacaq görüş Bakı vaxtı ilə saat 21:00-da start götürəcək.

### Rumıniya rinqində daha 2 qələbə




**Azərbaycanın daha iki boksçusu Rumıniyada gənclər arasında keçirilən "Drakula Open" turnirinə qələbə ilə başlayıb.**

Azərbaycan Boks Federasiyasının məlumatına görə, Nihat Qasımov (51 kq) 1/8 finalda Kristian Serbanı (Rumıniya) 5:0 hesabı ilə məğlub edib. O, 1/4 finalda ilk mərhələdən azad olan Maksim Maşevki (Ukrayna) ilə üz-üzə gələcək.

Rumıniyalı Emzar Qransianı birinci raundda tam üstünlüklə məğlub edən Zidan Hümbətov (54 kq) isə ilk növbəti mərhələdə Roman Spakla (Moldova) qarşılaşacaq.

Qeyd edək ki, bundan əvvəl 3 boksçumuz yarımfinala yüksəlməklə özləri üçün, ən azı, bürünc medalı da təmin ediblər.

"Drakula Open"də final döyüşləri fevralın 23-də olacaq.

*Leylə URBANOVA*
*XQ*

## Yaşıl adalar

# "Eldar" Azərbaycanın öz şamıdır

**Bir vaxtlar yolum ölkəmizin aran rayonlarına tez-tez düşərdü. Burada yol kənarlarında, park və meydanlarda hündür, "çətirli" şam ağaclarını görəndə bunların Sibir tərəflərdən gətirildiyini düşünürdüm.**

Bu ağaclar həm susuzluğa çox davamlıdırlar, həm də yayın qızmarına, qışın sazağına dözürlər. Bu ağacların kölgəsində mən də Günəşin yandırıcı şüalarından çox daldalanmışam. Amma bilmirdim ki, "ağac dostlarım" məhz Eldar şamı adlanır və təbii olaraq yalnız Samux rayonunun ərazisindəki Ellər oyuğu adlanan ərazidə yetişir. Əlbəttə, bunu biləndə çox sevindim. Deməli, Eldar şamı bizim yerlərin "övladıdır". Ona görə də, hər birimizə, necə deyərlər, bir köynək yaxındır.



İndi isə keçək əsas mətləbə. Yuxarıda adını çəkdiyim "Ellər oyuğu" adlanan ərazidəki nadir şam meşəliyini qorumaq üçün Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 16 dekabr tarixli sərəncamı ilə Eldar Şamı Dövlət Təbiət Qoruğu yaradılmışdır. Eldar şamı Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmişdir.

Qeyd edək ki, hələ 1910-cu ildə 3,5 min hektar sahədə Eldar şamı sahəsi botaniki yasaqlıq elan edilmişdi. Azərbaycan hökumətinin 5 may 1948-ci il tarixli qərarı ilə "Eldar şamı" yasaqlığı yaradılmışdı. O illərdə Eldar şamı respublikamızın müxtəlif regionlarının quraq sahələrində əkilməyə başlanılmışdı. Axı, bu hündür, yaraşıqlı ağaclar quraq, az münbit torpaqlı sahələrin yaşıllaşdırılması üçün ən yaxşı vasitədir.

Xatırladaq ki, "Eldar şamı" yasaqlığının 1961-ci ildə 300 hektar sahəsi Türyançay qoruğunun, 1967-ci ildən isə Göygöl qoruğunun filiallarına çevrilib. Eldar Şamı Dövlət Qoruğunun ərazisi 1978-ci ildə dövlət meşə torpaqlarının hesabına 92 hektar artırılıb. Hazırda qoruğun ərazisi 1686 hektardır.

Məlumat üçün bildirək ki, qoruğun yerləşdiyi ərazi şimal-qərbdən cənub-şərqə doğru uzanan alçaq dağlıq sahədir. Torpaq örtüyü burada şiddətli surətdə eroziyaya uğramışdır. Ərazidə yarımsəhra və quru bozqırların (çöllüklər-müəllif) yayı quraq keçən mülayim-isti iqlim tipi hakimdir. "Ellər oyuğu"nda özünəməxsus arid meşə landşaftı yaranmışdır.

Burada meşələr əsasən Eldar şamı, ardıc, saqqız ağacı, murdarça, doqquzdon, nar, efedra, zirinc, qarağan, dovşan alması, qaratikan kimi ağac və kollardan ibarətdir. Qoruğun ərazisinin əsas hissəsini meşə sahəsi, qalan hissəsini isə yarğanlar və sıldırım yamaclar təşkil edir.

Burada heyvanlar aləmi elə də zəngin deyil. Yaz-yay aylarında kərtənkələ və ilanlar ərazidə təhlükə mənbəyinə çevrilir. Buralar həm də əngin səmaların "cəsur sakinləri" sayılan qartalların oylağıdır. Qoruğun ərazisində ev heyvanlarından dovşan, quşlardan isə kəklik daha çoxdur.

Ekoloqlar qeyd edirlər ki, Eldar şamı adi meşələr üçün qeyri-adi hesab edilən şəraitdə bitib inkişaf etdiyindən bu gün ölkəmizin quraq və az münbit torpaqlı ərazilərin yaşıllaşdırılması üçün əvəzsiz ağac növüdür. Ondan tarlaqoruyucu meşə zolaqlarının salınması, dərə və yarğanların eroziyanın qarşısının alınması, qumluqların bərkidilməsi, dekorativ yaşıllaşdırma tədbirləri üçün də geniş istifadə edilir.

Bir sözlə, Eldar şamı ağaclarını nə qədər çox əkib-becərsək, park, küçə və meydanlarımız daim yaşıllıq içində olar. Yaşıllıqlar təmiz hava, oksigen deməkdir. Həm canımız sağlam olar, həm də şəhərlərimiz gözəlləşər.

*MH ACIXANLI*
*XQ*

## Hava

# Külək, qar-çovğun və duman...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 21-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə sulu qar, qar yağacağı gözlənilir.**

Yarımadanın bəzi yerlərində intensivləşəcəyi ehtimalı var. Axşam tədricən kəsiləcək. Güclü şimal-qərb küləyi əsəcək. Gecə və gündüz 0-3° şaxta olacaq. Gecə və səhər qarla müşahidə olunan güclü küləyin çovğun yaradacağı, bəzi yolların isə buz bağlayacağı ehtimalı var. Atmosfer təzyiqi 765 mm civə sütunundan 768 mm civə sütununa yüksələcək, nisbi rütubət 70-80 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, sulu qar, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3° saxtadan 2°-dək isti, gündüz 2-6° isti, dağlarda gecə 7-12°, yüksək dağlıq ərazilərdə 13-18°, gündüz 2-7° şaxta olacaq. Bəzi yerlərdə yolların buz bağlama ehtimalı var.

*QQ ASIMOV*
*XQ*

# Çin su altında da "sədd" tikəcək

**Amerikanın "Popular mechanics" nəşrində dərc olunan məqalədə Çinin Cənubi Çin dənizinin sularını düşmən sualtı qayıqlarından qorumaq istəyindən bəhs edilir.**



Bunun yeni sualtı avtonom sensordan istifadə etməklə həyata keçiriləcəyi güman edilir. O, 2024-cü ilin payızında uğurla sınaqdan keçirilib.

Dənizin dibinə yerləşdirilən sensor minik avtomobili ölçüsündədir. Aşağı tezlikli elektromaqnit dalğalarını izləyir. Belə dalğalar sualtı qayığın fırlanan pərləri tərəfindən yaradılır. Bu dalğalar dəniz suyunda olduqca tez zəifləyir. Bununla belə, sensor suda deyil, dənizin dibi boyunca yayılan siqnalları təhlil edir. Elektromaqnit dalğaları süxurlarda suda olduğu kimi tez zəifləmir.

Dəniz geoloqları artıq neft və qaz yataqlarını axtarmaq üçün bu aşağı tezlikli aşkarlama metodundan istifadə edirlər. Lakin bu texnologiya ilk dəfədir ki, hərbi məqsədlər üçün istifadə olunur.

Dərc edilmiş məlumata görə, çinli alimlər dənizin dibinə yerləşdirilmiş cihaz vasitəsilə 1,86 mil məsafədə olan gəmini aşkarlaya biliblər. Mütəxəssislərin fikrincə, aşkarlama radiusunu 31 milədək artırmaq olar. Lakin bunun üçün məlumat mübadiləsi aparacaq bütün sensorlar şəbəkəsi lazımdır. Bu məqsədlə artıq proqram təminatı yaradılır.

*Leyla HADİ,*
*tələbə-jurnalist*

# Limonlu çay – içdikcə say

**Gündəlik həyatda tez-tez içdiyimiz çay, limonla birləşdikdə sağlamlıq üçün daha da faydalı olur. Mütəxəssislər bildirirlər ki, limon tərkibindəki C vitamini və antioksidanlar sayəsində immunitet sistemini gücləndirərkən, çayın qida dəyərini də artıraraq orqanizmi bir çox müsbət qatqılarla təmin edir.**



Həzmi dəstəkləyən, toksinləri çıxaran və maddələr mübadiləsini sürətləndirən təsirləri ilə seçilən limonlu çay, dadı və sağlamlığa faydaları ilə bir çox insanın seçimidir.

Çaya limon sıxmağın hansı faydaları var?

Limon tərkibindəki yüksək C vitamini sayəsində immunitet sistemini dəstəkləyir və xəstəliklərə qarşı dözümlülük yaradır. O, çayın tərkibindəki antioksidantları artıraraq orqanizmi qoruyur. Limon suyu mədəni sakitləşdirir, həzmi asanlaşdırır və şişkinliyi azaldır.

Limonlu çay yağ yandırılmasını dəstəkləyərək arıqlamağa kömək edə bilər. Tərkibindəki antioksidantlar və C vitamini dərini daha parlaq və sağlam göstərir. Limonlu çay orqanizmi toksinlərdən təmizləyərək detoks effekti yaradır. O, ağız qoxusunu aradan qaldırmağa kömək edir və nəfəsi təravətləndirir.

*Z.HÜSEYNLİ*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov, baş redaktor müavini Tahir Aydınoğlu və redaksiyanın əməkdaşı Namiq Əhmədov Mehdi Hüseynquliyevə qardaşı

**NOVRUZ MƏHƏMMƏD OĞLUNUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3204
SİFARİŞ 375
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00